

SÜRƏYYA-XƏLİL

# MƏN ƏLİYƏM!

SÜRƏYYA-XƏLİL

# Mən Əliyəm!

ƏSGƏR HAQQINDA HEKAYƏ

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121392

BAKI-2022

63(5 Aze) 622.8 + 84(5 Aze)
Х 49

**Sürəyya-Xəlil. Mən Əliyəm!** ***(əsgər haqqında hekayə)***
**Azərbaycan və rusa dillərində**
Bakı, "Azərbaycan" Nəşriyyatı, 2022 – 260 səh.

Kitabda 44 günlük Vətən müharibəsi iştirakçısı, şəhid Məmmədov Əlihüseyn Elşad oğlunun həyat yolundan söz açılır. Nəşrdə Ə.Məmmədova həsr olunmuş "Mən Əliyəm!" adlı povestlə yanaşı, valideynlərinin, iş və qrup yoldaşlarının xatirələri, şeirlər, həyatının müxtəlif dövrlərinə aid fotolar da yer alıb. Füzuli-Cəbrayıl-Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Ə.Məmmədov "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Çapa imzalanmışdır: 17.01.2022
Format: 60x84 1/16.
Fiziki çap vərəqi: 16,25. Sifariş: 160. Tiraj: 400

"Azərbaycan" Nəşriyyatının mətbəəsində çap olunmuşdur.
AZ1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə
Telefon: (+994 12) 538 00 10; Faks: (+994 12) 538 00 55
E-mail: info@neshriyyat.gov.az

**ISBN: 978-9952-33-035-9**

© "Azərbaycan" Nəşriyyatı, 2022



*Bu kitab ölkəsinin parlaq gələcəyi naminə canlarını əsirgəmədən öz Vətənini qoruyan bütün həlak olmuş Azərbaycan oğullarına həsr olunur*




Şəhid Əlihüseyn Məmmədovun əlyazısı

# ÖN SÖZ

Sənin yoxluğun məni çox dəyişdi, oğlum. Baxışım, rəftarım, simam dəyişdi, gözümün rəngi belə dəyişdi. Artıq dünyanı, ətrafı belə əvvəlki kimi görmürəm.

Əslində yoxluğun deyəndə ki, sən varsan, yaşayırsan, bizimləsən. Sadəcə həsrətin məni tar-mar edir. Sən bizdən ayrılmadın, biz səndən müvəqqəti ayrıyıq. Tezliklə görüşəcəyik. Sənin o cənnət məkanında həsrətinə son qoyulacaq. Heç bir zənginlik, heç bir varlıq övlad itkisini əvəz edə bilmir, ancaq heç bir zənginlik də cənnətin qapılarını aça bilmir. Sənin cənnətlik olduğunu, şərəfli yolda şəhid olduğunu düşünmək, mənim, şəhid anasının kədərli gözlərində neçə azərbaycanlının sevincinin yer aldığını düşünmək mənə rahatlıq verir. Ancaq həsrətin məni üzür.

Şəhid anası olmaq çox çətindir. Ancaq onun şərəfini ürəyinin kədəri ilə birlikdə çiyinlərində qürurla daşımaq ondan da çətindir. Çalışıram ki, sən tapşıran kimi ağlamayım. Çalışıram ki, sən dediyin "mənim mamam bacarar" kəlməsinə əməl edim.

Başıma qara da bağlamıram. Bağlasam, yoxluğunu qəbul etmiş kimi olaram. Ağlamamağa çalışıram. İstəmirəm ki, şəhid anasını aciz, sıxılmış, dərddən beli bükülmüş görsünlər. Əksinə, şəhid anası güclü, mərd, qorxmaz, yenilməz olmalıdır. Əgər övlad itkisinə dözə bilirsə, deməli hər şeyə gücü çatar.

*Necə ki demişdin: "Heyif, himnə çatmadım".*

*Necə ki demişdin : "Vətən üçün gedirəm".*

*Necə ki demişdin: "Ölsəm, ağlama".*

*Necə ki demişdin: "Sən də vətənin qızısan".*

*Necə ki demişdin: "Birdən qayıtmaram, xatirəm qalsın".*

*Necə ki demişdin: "Mama, gör, oğlun necə oğul olacaq".*

Deməli ki, bilirdin...

Canınla ödəyib qazandığın o şəhid adına ləkə gətirmək, o adı adiləşdirmək, onun gözəl məqamına kölgə salmaq istəmərəm. Çalışaram ki, adına layiq olum. Qəhrəman oğulun adını şərəflə daşıyan ana olum.

Qoy, şərəfli Əlihüseynin şərəfli anası desinlər...



# KİMDİR ƏLİHÜSEYN?

Məmmədov Əlihüseyn Elşad oğlu 1998-ci ildə Bakıda ziyalı ailəsində anadan olmuşdur. 2005-ci ildə Şəki şəhərində 18 №li məktəbdə ilk təhsilə başlayan Əlihüseyn bir müddət sonra ailəsi ilə birlikdə Bakıya köçür, ibtidai təhsilini Bakıdakı Xarici dillər təmayüllü gimnaziyada tamamlayır. Müəyyən səbəblərdən dolayı ailəsi Əlihüseynin təhsilini rayonda davam etdirməsinə qərar verir. Beləliklə, 2015-ci ildə o, tam orta təhsilini əvvəl oxuduğu Şəki şəhərinin 18 nömrəli tam orta məktəbində tamamlayır.

Məktəb illəri çox sakit keçmiş, fərqli davranışı, mədəni rəftarı, sakit təbiəti ilə həmişə seçilmiş və sevilmişdir.

Heç vaxt münaqişəli hadisələrdə adı hallanmayan Əlihüseyn günlərin birində bir mübahisəyə qoşulur. Bundan təəccüblənən dostları onu kənara çəkməyə çalışır: "Mən mübahisəyə qoşulmuşam, o demək deyil ki, dava-dalaş edəcəm. Hər məsələni mədəni şəkildə də həll etmək olar", – deyib məsələni özünəməxsus sakit tərzdə həll edir. Yoldaşları çox vaxt ona "ağsaqqal" deyə müraciət edir.

Ali təhsil üçün texniki fənləri seçən Əlihüseyn tam orta təhsilini yaxşı qiymətlərlə başa vurur. Attestat qiymətləri arasında "əla" qiymətlərini Tarix fənnindən alması o zaman üçün təsadüfi görünsə də, indi özünün təsdiqini tapır.

2016-cı ildə ADNSU-nun "Energetika mühəndisliyi" fakültəsinə daxil olub, 2020-ci ildə bitirmişdir.

Əlihüseynin ailəsi maddi baxımdan yaxşı təminatlı bir ailə olsa da, o, heç vaxt valideynlərinə cibxərcliyi üçün müraciət etməzdi. Atası hər gün ona pul verir və hər dəfəsində də:

- Pulum var, - deyirdi.

Xərcliklərini yığıb qənaətlə xərcləyən Əlihüseyn geyimlərini də çox zaman o puldan alırdı.

"Öz ayaqlarımın üstündə durmaq istəyirəm" arzusu Əlihüseyni tələbəlik illərində kiçik xidmətlərdə olsa da, işləməyə gətirib çıxarır. O, ilk iş həyatına supermarketlər şəbəkəsində əvvəl satıcı, sonra kassir kimi başlayır.

Daxilində olan böyük məsuliyyət hissi onu iş həyatında qüsursuz edir. Rəhbər heyətlə, iş yoldaşları, müştərilərlə qurduğu düzgün münasibətdə son dərəcə səmimi və mədəni olur. Bu xüsusiyyətləri ilə rəhbər heyətin etibarını və hörmətini qazanan Əlihüseyn hər zaman onların diqqət mərkəzində olur. İmtahanlar zamanı işinə ara vermək məcburiyyətində qaldığını vurğulasa da, bir işçi olaraq onu itirməmək üçün ona münasib iş qrafiki qurulur. Onun yorulduğunu görən valideynləri dəfələrlə işdən azad olunmasını istəsə də, o buna razı olmur: "Siz mənimçün bu yaşıma qədər çox əziyyət çəkmisiniz. Heç olmasa, bundan sonra az da olsa, mənim sizə köməyim dəysin istəyirəm".

Sakit dünyasında ədalətsizliyə qarşı çılğınlıq göstərən biri idi Əlihüseyn. İşçilərin haqqını öz haqqı kimi müdafiə edirdi. Ətrafındakıların problemini öz problemi bilib həll etməyə çalışırdı. O, öz problemlərində heç zaman ailəsinə müraciət etməzdi. Güclü xarakterindəki məsuliyyət hissi onun bütün işlərinin nizamlı olmasına gətirib çıxarırdı. Valideynləri bəzən ona:

- Gərək, arada gəlib səni universitetdə soruşaq, maraqlanaq, - deməsinə cavabı:



- Narahat olmayın, mən sizlərin başını aşağı endirəcək heç bir iş tutub sizə utanc hissi yaşatmaram. Məndən arxayın ola bilərsiniz", - olurdu. Ailəsi onu çox yaxşı tanıyırdı. Belə deməklə onun məsuliyyətini daha da artırırdılar sanki.

Həm oxuyub, həm işləməsi onu istirahətindən də ayırmırdı. Yeməyi çox sevən Əlihüseyn istirahət zamanı maraqlı məkanlara gedir, özü üçün yeni kəşflər edirdi. İstirahət zamanı kiminsə onu narahat etməsini xoşlamırdı. İnsanlara qarşı münasibəti eyni idi deyə ətrafında xüsusi dostları yox idi. Hamıyla eyni cür münasibət bəsləməyə çalışırdı. Arzularını anası ilə bölüşürdü çox vaxt.

Ən böyük xəyalı bir fastfud məkanı açmaq idi. Adını belə düşünmüşdü: "ƏLİNİN BURGERİ".

Anası Arzu xanım:

- Narahat olma, biz sənə lazımi dəstəyi verəcəyik. Sən təhsilini başa vur, vətənə xidmət borcunu yerinə yetir. Zaman o ana çatanda biz o məsələ ilə bağlı işlərə başlayacağıq,- deyirdi.

Övlad kimi Əlihüseyn valideynlərinə heç zaman əziyyət verməmişdi.Onlar da istəyirdi ki,övladlarının çəkdiyi bu qədər zəhmətin dəyərini ona layiqincə versinlər. Onun bütün arzularını reallaşdırmaq üçün artıq maddi cəhətdən vəsait belə hazırlamağa başlayırdılar.

Əfsuslar olsun ki, bəzən həyat bizi arzularımıza doğru gedən yolları dəyişib başqa istiqamətə çevirir. İlahi Yaradanın bizə yazdığı taledən xəbərsiz çıxdığımız yol düşündüyümüz yerdə deyil də, başqa ünvanda tamamlanır.

Ali təhsilini magistr səviyyəsi üzrə tamamlamaq istəsə də, buna nail ola bilməyən Əlihüseyn anasına söz verir ki, hərbi xidmətdən qayıdan zaman mütləq onun bu arzusunu yerinə yetirəcək. Anası Arzu xanım ixti-

sasca müəllimədir. Onun şagirdlərinə verdiyi vətənpərvərlik tərbiyəsi sanki bütünlükdə oğluna yansımışdı. Tez-tez bu mövzuda tədbirlər hazırlayan Arzu xanım evdə tədbirə hazırlıq işləri görərkən Əlihüseyn diqqətlə onu izləyirdi. Anasının vətənə, millətə, bayrağa olan məhəbbət hissini şagirdlərinə necə aşıladığını görən Əlihüseyn bundan ruhlanırdı. Bütün bunlar onda hərbi xidmətə getmək həvəsini artırırdı. Diplom müdafiəsi üzrə işləri tamamlandıqdan sonra artıq bütün fikrini əsgərliyə yönəltmişdi. Hərbi xidmətdə çox yaxın qohumları yüksək rütbələrdə çalışırdı. Hər dəfə bu mövzuda söhbət düşəndə o anasına deyirdi:

– Mən istəmirəm ki, siz məni dayılarıma tapşırıb hərbi xidmətimi rahat şəraitli bir yerdə təmin edəsiniz. Mən bu vətənin oğluyam. Hara göndərilsəm, qoyun, orada xidmətimi layiqincə yerinə yetirim. Mən artıq yetkin yaşa çatmış, müstəqil fikirli bir şəxsiyyətəm. Məndən narahat olmayın. Özümü hər yerdə idarə edə biləcək ağıla, düşüncəyə sahibəm.

Axır zamanlar səbri, demək olar ki, tükənmişdi. Elə hey gözü hərbi komissarlıqdan gələn məktubu axtarırdı sanki.

Bir gün evə gələrək: "Ana, hərbi komissarlığa getdim, komissiyadan keçdim, iyul ayının 7-si gedirəm", – deyərək əlindəki qeydiyyat vərəqini göstərir. Sevincinin həddi-hüdudu yox idi. Uçmağa bir tək qanadı çatmırdı sanki. Anasının gözlərindəki yaşı görən Əlihüseyn: "Ana, niyə ağlayırsan? Mən hərbi xidmətə getməliyəm, hamı kimi vətənə olan borcumu ödəməliyəm. Axı, bu məhəbbəti, Vətən borcunu ödəmək hissini bizə uşaqlıqdan sizlər aşılamısınız. İndi niyə ağlayırsan? Xeyir-duanı ver, ağlama. Söz ver mənə, işdir birdən ölsəm, o zaman da ağlama. Sənin göz yaşlarına dözə bilmədiyimi bilirsən, axı..." – deyib anasını bağrına basır.



Arzu xanım ona pul verdi ki, get ürəyin istəyən nə varsa, al ye. Anasının bu hərəkətinə oğlu:

– Ana, səxavət kisəsini açmısan, deyəsən, – deyərək gülümsünür və davam edir: "Ana, mən bilmirdim ki, sən məni bu qədər istəyirsən, çox narahat olursan, olma."

Tale isə öz amansız işini yavaşca görür...

***

Əlihüseynin könül verdiyi bir qız var idi. İş həyatında tanış olduğu xanıma bu xəbəri sevinclə çatdıranda qız ona:

– Bəlkə, getməyəsən... – demişdi.

Əlihüseyn isə: "Mən Vətəni qorumağa gedirəm".

Qız:

– Bəs, mən?

Əlihüseyn:

– Sən də bu Vətənin qızısan, – deyə cavab vermişdi.

Başqa iş yoldaşının ad günündə ala bilmədiyi hədiyyəni getməyə iki gün qalmış verir: "Ürəyimdə qalmışdı, birdən dönə bilmərəm, mənim səndə bir xatirəm olsun", – deyərək qəhqəhə çəkib gülür.

***

Beləliklə, 2020-ci ilin yay aylarında Əlihüseyn hərbi xidmətə yollanır. Evdə hamıya tapşırır ki, əziyyət çəkib yanına gəlməsinlər.

Onun xidmət etdiyi hərbi hissə uzaq rayonda yerləşdiyi üçün valideynlərinə əziyyət vermək istəmirdi. Əlihüseyn nənə-babasına çox bağlı idi. Nənəsi ondan ötrü yaman darıxırdı. Bu həsrəti görən valideynləri qərara alır ki, nənəni də götürüb əsgər balalarını görməyə getsinlər. Və bu amalla yola çıxırlar. Həmin ərəfədə res-

publikada pandemiya şəraiti olduğu üçün rahat hərəkət etmək olmurdu. Uzaq olan yol müxtəlif səbəblərdən həmin gün daha da uzanır. Müxtəlif maneələrdən keçib, nəhayət, həmin hissəyə gələn valideynlər Əlihüseyni bir qədər gözlədilər. Onları uzun həsrətə alışdırmağa çalışan zaman öz işini asta-asta görürdü. Nəhayət ki, əsgər gəlib onlara yaxınlaşdı. Sevinc dolu görüş baş tutdu. Uzaq yolu əziyyətlə gəlməklərinə görə narazılıq edən Əlihüseyn də ürəyinin dərinliyində bəlkə də bu görüşə çox sevinirdi. Axı, bu görüş onun doğmaları ilə son görüşü idi...

***

Sentyabrın 27-si 2020-ci il. II Qarabağ savaşı. İşğal altında olan torpaqlarımız uğrunda əks-həmlə əməliyyatı ilə başlanan müharibə. Əlihüseynin valideynlərinin başlanan narahatlığı. Oğullarını tanıyan ata-ana bilirdi ki, o, yerində rahat durmayacaq.Vətən deyib bu müharibəyə atılacaq. Hərbi xidmətdə təcrübəsinin bir o qədər çox olmamasına məhəl qoymayacaq Əlihüseyn. Hər gün böyük həyəcanla telefon zəngini gözləyən ana axırıncı dəfə oğlu ilə danışığını belə xatırlayır: "Çox sevincli idi. Sanki nəsə qazanmışdı və onun sevincini yaşayırdı, qürurla danışırdı. Yaxşıyam, ana, əynim-başım istidir. Məndən narahat olma. Meyvə belə yemişəm", – dedi Əlihüseyn.

Bu zamana qədər oğlunun döyüş meydanında olmasından bixəbər olan ananın narahatlığı getdikcə artır: "Axı, bu necə ola bilər?" sualına artıq cəbhədə Əlihüseyn özü komandirinə döyüşə getmək istəyi ilə cavab vermişdi.

Əlihüseyn bacardıqca evlə əlaqəni kəsmirdi, anasının narahatlığını bilib onu xəbərsiz qoymurdu. Sonuncu zəng oktyabrın 7-də olur. Sonra xəbər gəlmədiyini görən ana artıq narahatlıq yaşamağa başlayır.



Ana ürəyi artıq onu xəbərdar etməyə hazırlayan kimi sıxılır. Onun bu hisslərini atası belə vurğulayırdı:

– Həmin gün, Əlinin şəhadətə yetişdiyi gün Arzu özündə deyildi. Cismi evdə, ruhu başqa yerdə idi sanki. Dalğın-dalğın mənə baxır, amma dediklərimi eşitmirdi. Onun bu vəziyyəti heç xoşuma gəlmədi. Qərara aldım ki, onu tək qoymayım.

Beləliklə, acı xəbəri verən zəng gəldi. Əlihüseynin arzuları, gülüşləri, həyəcan dolu sevincləri ilə dolu qoyub getdiyi ev bir anlıq qaranlıq zülmətə çevrildi. Həmin anları heç bir sözlə ifadə etmək olmur. Bu hisslər ancaq kədər dolu gözlərdən axan yaşlarla, ümidsiz qəlblərdə qalan arzularla ifadə oluna bilər.

**Məmmədov Əlihüseyn Elşad oğlu 9 oktyabr 2020-ci ildə Füzuli-Cəbrayıl-Xocavənd istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.**

Yarım qalan arzular, həsrət dolu ümidlər. Bunlara təsəlli yalnız bir kəlmə söz: "Şəhidlik".

Torpaqlarımızın qorunması, Vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Bu şərəfə layiq olan Əlihüseyn öz adını tarixə yazdı. Qəhrəmanlar unudulmur. Onların həyatı gənclərimizə örnəkdir. Hər bir Azərbaycan vətəndaşı öz milli qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şey öyrənməlidirlər. Ən uca zirvəyə – Şəhidlik məqamına ucalanların xatirəsini anmağa həmişə borcluyuq. Onların xatirəsi yaddaşlarda əbədi yaşayacaq!

Mərd idi, qorxmaz idi, hər insanı özünə yaxın buraxmazdı. İnsanların səmimiliyinə əmin olduqdan sonra dostluq edirdi. Zəhmətkeş idi. Hər bir işini özü həll etməkdən zövq alırdı. Kiminsə qarşısında gözükölgəli, diliqısa, minnətli olmaq istəmirdi. Bu kiçik yaşında bu

gününü və sabahını çox düşünüb özü üçün artıq yolunu cızmışdı. Sən demə, daxilində, hətta onun dəstəyinə ehtiyacı olan böyük qardaşını və balaca bacısını belə düşünmüşdü.

**Əlihüseyn belə Əlihüseyn idi.**
**Siz də onu tanıyın, sevin...**





# I FƏSİL

1993-cü ilin bu bazar axşamı Şəki şəhərində elə sərin hava var idi ki, sanki qəflətən hücum çəkən qış oktyabr ayının yerini tezliklə soyuq noyabra verməyə tələsirdi. Günəşin qısa şüaları axşam qürubunun dumanında gizlənirdi.

Toy üçün sadə geyinmiş insanlar "Günay" şadlıq sarayının pilləkənləri ilə yuxarı qalxırdılar.

Binanın özü köhnə idi. Hələ SSRİ dövründə tikildiyinə görə, onun əsaslı təmirə ehtiyacı vardı. Burada mərasimlər indi artıq çox az keçirilirdi. Hər şey hüznlü və nostalji, cansıxıcı görünürdü. Binanın əsas hissəsini Dağlıq Qarabağdan gələn qaçqınlar tutmuşdur; onların uşaqları toya sevinərək, ora-bura qaçırdılar.

Təzə evlənmiş cütlüyün ən yaxın qohumları, qonaqları qarşılamaq üçün böyük zalın pilləkəninin yanında dayanmışdılar. Ailənin başçısı, İsmayılov Nadir, böyük pəncərənin yanında fikirli halda dayanıb, aya baxırdı. Axşamın qaranlığı seyrəlirdi və demək olar ki, dağılmışdı, Şəkinin dibsiz, ulduzları parlayan səması açılırdı. Bu gün hamının hörmət etdiyi kişi öz sevimli böyük qızı Arzunu ərə verirdi. Onun arxasında qonaqların söhbəti gedirdi.

– İndi dəli, təhlükəli zəmanədir! – bakılı Məmməd kişi əl-qolu ilə hərəkət edərək danışırdı. Onun əlindəki tüstüləyən siqaretin külü yerə tökülürdü. – Bu il tez gəlib keçsəydi!

– E-e-e, hə, qardaş, demə day, Qarabağımızın rayonlarını düşmənlər bir-bir qamarlayır. Ermənilər torpaq-

larımızı şərəfsiz yolla ələ keçirir. Zəngilanda o qədər ev yandırıblar, indiyə qədər atırlar. Xocalıda hamını öldürdülər! Eh, kaş ki cavan olaydım... – qoca Cəlal söyləndi.

– Bu həftə mən artıq iki "yasa" getmişəm. Cavanlar yaşamalıdırlar, biz onlara toy etməliyik. Bizim övladlarımız bizi qəbirə qoymalıdır, biz onları yox! – yaşlı Zeynal başını yelləyərək dedi. – Əvvəllər necə də yaxşı yaşayırdıq!

– Hə, gör, biz belə gündə nə danışırıq? Biz bununla yatırıq, bununla da dururuq... Gəlin bu gün gənclərə xoşbəxtlik arzulayaq! Doğrudurmu, Nadir bəy?!

Gəlinin atası kişilərə tərəf çevrildi.

– Gəlin artıq zala girək, indi uşaqlar maşınla gələcək.

Qonaqlar tədricən zala doluşaraq, dəyirmi masalar arxasında yerlərini tutdular. Bir çox insan öyrəşmədiyinə görə videokameranın nişangahı altında özlərini narahat hiss edirdilər.

Böyük masalar gözəl bəzədilmişdir. Mərkəzdə dekorativ güllər, meyvələr və içkilər düzülmüşdür. Salatlar az porsiyalarla səpələnərək dayanmış, gələn qonaqların iştahasını oynadırdılar. Tezlikdə gənc evlənənlərin maşını da gəlib çıxdı. Musiqi və alqış sədaları altında gənclər sürətlə "bəy-gəlin" yerinə keçdilər. Gənc cütlük, gözəl, güc və həyat eşqi ilə dolu idi. Bəzənib-düzənmiş gəlin altdan-altdan qonaqları süzür, qaşqabaqlı atasına və fikirli anasına baxanda ürəyi sıxılırdı. Sağlıqlar arasında musiqi çalınırdı. Rəqs edənlər yalnız balaca uşaqlar və gənclər idi, qalan insanlar qara fikirlərə qapılıb oturmuşdular. Tamada çox danışır, musiqi çalınır, lakin heç kəsin gözündə sevinc yox idi, çünki Azərbaycanda o illərdə hərbi həyat o qədər sərt və ağır idi ki, şənliklə dolu xoşbəxtliyin nə olduğunu camaat unutmuşdu.





Qohumların hər biri mikrofonu götürüb gənc ailəyə arzularını bildirirdi. Növbə Nadirə çatdı. İki dəfə kənara öskürərək, danışmağa başladı.

– Bu gün biz, bir-birinə doğma və yaxın insanlar, bu zalda toplaşmışıq ki, yeni ailənin ilk qədəmlərini bayram edək. Bu çətin vaxtda sizi bir yerdə görməyimə şadam. Hər birinin siması qəmgindir və bu aydındır: torpaqlarımızda müharibə gedir.

Qarabağda qeyri-bərabər döyüşlər gedir. Erməni işğalçıları bizləri qovaraq və öldürərək torpaqlarımızı zəbt edir. Biz böyük itkilər veririk, ağrı və dərd çəkirik. Ancaq vaxt gələcək və biz düşmənin payını artıqlaması ilə verəcəyik! Bütün təcavüzkar separatçıları darmadağın edəcəyik! Övladlarımızın gələcəyi naminə torpaqlarımızı geri qaytaracağıq!

– Arzu, Elşad, balalarım, mən sizə hər şeydən əvvəl sağlamlıq, xoşbəxtlik və qarşılıqlı anlayış arzulayıram.

Əsası isə odur ki, sizin övladlarınız müharibənin nə olduğunu bilməsinlər. Qoy bütün dünyada sülh olsun!

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 121392

# II FƏSİL

Həyat, sanki dalğadır, gəlir və çəkilir, uçur və dayanmır. Zamanı geriyə qaytarmaq mümkün deyil, nəyə də qayıtmalıyıq, dərd və itkilərəmi? Fağır, zəhmətkeş Azərbaycan xalqı çox itkilər gördü, çox şeydən keçdi və dözdü. Bu asan olmayan vaxtda Azərbaycanda hakimiyyət də dəyişdi. Başı çox bəlalar çəkmiş ölkə tədricən özünə gəlməyə başladı.

Budur, gənc Məmmədovlar ailəsində də artım olacaq...

24 yanvar 1998-ci ilin şənbə günü küləkli və soyuq idi, ancaq günəşin mülayim şüaları Bakı şəhəri Dəmiryol xəstəxanasının doğum palatasını isti işıqlandırırdı. Köhnə doğum şöbəsi işıqlı və geniş idi.

Xoşbəxt ana balaca oğlunu nəvazişlə bağrına basırdı.

- Mənim günəşim, "toppuşum"!

- İlkin çox gözəldir, doğulanda çəkisi nə qədər idi?- palata qonşusu olan yaşlı zahı soruşdu.

- Bu mənim ilkim deyil, evdə bir oğlum da var, mən onun üçün qardaş dünyaya gətirmişəm, çəkisi isə üç səkkiz yüz...

- Necə də böyükdür, əhsən! Maşallah! Doğrudan da əsl toppuşdur! - başqa qadın səsləndi. - Adını nə qoyacaqsan?

- Əlihüseyn, qayınatamın şərəfinə.

-Yaxşı addır, qoy oğlun xoşbəxt, sağlam və ağıllı böyüsün.





- Çox sağ ol...

Arzu oğlunun başını yanağına sıxdı. Körpənin istisi, ruhunu isidərək bütün bədəninə yayıldı. Gənc ana düşündü:

- Necə də sevinirəm, oğlum İlkinin kiçik qardaşı var - Əli. O, qardaşının dayağı və müdafiəçisi olacaq. Onun qayğısını çəkəcək, böyük qardaşının tərəfini heç kəsə verməyəcək. Allaha şükür, həkim dedi ki, o sağlamdır, - Arzu rahatlıqla nəfəs aldı.

O, kiçik boylu, miniatür qadın idi, ağbəniz və qanışirin. Dəyirmi üzü təbəssümlü və xeyirxah idi. Təbiətcə səliqə sevən olduğu üçün, çarpayısının yanındakı dolabçanı da təmiz saxlayırdı.

Palataya tibb bacısı girdi. Barmağını saata dirəyərək palataya qışqırdı:

- Qızlar, vaxtdır... Uşaqları xərəyə geri qoyun!

Arzu, gözünü çəkmədən, tərəhhümlə qaraşın yumağa baxırdı. Körpə yuxuda gülümsəyərək şirin-şirin yatır və ağzını marçıldadırdı...

- Ancaq oğlan uşağı doğulub! Bütün doğum evinə iki dənə qız var! Ay sizi analar! Gedirlər, USM edirlər, ancaq oğlanları saxlayırlar. Biabırçılıqdır! - uşaqları uzun xərəyə səliqə ilə düzərək tibb bacısı hiddətlənirdi, - hərçənd ki, Vətən üçün, Azərbaycanın gələcəyi üçün müdafiəçi doğursunuz! Ermənilər bizim hamımızı Qarabağdan qovdular, çoxunu öldürdülər.

- Allah rəhmət eləsin! - hamı astadan söylədi.

- Füzulidə bizim nə boyda evimiz var idi, elə bil, nağıl idi! - bir qadın səsində kədərlə dedi. - O vaxtdan otun və üzümün qoxusunu duyuram. Çardağımızdan elə böyük üzüm salxımları sallanırdı ki. Axan çayın səsi əhvalımızı qaldırırdı. Xoşbəxt idik. Bizim rayon ən

varlı rayon idi. Erməni əsgərləri qonşuların evini dar-madağın etdi, bizi heç bir əşya olmadan çılpaq şəkildə evdən qovdular, qızıl əşyalarımızı üstümüzdən çıxarır, maşınlarımızı əlimizdən alırdılar. Küçəmizdən bir çoxu həlak oldu, piyada gedirdik. Bakıya əzab içində və gözü yaşlı çatdıq, qorxu isə o qədər böyük idi ki, xatırlamaq əziyyət verir. Qonşu uşaq yolda soyuqladı və öldü, gecələr biz qamışlarda gizlənirdik. Hamı yemək, içmək istəyirdi. Qocalarımız şəhərə çatanda, yolda çəkdikləri əzablara tab gətirməyib öldü.

– Bizim Xocalıda o vaxt elə bir dəhşət var idi ki! Qayınatamı və qaynımı ermənilər tikə-tikə doğrayıb itlərə yemlədilər! Buna qədər onlar bizi çox təhqir edirdilər. Biz məzlumları sərgərdan qoydular!

Qoy, Allah onların düşmən gözlərini qurğuşunla örtsün! – pəncərənin yanında uzanmış qadın söylədi. Onun yorğun gözlərinə yaş doldu.

– Amin! – bütün qadınlar ucadan dedilər.

–Yaşamaq qorxuludur! – oğlunu tibb bacısına ötürən Arzu təlaş içində söylədi.

– Qorxmayın, bu körpələr böyüyənə qədər müharibə qurtarar, İnşallah!

Qarabağımızı geri alacağıq! Bu bizim torpağımızdır, Azərbaycanın torpağıdır!

Bizim dahi prezidentimiz var – Heydər Əliyev! O, heç vaxt imkan verməz ki, bizə zərər dəysin. O, öz Azərbaycan xalqını sevir və o bizə işıqlı gələcək bəxş edəcək! O və onun oğlu İlham Əliyev Azərbaycan üçün çox şey edir. Bax, gör, indi bizə necə imtiyazlar verilir, Bakı şəhəri necə sürətlə dəyişir, – yaşlı zahı qadın onu sakitləşdirməyə çalışdı.

– Bəli, hər şey yaxşı olacaq! – uşaqlar olan arabanı çevirərək tibb bacısı təsdiq etdi.





– Allah qoysa! İnşallah, torpaqlarımızı qaytaracağıq! Biz istəyirik ki, uşaqlarımızın gələcəyi olsun! – özü üçün ən əziz olan – oğullarının üzünə baxaraq analar həyəcanla deyirdilər.

# III FƏSİL

Vaxt sürətlə gedirdi, Azərbaycan çox çalışırdı, insanlar özünə gəlirdi. Bütün bu illərdə Azərbaycan hökuməti ölkənin xarici və daxili siyasətinin möhkəmləndirilməsi üçün bütün imkanlarından istifadə edirdi. Şəhərlər dəyişir, Azərbaycan xalqının həyatı yaxşılaşırdı.

05 sentyabr 2001-ci il.

– Arzu, balaların yorulub, bu gün yaxşı yatacaqlar. Demək olar ki, bütün bulvarı gəzdilər, gələn istirahət günü gəl onları zooparka aparaq?! – qonşu Saniyə təklif etdi.

Ucaboy, xoşagəlimli xarici görünüşü olan qadın çox enerjili idi. Bu gün o da özünün üç oğlunu da götürüb şəhərə gəzintiyə çıxmışdılar. Arzu ilə onlar pilləkən qəfəsində qonşu idilər, hər iki ana tez yaxın oldular. Saniyə özünün xüsusi qurulmuş planı üzrə yaşayırdı, əsas bəndlərdən biri burada: hər istirahət günü uşaqları şəhərə gəzintiyə aparmaq idi. Qənaət məqsədi ilə hər iki ana pirojki, ponçik, pelmeni hazırlayırdılar. Bunların hamısını uşaqları yürüşə apararkən özü ilə götürürdülər. Bu günəşli gündə də, doyunca şəhəri gəzib, iki ailə metroya düşdü.

– Hə, bu elədir. İlkinə istirahət lazımdır, çərşənbə axşamı günü onu Şəkiyə valideynlərimin yanına göndərəcəm, – Arzu cavab verdi.

– Deyəsən, qatarımız gəlir! Uşaqlar, bura gəlin! – Saniyə oğlanlarına əmr verdi.





– İlkin, sakit dayan! – xəstə oğlunun çiynindən tutub Arzu yalvarırdı. – Ay Allah, mənə kömək elə! Məni necə də yormusan... Əli, oğlum, qatarımız gəlib çatır, sən də əlini anaya ver.

– Fuad, İlkinə kömək elə!

Qonşunun böyük oğlu, geriyə qalan uşağın dirsəyindən tutdu.

Qatarların hərəkət qrafikinin yuxarı tablosunda işıqlandı: "Əhmədli". Vaqon ağzınadək dolu idi, ancaq nədənsə digər vaqonlar yarıboş idi. Ana başa düşürdü ki, iki uşaqla qonşu vaqona çatdırıb girə bilməyəcək. Dolmuş vaqona minməli oldular.

– Niyə hamınız toplaşmısınız, vaqon boşdur, amma keçmək olmur?! – əlində dolu torbaları olan qadın qışqırdı. Qatara girənlər təəccübünə, vaqonda hamı iki oğlan uşağının üstündə əyilərək sakit dayanmışdı. Uşaqların təxminən doqquz-on iki yaşı olardı. Uşaqların yanında heç kəs oturmamışdı, sərnişinlərin çoxu ağlayırdı.

Uşaqlar səliqəli geyinmişdilər, onları yaşlı kişi müşayiət edirdi. Uşaqların qulaqları kəsilmişdi...

Balaca Əlişka, camaatın içində çətinliklə keçib, rahatlıqla onların yanında əyləşdi, o qardaşını və dostlarını da yanında oturmağa dəvət edirdi. Uşaqların hamısı rahat oturdular. Üç yaşlı Əli yaşca böyük oğlanı əli ilə qucaqlayıb ucadan dedi:

– Pirojkilərimiz qalıb, istəyirsən?

– Yox, çox sağ ol, istəmirəm.

– Niyə sizin qulağınız yoxdur? Canavar dişləyib?

– Xeyr, ermənilər kəsib.

– Oy, sənin də, qardaşının da?!

– O, mənim qardaşım deyil, mənim heç kəsim qalmayıb, hamısını öldürdülər. Dostumun babası bizi bu gün gəzməyə aparmışdı, indi biz yenidən uşaq evinə qayıdırıq.

– Səni incidirdi?

– Məni indiyədək incidir...

– Bəs, erməni kimdir? – balaca Əli sakit durmaq istəmirdi.

– Biz tezliklə düşəcəyik, növbəti dayanacaq bizimdir. – yaşca böyük oğlan səsləndi.

– Sən demədin axı erməni kimdir, harada yaşayır?

– Yaxşı, hələlik! – yetimxana oğlanları qalxdılar ki, çıxışa tərəf getsinlər, insanlar aralaşır, onlara keçmək üçün keçid boşaldırdılar. Qaşqabaqlı qoca, belini büküb, onların dalınca getdi.

Balaca Əli yerindən qalxaraq onların ardından qışqırdı:

– Mənim adım Əlihüseyndir! Mən – Əliyəm! Mən sizi müdafiə edəcəm, erməniləri cəzalandıracam və qulaqlarınızı geri qaytaracam!

Başıbağlı qadın hönkürdü, vaqonda bir çoxları göz yaşını silirdi.





# IV FƏSİL

İllər sürətlə keçir, özü ilə günləri aparırdı. Bu həyatda hər şey dəyişdiyi kimi, Müstəqil Azərbaycanımız da dəyişirdi. O, böyüyür, möhkəmlənir və çiçəklənirdi. Ölkəmizin iqtisadi siyasəti iri templərlə inkişaf edir, başqa ölkələrə nümunə göstərirdi. İnsanların həyatı daha gözəl, yaxşı və stabil olurdu. Yeni nəsil xoşbəxt və sabahkı günə əmin böyüyürdü. Azərbaycan barədə bütün dünya danışmağa başladı!

2010-cu ilin noyabr ayında orta məktəbdə "Azərbaycan tarixi" dərsi gedirdi.

– Sakit olun, sinif, sakit! Hamı sakit olsun! – əli ilə masaya vuraraq, tarix müəllimi ciddi şəkildə dedi. – Belə, lövhəyə çıxır ... Lövhəyə çıxır... Lövhəyə çıxır Məmmədov Əlihüseyn.

Bütün sinif maraqla geriyə çevrildi. On iki yaşlı uşaq, barmaqlarını qulağına tıxayıb, xəlvətcə və maraqla kitab oxuyurdu.

Tarix müəlliməsi onun partasına daha yaxın gəldi.

– Mane olmuruq? – soruşdu, sinifdə hamı güldü.

Uşaq başını qaldırdı və kitabı bağlayınca dərhal ayağa qalxdı.

– Yaxşı, Azərbaycanımız haqqında oxuyursan, bu tərifəlayiqdir! Bəs, sən indi nə oxuyurdun?

– Mən oxudum ki, Azərbaycanın paytaxtı Bakıda 1926-cı ildə SSRİ-də ilk olan elektrik qatarı işə salındı.

– Belə, bəs sonra?!

- Azərbaycanda SSRİ-də ilk olan kondisioner zavodu var idi.

- Bəs, bugünkü mövzu "Qarabağ – Azərbaycanın ürəyidir" barədə nə deyə bilərsən?

- Mən böyüyəndə, Vətənimi erməni işğalçılardan qoruyacam.

Bütün sinif susurdu, müəllimə şagirdinin qarayanız üzünə sakitcə baxırdı.

Arıq, balaca boylu oğlan təvazö ilə böyük qonur gözlərini aşağı saldı.

-Yaxşı, əyləş, doğrudur.

Bu həyatda dinc sakinləri öldürmək, xalqı qovmaq, özgə torpaqları ələ keçirmək, sonra isə bütün dünyaya aydın olmayan müstəqillik ştampını özbaşına vurmaq, necə ki bunu ermənilər bizimlə etdilər. Heç kəsin haqqı yoxdur ki, özgəyə məxsus olanı dağıtsın və ələ keçirsin, sərhədləri dəyişsin, yeni coğrafi xəritələri çəksin, bizim şəhərlərə ad qoysun!

İnsan hər şeyə adaptasiya ola bilər, ancaq müharibəyə öyrəşmək – bu mümkün deyil!

Bu daimi gərginlik, göz yaşı, dərd, çarəsizlik və itki deməkdir...

Bu cür təhlükəli anda, hər bir insanın şüurunda ən dəhşətlisi və zəifi – övladına görə, doğmasına görə qorxudur...

XXI əsrdə, bütün bəşəriyyəti maraqlandıran yalnız tarixi həqiqətdir!

Erməni hökuməti öz gənclərini şovinist əhvali-ruhiyyədə böyüdərək, onun beyninə yalançı məlumat axınını yeridir. Tarixi yenidən dəyişmək və yazmaq olmaz. Nə oldusa, keçdi getdi, ancaq hamının xatirində qalan dərd oldu.





Dünya ictimaiyyətini aldatmaq qeyri-mümkündür! Dünyanı aldatmaq olmaz! Doğrunu yalanla ört-basdır etmək olmaz!

Bu gün bizim Azərbaycan dövlətimiz o qədər güclüdür ki, bədxahların bizə qarşı siyasi intriqa, yalançı tarix qurmağı sadəcə yersiz və qeyri-mümkündür!

Xocalıda həmişə yalnız azərbaycanlılar yaşayıb! Həmvətənlərimizi milli zəmində məhv edir, indiki çiçəklənən Azərbaycanı görmək imkanından onları məhrum etmişlər...

Bugünkü dərsimiz xocalılara həsr olunacaq:

"Bu çərşənbə axşamı günü, uzun il idi. Hər üç tərəfdən bloka salınmış xocalılar yardım gözləyirdilər. Onlar kimin gələcəyini bilmirdilər, dua edir və hər yerdən kömək gözləyirdilər.

Şəhərdə kommunikasiyalar söndürülmüşdür, rabitə çoxdan yox idi. Su təchizatını, işığı erməni döyüşçüləri bağlamışdılar. Əvvəlcə şəhərdəki çörəkxanalar xalqa xəmir paylayırdı, sonra bu da dayandı. Vertolyotlar da uçmadılar.

Ac, mənən əziyyət çəkən insanlar gələcəyə ümidlə yazı gözləyirdi...

Uşaqlar müharibə nə olduğunu və onların evində hər şeyi kimin söndürdüyünü bilmirlər, onlar sadəcə – yemək istəyirlər!

Və budur: axşam, 25 fevral, dəhşətli gecə yaxınlaşır.

Qanlı parlaq ay, həmişəkindən gur parlayır.

Hər bir ailə gecəyə hazırlaşır. Bir-birinə sıx yapışaraq, qadınlar və uşaqlar soyuq döşəmədə yatırlar, çünki istənilən an pəncərəyə barıtla dolu partlayan butulka, ən yaxşı halda isə – daş ata bilərlər. Əliyalın kişilər yatmır, evlərini qoruyurlar.

Küçədə, qışqırıq və yaxınlaşan gurultu səsi ilə qarışıq tikanlı şaxta şaqqıldayır.

Pəncərədən o tərəfdə artıq ara-ara atmırlar, əsl atışma gedir... Və birdən, zingilti başlayır, kiminsə divarı gurultu ilə yıxılır, kiminsə şüşələri sınır ... Atışma daha da ucalır. Yer silkələnir, gurultu artır ... Tanklar gəlir.

İlk üç dəqiqəni hamı düşünür:

"Bu xilaskarlardır, gəliblər Xocalını qaydaya salsınlar, erməni quldurlarını qovsunlar, ancaq..."

Dərsdən sonra müəllimə Əlidən soruşdu:

– Müəllimlər otağında sənin inşanı oxudum. Çox maraqlı yazılıb və onda vətənpərvərlik ruhu hiss edilir. Onu özün yazmısan?

– Mən Vətənimi sevirəm. Onu da, analar kimi, dəyişmirlər! Anam təcrübəli pedaqoqdur, biz kiçik yaşlardan bu cür tərbiyə almışıq.

– Yaxşı, get, sən hər şeyi düz deyirsən.

Məktəbdən çıxanda, Alik, Nadir kişini gözləyərək ətrafa boylandı. Babasının maşını gecikirdi. Bir az gözləyib, uşaq, Ruhəngiz nənəsinin tibb bacısı işlədiyi Mərkəzi Xəstəxana tərəfə üz tutdu.

– A, sən artıq qurtardın? – nəvəsini öpüb soruşdu.

– Baba hələ gəlməyib! Mən futbola gecikirəm! – portfelini nənəsinə verərək nəvəsi hirsləndi.

– Buna bax hələ! Gör nə deyir! Dərslərini edəcəksən! Bu şaxtada nə futbol! Çamır, palçıq! – qadın əlini məhəbbətlə uşağın saçlarına çəkdi, – papağın hardadır? Yenə kiməsə vermisən?

– Nənə, xahiş edirəm, mənə balaca uşaq kimi davranma! Hə, evə getmirsən?





– Yox, ürəyim! Mən hələ işdə ləngiyəcəm, sən isə məktəbin yanına get, baba yəqin ki artıq səni gözləyir, qoy evdə yeməyi qızdırsın, – o uşağın gödəkcəsinin yaxalığını qaldırdı. – Sənə deyirdim axı: başlığı çıxarma, donacaqsan!

Portfeli yelləyə-yelləyə Alik babası Nadirlə toqquşdu.

– Sən burdasanmış, mən isə səni məktəbin yanında gözləyirəm. Yaxşı ki sizin sinfin qızları harada olduğunu mənə dedilər. – Nadir, əyilib nəvəsini öpdü. – Maşında qaynar yuxa var, istəyirsən?

– Yox, bəs Murad məni soruşmadı?

– Yox, soruşmadı.

– Baba, biz dünən futbol oynayırdıq, bu gün tamamlamaq lazımdır. Uduzmağı sevmirəm, başa düşürsən?!

– Sizin komandanızın qapıçısı ikinci sinfə gedir, sən nə gözləyirdin?

Birinci növbədə məktəbdir, oyunlar isə sonra.

– Baba, mən uduzmağı sevmirəm, başa düşmürsən?! Murad balaca olsa da, diribaşdır.

Bu gün Cavid bizimlə oynayacaq, Əli gələcək. Görəcəksən, biz onları mütləq udacağıq!

– Bəs, oxumaq nə vaxt? Dünən səni qonaq aparmadıq ki, dərsini oxuyasan, sən isə sevindin ki, işığı söndürdülər və yenə də qaçıb getdin futbol oynamağa.

– Amma mən yaxşı oxuyuram axı!

– Sən hələ musiqiyə getməlisən!

Bütün yolu evədək Alik maşında susdu. Dözməyib, qoca Nadir təslim oldu:

– Yaxşı, amma birinci yeməyini ye və ev tapşırığını elə.

– Sağ ol, baba! Mən sənin etimadını qırmaram.

Əlüstü əynini dəyişib, Alik dostunun evinə getdi.

Qonşunun oğlu Murad Məmmədovların evinə yaxın yaşayırdı. Onun nənəsi Rəna xala ibtidai sinif müəllimi idi. Nə vaxtsa o Əlihüseynin məktəbində dərs deyirdi.

Evə tərəf qaçıb, Əli əyilərək nəfəsini dərdi. Muradla Cavid artıq evin qarajında dayanıb nasosla topu doldururdular.

– O-o-o, Əli gəldi! Ura-a-a! Yüz faiz qələbə çalacağıq! – sevinən uşaqlar bir-birinə əl verib görüşdülər.

– İndi onların dərsini verərik.... – böyük oğlan böyüklər kimi söyüş söydü.

Rəna xala onlara yaxınlaşdı, qadın başını yelləyərək, uşaqları utandırdı:

– Utanmırsınız belə danışırsınız?

Hamı susub dayanmışdı, təkcə Alik qızararaq, üzr istədi:

– Bağışlayın, bir də belə etmərik.

– Axı, bu sən deyildin!

Alik susurdu.

– Sən başqa uşaqlardan necə də fərqlənirsən, sən qeyri-adi uşaqsan. Balaca idin, gəlirdin və inadla xahiş edirdin ki, başa düşmədiyin tapşırığı sənə izah edim. Bax gör necə də böyümüsən...

Gecə, yatmazdan əvvəl, xoşbəxt Alik, üstündəki adyalı düzəldərək, qələbənin dadını xatırlayırdı:

– Biz udduq, biz qazandıq! Nə olsun ki, ayağım burxuldu, əsası odur ki, bu, qələbədir! Murad isə, o əsl qoçaqdır!





# V FƏSİL

2014-cü ilin başlayan yayı qaynar idi, gündüz günəşinin yandıran şüaları şəkilləri evə salırdı. İnsanlar səbirsizliklə yağışı gözləyirdilər. Aynabənddə Nadir kişi aramla ətirli çay içirdi. Böyük bürünc samovar fısıldaya-fısıldaya tüstü ilə his buraxırdı.

Möhtəşəm evinə göz gəzdirib ailə başçısı nəvəsi Əlinin gəlişinə sevinirdi. Oğlan bir neçə həftə idi ki, yox idi və budur, yenə gəldi Bakıdan.

Nə vaxtsa sakit ev yenidən canlanırdı. Yuxarı mərtəbənin uzaq otağından ürəyə doğma səslər eşidilirdi.

Nəvələrinin səsini dinləyərək, ləzzətlə gülümsəyirdi, uşaqlar pleysteyşn oynayırdılar... Nəhayət, çayı içib, evdən gələn mübahisəyə qulaq verdi:

– İndi mənim növbəmdir! – balaca Nadir hirslənmişdi.

– Mən səni məxfilikdən çıxardım! Sən heç pulta sıxa bilmədin, top diyirlənib getdi!

Kişi müdaxilə etmək qərarına gəldi.

Uşaq otağına girib, maraqla taxta oturub soruşdu:

– Hesab neçədir?

– Mən birinci sıxdım, o isə...– Nadir şikayətləndi.

– Heç nə olmaz, Əli indicə Şəkiyə gəlib, sən ondan dörd yaş balacasan, sən hər şeydə ona güzəşt etməlisən. Axı, siz qardaşsınız!

Sizin adınızı biz babaların şərəfinə qoyublar. Siz özünüzü layiqincə aparmalısınız. Uşaq olanda futbolçuların şəkillərini bölüşürdünüz, dava eləmirdiniz.

Oğlanlar, bir-birinə baxıb, gülürdülər.

Alik Bakıdakı uşaqlığını və ən yaxşı dostu Qara ilə qutuda "toppuş" qarğıdalısını aldıqlarını xatırladı. Hər qutuda arzuladıqları futbolçu şəkli var idi.

Necə də möhtəşəm idi, amma şəkillər təkrarlananda çox acıqlı olurdu, çünki onları sonradan dostlarla bölüşmək lazım olurdu.

Yeniyetmə dövründə olduğuna görə oğlan bir çox şeyi görməyə, anlamağa və götürməyə başladı... Son zamanlar o müstəqilliyə meyilli idi, öz xərclik puluna sahib olmaq və valideynlərindən asılı olmamaq istəyirdi.

– Baba, sən məni işə düzəldə bilərsən? – babasından soruşdu.

– Nəyinə lazımdır ki? Nəyinsə çatışmır?

–Yox e, hər şeyim var. Sadəcə yaydır... İşləyib, nə isə öyrənə bilərdim.

– Bu həyatda hələ çox şey öyrənəcəksən, alim olacaqsan.

–Yox, mən işləmək istəyirəm...

–Yaxşı, bir şey fikirləşərəm. Bir fikrim var, sonra deyərəm.

Bilirsənmi, hər bir iş hansısa sənəti öyrətməlidir...

–Yaxşı, ancaq tez fikirləş, mənim vaxtım yoxdur...

Nadir kişi gülümsəyərək, böyük nəvəsinin boynunu tumarladı:

– Necə də zirək və inadkarsan! Eynən anan kimi...





– Doğmaların orada necədir?

– Hər şey yaxşıdır.

– İlkinin xətrinə dəymirlər?

– Yox, baba, dəymirlər. Ona görə mən çox pis oluram. Qoymaram kimsə onu incitsin!

– E-e-e, sən lap böyümüsən ki, əsl igidsən!

– Baba, mənim üçün də iş tap, mən də istəyirəm! – balaca Nadir babasından xahiş etdi.

– E, xeyr! Sənin hələ on yaşın var... Sən hələ pleysteyşn oyna...

Hamı birdən güldü.

– Gedək Muradın yanına! – balaca Nadir təklif etdi, – o sənin gəlişinə sevinəcək!

– Mən onu artıq görmüşəm, gedək, – pleysteyşni söndürən Əli razılaşdı.

Muradgilin evi işıqlı və sakitlik idi. Oğlanın nənəsi Rəna xala uşaqların qabağına çıxdı.

– A, Əli, gəlmisən?

– Bəli, salam!

– Xoş gəldin! Necə də böyümüsən, kişiləşmisən, bu yaxınlarda getmişdin amma! Sən artıq doqquzuncu sinfi bitirmisən?

–Yox, onuncu.

– Maşallah, əhsən! Zala keç...

Əlinin gözü masanın üstündəki kitaba sataşdı. "Susmaram: Azərbaycanın göz yaşları".

– Bu nədir? – soruşdu.

– Bu türk yazarı Ahmet Kaytancının kitabıdır. O, bizim Qarabağımız haqqında yazır.

– Rəna xala, olar bu kitabı götürüb oxuyum? Mən onu mütləq sizə qaytaracağam.

– Əlbəttə ki, olar.

– Çox sağ olun.

Bütün yayı Əli kitabı oxuyur, təkrar oxuyurdu – bu kitab Azərbaycan xalqının dərdli sınaqlarından bəhs edirdi.

Əzab və insanlara mərhəmət hissi uşağın gənc qəlbini parçalayırdı.

– Baba, necə hesab edirsən, biz "bu gün" torpaqlarımızı geri ala bilərik?

– Torpaqlar onsuz da bizimdir, sadəcə onları erməni işğalçılardan təmizləmək lazımdır. Bilirsənmi, həyatda yalnız bir dəfə elə an olur ki, ona şans verilir və o bu şansdan çatdırıb istifadə etməlidir. Beləliklə, siyasi anımız mütləq gələcək və düşməni torpaqlarımızdan qovacağıq. Ermənilər həmişə qorxaq olublar və rus qardaşının arxasında gizləniblər. Daimi yalanları ilə bizi bir çox ölkələrlə dalaşdırmaq istəyirlər, amma bacarmayacaqlar. Biz hər zaman hər kəslə dost olmuşuq və dost olacağıq, Rusiya ilə də həmişə bir olmuşuq və olacağıq. Doğma Türkiyə bizimlədir və bu ən güclü dövlətdir! Bizə, azərbaycanlılara, hamı hörmət edir!

Ulu Öndərimiz Heydər Əliyevin oğlu hazırkı Prezidentimiz İlham Əliyev hər kəsi hər şeyi qan tökmədən sülh yolu ilə həll etməyə çağırır. Ancaq təəssüflər olsun ki, bir çox ölkələr o qədər hərbi texnika əldə ediblər ki, yəqin, paslanmamaq üçün onu ən qısa zamanda başdan eləmək istəyirlər...Bu, çox böyük pul deməkdir.

Ona görə də boş başlı Ermənistanı dəstəkləyirlər.

Amma bu barədə danışmağa dəyməz. Bizim də siyasi anımız gələcək; bütün erməni şeytanlarını dağıdacağıq...





Alik kitabı oxuyandan sonra uzun müddət qardaşı Nadirə və qonşu oğlan Murada danışdı. Onlar birlikdə maraqla dinləyir və anlayırdılar ki, insan üçün ən doğma nə varsa –Vətənidir, torpağıdır.

O, uşaqlıqdan doğma Şəki torpağına sevgi bəsləyirdi, qalın, şirəli otun üstündə uzanıb uzun-uzadı göyə baxmağı sevirdi. Alaqaranlığı, gün batımını, quşların oxumasını və yağışdan sonra yarpaqların xışıltısını sevirdi.

Axşamların birində, Alik oxuyarkən babasının diqqətli baxışlarını öz üzərində hiss etdi.

– Baba, salam! – nəvə kitabı kənara qoydu.

– Oxuyursan? Sadəcə səni seyr edirdim, səni oxumaqdan uzaqlaşdırmaq istəmədim, – qoca etiraf etdi.

– Heç nə olmaz, hər şey qaydasındadır.

– Kitab xoşuna gəlir?

– Çox! Güclü, ağır kitabdır, sən oxumasan yaxşıdır, ürəyin ağrıya bilər,– Alik ayağa durarkən söylədi.

– Dayan, işim var! – babası onu saxladı. Alik oturub, Nadir kişini diqqətlə dinlədi.

– Mən iş barədə öyrəndim...

– Doğrumu?! – sevinən Alik yerindən sıçradı.

– Otur, otur! Burada qonşu küçədə maşın emalatxanası var, burada minik avtomobillərinin texniki qulluğu ilə məşğul olurlar. Mən səni usta Muradın yanına düzəldəcəm, elektrikin şagirdi kimi. Bu, çörəkli işdir.

– Baba, çox sağ ol!

– Sən yaxşısı budur buna görə qarmonda nə isə ifa elə.

– Mən Qarabağ haqqında ifa edəcəm!

Qəhrəmanlıq melodiyası tez bir zamanda İsmayılovların evinə yayıldı. Musiqi dinləyən Nadir kişi masadan kitabı götürüb vərəqləməyə başladı.

Yaşlı kişinin gözlərindən yaş axırdı.





# VI FƏSİL

Yaz tez keçir, yer üzündəki bütün canlıları isidirdi. Şəkililər məhsul yığımına hazırlaşırdılar. Zəhmətkeş Azərbaycan xalqı yorulmadan çalışdı.

Alik təklif olunan işə böyük maraqla yanaşdı. O, oxumağı və işləməyi sevirdi. Natamam 15 yaşında o, avtomobil modellərini, yanacaq doldurmağı, təkərləri və digər xırda hissələri dəyişməyi yaxşı bilirdi.

Murad usta tələbəsindən çox məmnun idi:

– Əlihüseyn, sən əlasan, götür! – usta oğlanın cibinə pul qoyaraq təntənəli şəkildə dedi.

– Nədir bu? Pul? – oğlan qızardı.

– Niyə qızarırsan? Sən, axı, bu yay pul qazanmaq istəyirdin!

– Bəli, ancaq...

– Utanma, "qaqaş", sən onları vicdanla qazanmısan.

– Çox sağ ol!

Sevinən Əli, az qala yolda müştərini yıxaraq, emalatxanadan qaçdı.

Evə qaçarkən, nəfəsi kəsildi, hər yerə sıçradaraq özünə bir stəkan su tökdü.

– Nə olub? – təəccüblənmiş Ruhəngiz nənəsi soruşdu. Qadın xoşbəxt nəvəsini görüb gülümsədi.

Alik cavab vermədən bütün suyu bir nəfəsdə içdi. Bir az da su töküb tələsik içməyə başladı.

- Allah-Allah! Tələsmə, sakit iç! - deyərək qadın oturdu.

Yeniyetmə susuzluğunu yatırdıqdan sonra qazandığı pulu qürurla ona uzatdı.

- Oy! Qazanmısan nədir? - Ruhəngiz əlləri ilə əzilmiş manatları düzləşdirdi.

- Əhsən, mənim ürəyim! Gizlət, topların həmişə buraxır, krosovkaların cırılır, pul sənə daha çox lazımdır! Ancaq əvvəlcə oxumaq, sonra futbol!

- Mən işləyəcəm! - Əlihüseyn sevinclə söylədi.

- Yox, nə qədər ki biz sağıq, işləməyəcəksən! Tezliklə məktəb başlayır, oxumaq lazımdır. Hazırlığa gedəcəksən... Mən və baban sənə görə valideynlərin qarşısında cavabdehik.

Qardaşının xəstə olduğunu bilirsən və buna görə də onunla dəyişmək məcburiyyətindəsən: o burada, Şəkidə, sən - orada, Bakıda, sən burada - o orada!

- Nənə, amma məndə yaxşı alınır, usta məni tərifləyir.

- Yox, ürəyim, sən oxumalısan və "böyük" adam olmalısan.

Günlər keçdi, dərslər başladı, repetitorlar və musiqi məktəbi gəncin bütün boş vaxtlarını alırdı. Usta Murad öz şagirdinə baş çəkmək və onu yenidən emalatxanaya dəvət etmək qərarına gəldi. İsmayılovların həyətində onu Ruhəngizin özü qarşıladı.

- Salam! Ruhəngiz xala, nəvən evdədir?

- Əleykum salam! Evdə yoxdur, neynirsən onu?

- Siz məni tanmadınız?

- Murad, tanıdım səni, sən nə istəyirdin?





- Alik mənim yanımda işləyirdi, yaxşı işləyirdi. Qoy, işinə qayıtsın! Ona yaxşı pul verəcəm.

- Bilirsən ki, nəvəmin pula ehtiyacı yoxdur, biz onu yaxşı təmin edirik. Qoy, elə məktəbini oxusun.

- Amma onun maşınlara həvəsi var, zəkalıdır! Sən bilirsən, indi elektriklər nə qədər qazanır?! - Murad etiraz etdi.

- Alik ömrü boyu bu qədər qazanacaq ki, xərcləməyə vaxtı olmayacaq! Əsas olan təhsil almaq, instituta qəbul olmaqdır.

# VII FƏSİL

İlham Əliyevin rəhbərliyi ilə yeni Azərbaycan planlı şəkildə çox sürətlə inkişaf edir və güclənirdi. Hər bir dövlət başçısı, xalqını həqiqətən sevərsə, ölkəsini şöhrətləndirə və böyük edə bilər.

Azərbaycanın başçısı ölkəsini küldən qaldırdı və yüksəklərə ucaltdı. İlham Heydər oğlu Əliyevin adı əsrlər boyu tarixə qızıl hərflərlə yazılacaqdır.

2015-ci ilin yayında Azərbaycanda, Bakı şəhərində, ilk Avropa Oyunları keçirildi. Bu parlaq, möhtəşəm hadisə XXI əsrin tarixində xüsusi iz buraxdı.

Bütün dünya Odlar diyarı haqqında danışmağa başladı!

Azərbaycan çiçəklənirdi, genişlənirdi. Hər yerdə evlər, körpülər, xəstəxanalar, məktəblər, uşaq bağçaları, ticarət mərkəzləri və s. tikilirdi.

Azərbaycanın gələcəyinin təməli yüksək sürətlə qoyulur, bütün ölkənin sosial həyat səviyyəsini qaldırırdı. Xalqın sabahkı günə inamı yarandı.

Qədim Bakı şəhəri böyüyür, öz əzəməti və gözəlliyi ilə hamını heyran edirdi.

Turizm inkişaf edirdi. Şərqdən və Qərbdən, Şimaldan və Cənubdan gələnlər Azərbaycana səfər etmək arzusunda idilər. Avropa və Asiyadan gələn turistlər əzəmətli ölkəmizə axışmağa başladılar.

Bütün ölkələr Azərbaycan xalqının gerçək tarixi ilə tanış olmağa başladı. Bir çox əcnəbilər xalqımızın mə-





dəniyyətini, adət-ənənələrini maraqla öyrənib mənimsəyirdilər.

Qəzet səhifələrində bu sözlər getdikcə daha çox yer almağa başladı: "Azərbaycan-QARABAĞ". Dünya KİV-inin Avropa ölkəsinə marağı artırdı. Bütün ölkələrdən jurnalistlər bizim Azərbaycanı ziyarət etməyə başladılar. Kütləvi informasiya vasitələri Qarabağ problemindən daha çox "qışqırmağa" başladı.

Məlum olduğu kimi, bir çox ölkələrin şovinist Ermənistanın oğurluğu və küfründən xəbəri yox idi. Bir çox dövlətlər Azərbaycan xalqına qarşı quldurluq və zorakılıqlar, Azərbaycan torpaqlarının erməni separatçıları tərəfindən işğalı barədə eşitməmişdilər.

Dünya ictimaiyyəti erməni ekstremistlərinin bütün hərəkətlərini və onların Azərbaycan ərazilərini zəbt etməsini pisləməyə başladı.

Azərbaycanın yüksək sosial yüksəlişi çoxdankı düşmənlərin paxıllığına səbəb oldu, nəticədə, Ermənistan elə 2015-ci ildə Türkiyənin yüzillik soyqırımı ilə bağlı qondarma sualı qaldırdı. Bəyan edilən soyqırımın həqiqiliyi bütün dünyada böyük sual və şübhə doğurdu. Növbəti yalan nəticəsində Ermənistan tam "fiasko"ya uğradı! Heç bir ölkə onun uydurduğu yalan hadisəni təsdiqləmədi.

Qonaqpərvər Azərbaycan öz məhəbbəti ilə dünyanın bütün qonaqlarını dəvət edir, qarşılayır və isidirdi, öz qədim Bakı şəhərini onların ürəklərində fərəhləndirirdi, tərənnüm edirdi.

Bu gözəl dövrdə Əlihüseynin gəncliyi rəvan şəkildə yetkinliyə keçirdi. Orta məktəbi Şəki şəhərində bitirən gənc hazırda Bakı şəhərində yaşayır və repetitor yanına gedirdi. Onun gündəlik həyatı həmişəki kimi çox yüklü və işlə dolu idi. "Nizami" metrosundan çıxanda, Alik

köhnə tanışı Rəhimlə qarşılaşdı. Dostlar salamlaşdıqdan sonra qarşılarına çıxan ilk skamyada əyləşdilər.

Qızğın söhbət edən dostlar yenidən görüşmək qərarına gəldilər.

- Alik, mənim ad günümə gələrsən! Mərdəkanda dayımın bağı var. Kabab çəkərik, əylənərik... Dayım indi Almaniyada yaşayır, bağa mən baxıram. Dayı bağ evini mənim adıma kieçirəcəyini vəd etdi, Allaha şükür, övladı yoxdur, ona görə də yeganə varis mənəm! Buyur gəl, qardaş, mən səni bu yerdə qarşılayıb apararam. Maşınım var...

- Sənin neçə yaşın olur ki?- Alik soruşdu.

- 21 yaşım. Mən artıq böyük oğlanam...

- Sənin 21? Mənim isə hələ 17 yaşım var, - Alik təəccüblə dedi.

- Cəmi-cümlətanı? Bax sən! Mən elə bilirdim biz yaşıdıq. Sən həmişə elə ciddisən ki, təkcə atlı papağın çatışmır.

Rəhim, ayağa qalxıb, dostunu başdan ayağa süzdü.

Alik geniş gülümsədi.

Hündürboylu Rəhimin idmançı bədən quruluşu və optimist əhvalı var idi.

- Hə, gələcəksənmi birisi gün? - o Alikdən soruşdu.

- Gələcəyəm, ancaq az bir müddətə. Xirtdəyədək işim var.

- Əhsən! Səni balaca ikən xatırlayıram. Həmişə sakit idin, amma güləndə bütün küçə sənin yoluxucu gülüşündən gülürdü. Mən, axı, bir vaxtlar sənin valideynlərinlə eyni doqquz mərtəbəli binada qalırdım. Qohumlarım hələ də orada yaşayır. Uşaqlığımız yadındadır?





- Təbii ki, qarşında oturmuşamsa!

Rəhim gülə-gülə siqaret çıxardı.

- Götür, - Alikə təklif etdi.

- Çəkmirəm.

- Sən sərçəsən, mən səni qartal edəcəm! - siqareti yandıran Rəhim söz verdi.

- Heç nə, dəyməz, birtəhər dözərəm!

Rəhim yenə gülməyə başladı. Nəhayət, öskürərək dedi:

- Sən ağıllı və gülməli oğlansan. "Belələrinə" hörmət edirəm.

- Çox sağ ol.

Bir gün sonra Alik artıq Mərdəkanda idi, uşaqlıq dostugilə qonaq getmişdi. Gündüz yayın istisi bütün canlıları yandırırdı. Gənc oğlan ilk dəfə tələbələrin əhatəsinə düşmüşdü.

Bağ evi dəbdəbəli və geniş idi. Evin qarşısındakı həyət yaşıllaşdırılmış, baxımlı idi. Hasar boyunca gözəl şam ağacları ucalırdı. Həyətin ortasında hündür, möhtəşəm palma ağacı əkilmişdi. Al güllər dəyirmi çiçəklərinə valehedici bəzək verirdi.

Ad günündə dostlar çox idi, qızlar da vardı. Şən kompaniyanın səs-küyü böyük evin nəhəng küləfirəngisini doldururdu.

İki gənc qız maraqla "yeniyə" baxdılar. O biri iki qız soğan doğrayaraq Alikə fikir vermədən durmadan gülürdülər. Manqal alma bağının ətəyində tüstüləyirdi. Gənclər onun yanında dayanıb Olimpiya Oyunlarını müzakirə edirdilər.

Digər iki oğlan çardağın altında dayanmışdılar, təzə quzu ətini səliqə ilə şişlərə taxırdılar.

Əlində telefon olan uzunboylu qız Alikin diqqətini çəkdi. O, daima harasa çıxırdı və əsəbiləşirdi.

Qızın adı Elina idi, o tez-tez Rəhimlə kənara çəkilirdi. Doğum günü oğlanı ona nəsə deyirdi və o, narazılığını nümayiş etdirərək hamının gözü qabağında əsəbini onun üstünə tökürdü.

– Dedim, keç otur masada! – Rəhim özündən çıxırdı...

– Sən elə bilirsən mən bunların hamısına dözəcəyəm?– Elina sakitləşmirdi, – sən ona baxırdın, mən görürdüm...

– Gözlər baxmaq üçündür! Tez yerinə keç, bayramımı korlama!

–Yox e, buna baxın, mən sənin üçün bolonka deyiləm ki, qarşısında quyruğumu bulayım!

Alik rus dilini pis bilirdi, amma yaxşı başa düşürdü ki, bura onun yeri deyil, onun kompaniyası deyil. Biraz gözləyib, ad günü sahibi ilə xudahafizləşmək istədi.

– Rəhim, vaxtdır, mən getməliyəm.

– Hara? Əyləncə hələ indi başlayır! – bağ evinin sahibi etiraz etməyə başladı, – musiqi xoşuna gəlmir? Guruldayır? Mən "yenisini" qoyaram, qal, qardaş... Kabab da, demək olar ki, hazırdır!

Alik yan tərəfə baxdı: gənclər siqaret çəkir, spirtli içkilər içirdi, heç kimə fikir vermədən gülürdülər.

– Xeyr, bağışla, getməliyəm, – Alik dedi.

– A– a, anladım, darıxırsan, çünki hamı ilə içmirsən, bu məsələni indi həll edərəm, bu mənim səhvimdir! Bağışla, qardaş...

–Yox, sən nə danışırsan! Mən nə içirəm, nə çəkirəm, mənlik deyil bu, üzrlü say...





Bunu deyib Alik çevrildi ki getsin, bu vaxt Elina ona yaxınlaşdı.

– Dayan, şəhərə bir yerdə gedərik! – o əmredici tonla söylədi.

Alik dayanıb sual dolu baxışla Rəhimə baxdı, lakin o, əsəbi halda əlini yellədi və şənlənən kompaniyanın yanına getdi.

Qız, maşında oturub, bütün yolboyu ağladı.

Əlihüseyn susurdu. Şəhərə gələn kimi taksi sərnişinlərinin hər biri öz işlərinin dalınca getdi...

Bir neçə ay keçdi, istirahət günündə Əlihüseyn şəxsi işləri ilə əlaqədar olaraq şəhərə çıxa bildi.

Payız yarpaqları onun ayaqları altında xışıldayırdı. Gənc gözlərini göyə qaldırıb qaçan pambıq buludlara baxdı. Həyatın gözəlliyi onun gənclik hisslərini bürümüşdü. Uzağa gedən planları gənci xəyallara, romantikaya doğru hərəkətlərə sövq etdi.

Əlihüseyn yenidən Rəhimlə təsadüfən eyni yerdə, "Nizami" metrosunun yanında rastlaşdı.

Rəhim əvvəlki kimi özünə arxayın deyildi. Arıqlamışdı, batıq gözləri daim qaçırdı, oğlan gərgin idi.

Salam verib eyni skamyada əyləşdilər.

– Bəli, heç üç ay keçməyib, amma həyatımda hər şey dəyişdi, – Rəhim həyatından şikayətlənməyə başladı.

– Üç ayda sənin həyatında nə dəyişə bilər? – Alik saata baxa-baxa soruşdu.

– Nədir, yenə tələsirsən? Sən tələsirsən-tələsirsən, həyatın isə hələ qabaqdadır! Yaxşısı budur dostuna qulaq as!

Dayım Almaniyada evləndi, gəlib bağ evini satdı. Tezliklə oğlu olacaq. Mən artıq dayımın varisi və ya se-

vimlisi deyiləm. Mən onun qara siyahısındayam, dostlarım az qala bağ evini yandırmışdılar.

Universitetdən müvəffəqiyyətsizliyimə görə məni qovdular. Yenidən imtahan verə bilmədim. Dostlarım – hamısı əclafdır! Məndən üz döndərdilər! Nə evim, nə pulum var, heç kəsə maraqlı deyiləm artıq!

Alik yazığı gəlib dostunun çiyninə vurdu:

– Yaxşı, yaxşı, ümidsiz olma! Sən cavansan, həyatını təzədən quracaqsan, əsas canın sağ olsun! Heç başqasının var-dövlətinə ümid etmək, miras gözləmək olarmı?! Əlin-qolun, çiynində başın var, özün qazanarsan, on belə bağ evi tikərsən. Belə dostlar isə heç sənə lazım deyil! Həyatda daha yaxşılarını tanıyacaqsan. Dərslərinlə məşğul ol və universitetə bərpa olarsan.

– Sən məndən yaşca balaca olsan da, məndən müdriksən. İndi mən sənin qarşında sərçə kimi dayanmışam.

– Belə danışma. Mən çalışıram, boş vaxtım yoxdur. Valideynlərimin həyatını yüngülləşdirmək istəyirəm.

– Siz, axı, yaxşı yaşayırsınız? – Rəhim təəccübləndi.

– Bilirsən, maddi rifah heç vaxt əbədi deyil və bu, həyatda əsas şey deyil. Mənim xəstə qardaşım və bacım var. Mən onları həyat boyu aparacağam.

– Hə, hər şeyi düz deyirsən,– Rəhim yenə razılaşdı,– qulaq as qardaş, sonra mənə bir məsləhət ver.

– Səni dinləyirəm.

– Qonaqlıqdakı Elinanı xatırlayırsan? O səninlə gedən qızı?

– Hə, xatırlayıram.

– Mənə təzyiq edir. Evlənməyə məcbur edir, mənə və doğmalarıma rahatlıq vermir.





Rəhim əsəbi halda siqareti yandırdı. Alik təəccüblə dostuna baxırdı.

– Mənə de, ləyaqətli bir qız necə bu cür davrana bilər? – o, uzun qullab çəkib, tezliklə soruşdu.

– Mən bilmirəm, bu necə mümkün ola bilər...– Alik təəccüblə bildirdi.

– Təsəvvür edirsən, o, mənə deyir ki, uşağımız olacaq! Və mənim üzümə yalan danışmaqdan utanmır. Eh, indiki qızlara da bax, biri birindən pisdir! Hamısı eynidir! Tamahkar qadın – əlində gec açılan qumbara olan meymun kimidir.

Alik ayağa qalxıb Rəhimin gözlərinə baxdı və dedi:

– Bəs axmaq kişi, o kimdir? Səni qadın doğmayıb?!

Sənin 21 yaşın var, amma sən günaha batmısan, indi də məsuliyyətdən qaçırsan?! Sənin valideynlərinə yazığın gəlmir? Utan, ayıb olsun sənə. Sən qızı artıq rüsvay edirsən.

Alikin yanaqları yanırdı, hirslənən gənc özünü itirmişdi. Rəhim ətrafa boylanıb, onu dayandırmaq qərarına gəldi:

– Sakit, sakit, nədir özündən çıxmısan!

– Heç nə, sən mənim dostum deyilsən və mənə bir daha qardaş demə! Sən məsuliyyətsiz adamsan, düşünmədən insan yaratmısan və indi onun gələcək anasını mənim yanımda təhqir edirsən!

– Sözlərə bax ey! Nədir, hesab edirsən ki, mən onu almalıyam?

– Bəli, belə hesab edirəm. Əvvəldən düşünmək lazım idi! Mən sizin bu hərəkətinizi bəyənmirəm, amma bu həyata yeni insan gələcək, onun hər iki valideyni olmalıdır! – deyib, Alik çevrildi və sürətli addımlarla uzaqlaşdı.

Bir ay sonra Əlihüseynə toya dəvətnamə olan zərf gəldi. Rəhim və Elina talelərini bir-birinə bağlamaq qərarına gəlmişdilər.





# VIII FƏSİL

2017-ci il sakit başladı, yeni il bayramları arxada qaldı. Bakı şəhərinin sakinləri yenidən iş günlərinə qərq oldular. Arzu "20 Yanvar 1990-cı il" məruzəsinə hazırlaşarkən oğlunun üzündəki nigaranlığı hiss etdi. Gənc uzun müddət oturub fikirləşirdi, görünürdü ki, onu nə isə güclü narahat edir. Dözməyib, qadın oğlunu mətbəxdə oturtdu.

– Alik, nə baş verib? Sən fikir edirsən? Nəyə görə?

– Sən nədən danışırsan? – oğlu üzünü yana çevirib dedi.

– Düzünü söylə ki, hər şeyi əvvəlcədən bilim ...

– Ana, mənə pul lazımdır.

– Pul?

– Hə, 250 manat.

– Bəs, nəyə görə?

– İmtahanı yenidən vermək üçün, "Kapitalbank" vasitəsilə ödəmək lazımdır.

– Bəs, sən niyə imtahanını verməmisən?

– Ana, fərqi nədir?

– Böyükdür! Sən imtahanlarını verməmisən, səbəbi olmalıdır, axı!

Başını aşağı əyən Alik susurdu. O, futbola getdiyini və komandasında oynadığını etiraf etməyə utanırdı.

Oğlunun üzünə baxaraq, ana sözünə davam etdi:

– Sən işləmirsən və əyani oxuyursan! Hələ evli deyilsən! Kirayədə qalmırsan, səni geyindirirəm, keçindirirəm! Sən nə səbəbdən oxuya bilmirsən? Ödənişsizə düşmüsən, camaat bunu ancaq xəyal edir! Bir tikə çörəyi, başının üstündə damı olmayan uşaqlar insanların arasına çıxmaq üçün qaranlıqda ac qalıb çalışırlar! Sənə nə mane oldu, de? Yox, mən sənə pul verməyəcəyəm!

– Ana, sən haqlısan, bağışla məni! – deyib, Alik sürətlə mətbəxdən çıxdı.

Bir gün sonra gənc bir dostunun valideynlərindən borc götürdü, borcu vaxtında qaytarmaq lazım idi.

Əlihüseyn əsaslı şəkildə iş axtarmağa başladı, amma tapmaq o qədər də asan olmurdu. Məşğulluq agentlikləri anketləri götürüb susurdular. Maşınların texniki servisləri daha çox ailə podratı ilə işləyirdi. Firmalar tam iş günü şərti ilə götürürdülər, Alik isə hər gün bütün dərslərdə iştirak etməli idi.

Nəhayət, gənc "Araz" supermarketdə yükvuran fəhlə kimi işə düzəldi, onda bu onun üçün böyük şans olduğunu düşünürdü, lakin tezliklə başa düşdü ki, bu iş tamamilə onun ətrafı üçün iş deyil. Çoxları onun gəncliyindən və təcrübəsizliyindən istifadə edərək sözün əsl mənasında boynuna minmək istəyirdi... Əlihüseyn gənc də olsa, çox məğrur insan idi. Və, təkcə ona qarşı deyil, başqa insanlara da qarşı bu cür haqsızlıq, onun qəlbini alt-üst edirdi.

Mallar sonsuz axınla daxil olurdu... Onu düzgün yığmaq lazım idi ki, korlanmasın, sınmasın və ən əsası, hər şey qaimə ilə üst-üstə gəlsin!

Dəyər və təhlükəsizlik – onun işinin əsas prinsipi idi. Oğlan yorulurdu, həmişə yatmaq istəyirdi, kürəyi çox ağrıyırdı və ayaqları sızıldayırdı.

Kədərli iş günlərinin birində onun səbri tükəndi.





– İşləyin, çevik olun! – başında kepka olan qanmaz oğlan əmr etdi. O, Alikdən bir az əvvəl işləmək üçün "Araz" supermarketə gəlib və indi hakimiyyətdən həzz alaraq "dedovşina" qurmuşdur.

Hamı səssizcə ona tabe olurdu, hamı! Amma Əlihüseyn deyil.

İş günü başa çatırdı, gənc yükvuranlar çox yorğun idilər...

İşi başa vuran Alik, evə getməyə hazırlaşmağa başlamışdı. Kepkalı oğlan onun yanına qaçdı.

– Başa düşmədim! Yenə mal var, yubanmaq lazımdır! – dedi. – Nədir, sən hamıdan yaxşısan?

– Səndən yaxşıyam! Mən işləyirdim, sən isə dirijor kimi dayanıb hamının əsəblərinə damırdın. İndi də get işlə! Biz hamımız isə həddən artıq işləmişik və evimizə gedirik...

– Belə oldu, hə?! Mən burada hamıdan böyüyəm!

– Ancaq yaşca, başqa cür yox!

Kepkalı oğlan söyüş söydü və dalaşmağa başladı, amma uşaqlar hamısı bir nəfər kimi Əlinin müdafiəsinə qalxdılar.

İşdən getməli oldu, amma yenə də pul qazana bildi və təhsilini ödədi.

Xırda əlavə işlər yalnız cib pulu verirdi, onlar da tez və gözlənilməz şəkildə başa çatırdı.

Bütün imtahanları verdikdən sonra oğlan öz mobil telefonunu anasına verdi. Arzu eynəyini taxaraq tələbə oğlunun onlayn sistemdə məqbul səhifəsinə baxmağa başladı...

– Əhsən sənə! Bacardın, nəhayət ki... Bir də belə etmə!– telefondan ayrılaraq anası ciddi şəkildə söylədi.– Yenidən imtahan vermək üçün pulu haradan götürdün?

– Qazandım, narahat olma.

– Necə?

Alik anasının sualına cavab vermədən anasına baxdı.

– Ana, mən qiyabi şöbəyə keçmək istəyirəm!

– Niyə?! Bu barədə danışmağa dəyməz! Sən oxumalısan! Axı, mən sənə kömək edirəm!

– Sən özün deyirdin: insan hər şeyə özü, heç kimin köməyi olmadan nail olmalıdır! İndi isə başqa şey deyirsən?

– Mən sənin qərarına yaşıl işıq yandırmıram! Oxu və imtahanlarını vaxtlı-vaxtında ver! Sən problemsiz oxuya bilirsən. Sən həmişə gündəlik işini planlaşdırırsan və bu qaydaya ciddi əməl edirsən! Belə də davam elə! Mən onsuz da bilmirəm neçə hissəyə bölünüm! İşləyirəm ki, sizdə hər şey yaxşı olsun! Günlərlə vurnuxuram ki, xəstə qardaşını ayaq üstə qoyum, səni və bacını oxudum! Mənim gələcəyim yalnız sənsən! Mənim ümid edəcəyim başqa heç kimim yoxdur! Atan özünə iş tapa bilmir və səhhəti də pisdir. Sən və yalnız sən, bu həyatda ümidim və dayağımsan!

– Bağışla, ana! Mən hər şeyi başa düşdüm... Mən institutu əyani şöbədə bitirəcəyəm, amma yenə də işləyəcəm.

Alik anasını qucaqlayıb sinəsinə sıxdı.

Arzu hönkürərək, onun mehriban, mərd ürəyinin döyüntülərinə qulaq asırdı.





# IX FƏSİL

16 noyabr 2019-cu il. Səhərdən yağış yağırdı, hava sərin idi. Havadan xoş təravət süzülürdü.

Əli ərzaq mağazasının yardım otağının pəncərəsinə tərəf getdi. Əllərində çətir olan yoldan ötənlər, gölməçələrin üstündən tullanıb öz işlərinin dalınca qaçırdılar. Kimsə ərzaq torbalarını maşınının baqajına qoyur, kimsə gülə-gülə mobil telefonu ilə danışa-danışa, ciyilti ilə mağazaya soxulurdu. Və yalnız bir rus yaşlı qadın yağışın altında yavaş-yavaş yeriyirdi. Əlində dolu ərzaq çantası və pişik yeməyi tutmuşdu...

Əli qaçaraq küçəyə çıxdı; nənəyə yetişəndən sonra gənc soruşdu:

– Xala, kömək edim?

– Sən nə istəyirsən?

– İcazə verin, sizə ərzaqları aparmağa kömək edim!

– Nə dediyinizi anlamıram, kömək etmək istəyirsən? Həə, elədirsə gəl, çox sağ ol! İlk dəfədir belə şey görürəm...

– Xala, siz pişikləri sevirsiniz? Mən də sevirəm. Qonşumuz Saniyə xalanın böyük pişiyi var ...

– Oy, bircə xala demə! Adım Varvara Qriqoryevnadır, sadəcə Varya xanım da olar. Mən o mağazanın üstündə, bu evdə yaşayıram.

Söhbət əsnasında Alik çoxmərtəbəli binanın birinci mərtəbəsindəki mənzilə necə çatdıqlarını hiss etmədi.

Onların hər biri öz dilində danışsa da, bir-birini başa düşürdü.

– İndi sənə bir manat verməliyəm?

– Niyə? – oğlan təəccübləndi.

– Kömək etdiyinə görə.

– Nə danışırsınız! – gülərək, Alik çevrildi ki, çıxıb getsin.

– Gözlə, sən çox yaraşıqlı oğlansan. Köməyə görə sağ ol!

– Siz də sağ olun. İstəsəniz, qəssaba deyərəm, sizin pişiklər üçün kəsik ətlərdən verər ki, pensiyanı xərcləməyəsiniz?

– Doğrudan? Yaxşı olardı! Bəs, sən oxuyursan?

– Bəli, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində.

– Necə də qoçaqsan, anasının qüruru!

– Mən tezliklə bir illik xidmət etmək üçün orduya gedəcəyəm, amma hazırda təhsilimi bitirirəm. Uşaqlara deyəcəm, onlar sonra da sizə sümük verəcəklər...

– Allah saxlasın səni! İndi zəmanə o qədər təhlükəlidir ki, yaşamaq qorxuludur. Ermənilər heç sakitləşmir, getdikcə yeni-yeni təxribatlar uydururlar, bizi sıxışdırmaq istəyirlər. Qarabağda yenə atışma gedir, otuz ildir dinc insanlara gün verib, işıq vermirlər.

– Sıxışdırmayacaqlar! Öz yalanlarında boğulacaqlar! Biz ermənilərin dişi üçün deyilik, dişlərini qırarlar. Biz onları tezliklə sakitləşdirəcəyik, "özünə gətirəcəyik"! Erməni işğalçıları, terrorçuları Azərbaycan torpağından çıxıb gedəcəklər!

– Bilirsən, mənə elə gəlir ki, bütün sadə insanlar əziyyət çəkir. Yer üzündə hamı sülh istəyir. Ermənistan





bütün xalqının üzünə böyük ləkə kimi yayılan şərəfsiz yolu seçdi.

– Hər şey yaxşı olacaq, narahat olmayın!

– Gəncsən sən, yaşa hələ...

– Yaxşı, yaşayacağam!

Fit çala-çala Əli doqquz mərtəbədən çıxdı.

– Harada idin? – baş satıcı Günel soruşdu.

– Müştəriyə ərzaqları aparmağa kömək edirdim.

– Bunun üçün kiçik satıcılar var. Qaimələri mallarla birlikdə yoxlamaq lazımdır.

– Bəs, sən satıcı deyilsən?

– Nə olar.

– Yaxşı, – Əli nəhayət razılaşdı, – əziz dost üçün nələri etməzsən!

– Rəfiqələr!

– Hə...

– Sən bilirsən, bizə təzə satıcı xanım gəlib...

– Bax, gör, belə maraqlı anı qaçırdım, sizi bir dəqiqə tək qoymaq olmaz... – Əli zarafatla dilləndi.

– Onun adı Sitarədir... O, indi piştaxtanın arxasında dayanır...

– Direktor otağındadır?

– Bəli, amma o səni soruşmayıb...

Əli salona girdi. Mağazada bütün satıcılar ahəngdar işləyirdilər. Ətrafda fırlanan insanlar özləri üçün alış-veriş edirdilər...

Alik bütün mağazaya qısaca nəzər saldı və diqqətini yeni işçiyə yönəltdi.

Bəstəboy qız səylə piştaxtanın dayağını silirdi.

Onda diqqət çəkən heç nə yox idi, görünüşü adi idi. Tünd hicaba bürünən o, dəbli satıcılardan çox fərqlənirdi.

Malları rəflərə düzən iki satıcı qadın ona açıqca gülürdülər:

– O ciddi görünüşü ilə bütün alıcıları qorxudacaq! Ha- ha...

– Oy, heç demə, gör, nəyə oxşayır!

Satıcı oğlanlar laqeydliklə onun tərəfə baxırdılar, onlardan biri hətta "təzəyə" səsini ucaltmağa da başladı:

– Sən öz evində də belə "bacarıqsızsan"? E-e-e! Burada isə şüşənin üstündə əskidən zolaq qaldı. Tez ol, tərpən! Yeddisi birini gözləmir!

Əli piştaxtaya keçib fakturaları götürdü.

–Yerinə qoy! – qız dözməyib qışqırdı.

– Başa düşmədim, – cavan oğlan karıxdı. – Mən işləməliyəm, malı tutuşdurmalıyam.

– Bağışla, elə bildim sən də onlarla birsən.

–Yox, mən özüm özüməyəm.

Alik qızın məlahətli səsini, özünü ləyaqətlə aparmağı bacardığını qeyd etdi.

– Bağışla!

– Heç nə olmaz, amma doğrudur ha: yeddisi birini gözləmir.

– Bəs, bunları xadimə etməli deyil ki?

Əli qımışdı:

– Xeyr, bunları sən özün etməlisən.

Onların yanına malla dolu böyük araba gətirdilər.





–Yerləşdirin! – üzündə heç bir emosiya olmayan boz xalatlı kişi dedi.

Qız məzəmmətlə yükvurana baxdı.

– Nə baxırsan, sənə borcum var? – yorğun kişi hiddətləndi.

– Hə, nədir ki, nə dedi o sənə? – Əli sakit şəkildə "yeninin" müdafiəsinə qalxdı.

–Vo-o-o, camaat! – mızıldanaraq, kişi çıxıb getdi.

– Sağ ol, sən başqalarına bənzəmirsən, – şalını düzələrək, qız dedi. Burada hamı hirslidir!

– Niyə belə düşünürsən? Kollektivimiz pis deyil, bütün insanlar fərqlidir! İnsanları olduğu kimi qəbul etməyi öyrən. İnsanı dəyişməyə çalışma, hər bir kəs şəxsiyyətdir, əksi zorakılığa bərabərdir.

– O-o-o! Belə de! Mən də özümü alçaltmağa və incitməyə imkan vermərəm!

– Day yaxşı!

– Bəli!

–Yaxşı, gəl malları rəflərə vuraq, – Alik, hiss olunmadan gülümsəyərək, qutuları çeşidləməyə kömək etməyə başladı.

Qız çalışırdı, amma çox səhv edirdi.

– Narahat olma, hər şey vərdişdən gəlir, – Alik onu ruhlandıraraq dedi.

Sitarə onun gözlərinin içinə baxaraq geniş gülümsədi.

– Mən heç narahat olmuram!

Gözlərini ayırmadan, bir-birinin gözlərinin içinə baxan gənclər, balacaboy satıcı Xəyalənin onlara yaxınlaşdığını görmədilər.

Qız büdrəyərək, dərhal zalın o biri ucuna qaçdı. Nəfəsi kəsilərək gözləri ilə rəfiqəsini axtarmağa başladı:

– Məryəm! Məryəm! – rəfiqəsini görən kimi çağırdı.

– Qulaq as, sakit ol! Heç bu cür qışqırmaq olar?! Burada alıcılar var, kameradan "böyük" görəcək və ...

– E-e-e! Nə kamera ee! Sənin Əlin "təzə"nin dalınca artıq göylərə uçub.

– Hansı "təzə"?

– O səhər gələni deyirəm.

– Həəə, o qorxulu deyil! Qız nə gündədir! Direktor onu tezliklə qovacaq, bu dəqiqdir.

– Mən sənin yerində olsam, bu qədər rahat olmazdım. Sən gözəl olsan da, o da çox hiyləgərdir. Bir görsəydin, ona necə göz süzdürürdü.

– Qulaq as, məncə o, bizdən və ondan böyükdür. Dərdə bax! Qoy, o məni qısqansın!

– Məsləhət sənindir! – rəfiqəsindən inciyən Xəyalə, uzaqlaşmağa tələsdi.

– Dayan! İncimə, zarafat xatirinə sən onu izlə... Yaxşı?

–Yaxşı! – Xəyalə canlandı.

Məryəm fikirli şəkildə əllərini sallayıb piştaxtanın yanında oturdu.

– Ay qız, de görüm, kəsmik təzədir? – dolu görünən qadın soruşdu.

– Bizdə hər şey təzədir!

– Bəs, onu nə vaxt gətiriblər?

– Bu gün!





– Ver dadına baxım.

Məryəm əsəbiləşmişdi. Müştərinin istəyini yerinə yetirib, qız onun içindən o tərəfə baxırdı. Ərzağı dadaraq, qadın hiddətləndi:

– A-a-a, bəs deyirsən təzədir, bundan isə aseton dadı gəlir!

– Siz asetonun dadına baxmısınız?

– Buna bax, hələ mənə cavab da qaytarır! Müştəri həmişə haqlıdır!

– E-e-e, piştaxtadan kənara çəkil!

– Rəhbərliyin haradadır? – özündən çıxan qadın, ətrafa boylanaraq, mağazanın böyüyünü axtarırdı.

– Mənəm! – Alik özünü vaxtında süd şöbəsinə çatdırdı.

– Böyük sənsən?

– Xeyr, ancaq o olmayanda, mən əvəz edirəm! Gəlin kənara çəkilək...

– O mənə ədəbsizlik etdi! Gəncdir, tərbiyəsizdir, hələ lağ da edir!

– Xanım, onun və mağazamızın adından sizdən üzr istəyirəm.

–Yaxşı, üzr qəbul olundu! – alıcı Məryəm tərəfə döndü, – bu oğlana sağ ol de! Yazıq sənin qayınanan!

Narazı müştərini baxışları ilə yola salan Alik Məryəmə tərəf döndü:

– İnsanlarla bir az nəzakətli danış, hər yerdə kameralar var.

– Sən hamıya vəkil xidməti göstərirsən? Belə mehribansan? Get, təzələrə kömək elə, mən oxumuşam, özüm öhdəsindən gələrəm!

– Lap yaxşı...

– Bəli, lap yaxşı! – Məryəm, dözməyib, ağladı...

– Qəribə qızsan... – çiyinlərini çəkərək, Əli dönüb uzaqlaşdı.

Məryəm əsl bakılı idi və bununla çox fəxr edirdi. Qız hörmətli ailədən idi və BDU-də ikinci kursda oxuyurdu. Onun atası çoxdan dünyasını dəyişmişdi, anası isə səhhəti zəif olduğu üçün evdə otururdu.

Yaxşı görünüşə sahib olan qız, özünün dediyi kimi, "kasıblıqdan" çıxmaq arzusunda idi... Onun yeganə arzusu özünə layiqli partnyor tapıb uğurla ərə getmək idi.

O, ortaboylu və gözəl bədən quruluşuna malik idi. Qalın qəhvəyi saçları onun əsas bəzəyi idi. Qəhvəyi gözlərinin həmişə laqeyd baxışları vardı, çünki o, daim düşüncələrə dalırdı. Burnu bir az şiş idi, amma onu korlamırdı. Sıx dodaqlarını çənəsindəki çuxur daha çox vurğulayırdı.

İndi də çox bəyəndiyi adamın qarşısında özünü saxlaya bilmirdi.

Tədbirliliyi qalın divar olub onu Əlidən uzaqlaşdırırdı. Onun haqqında daha çox məlumat əldə etməyə çalışdı, amma gənc hər kəsə "qapalı" idi.

Xəstə anasına olan məsuliyyət, onda mənfəətpərəstliyə səbəb olmuşdu.

Salfetlə gözlərini silib rəfiqəsinin çağırışına çevrildi:

– Sənə neçə dəfə deyim "qışqırma", sirkdə ayını öyrətmək bundan asandır! – ayağa qalxaraq dedi.

– Can, yazıq! Nə dedi o sənə?

– Heç nə...

– Bəs niyə ağlayırsan?





– Ağlamıram, gözümə nə isə düşüb. Hə, "təzə" necədir?

– Sən o "qorxuluq"dan danışırsan?

– Yaxşı, o, qorxulu deyil, sadəcə olaraq belədir də... – Məryəm Xəyaləyə göz qoyaraq dedi...

– Nə qədər nəcib və gözəlsən və ən əsası "səmimi"-sən...

– Bəs nədir, şübhən var mənə? – Məryəm meydan oxuyaraq soruşdu.

– Yox, Allah eləməsin!

– Neyniyir o?

– Onunla cikkildəşirdi, sonra burada idi, indi yenə onun yanına qaçdı... Malı çeşidləməyə kömək edir, – Xəyalə çiyinlərini çəkib cavab verdi.

– O, sadəcə çox mehriban və ədalətlidir! – qolundakı "Pandora" bilərziyini əsəblə didişdirərək, Məryəm dedi, – bizim Əli heç kəsə yox deyə bilmir, ona görə də hamıya kömək edir.

– Hə, o elədir və heyətin içində hamıdan yaxşıdır. "Təzə"nin isə adı necə də gözəldir: Sitarə!

– Allah xoşbəxt eləsin! – Məryəm quru cavab verdi.

Rəfiqəsini qoyub, Xəyalə özünün parfümeriya şöbəsinə qaçdı...

Qəzəb onu boğurdu: "Buna bax bir, özünü elə aparır ki, elə bil padşah qızıdır! Təkəbbürlü Məryəm...

Görüm Əli nə sənə, nə də "təzəyə" qismət olsun.

# X FƏSİL

Gənclər arasında dostluq dərhal başlamadı. Səs-küylü Sitarə tez özündən çıxan və enerjili idi. Düşüncəli Əlihüseyn ciddiliyi və mehribanlığı ilə tanınırdı. Uzun müddət iş yerində anlaşa bilmirdilər. Münaqişə heç bir yerdən, hər hansı səbəbdən yaranırdı, lakin bir gün ...

Növbəsini bitirdikdən sonra pərişan Sitarə mağazadan çıxıb avtobus dayanacağına tərəf gedirdi ki, Əli onu saxladı.

– Səndə hər şey qaydasındadır?

– Başa düşmədim?

– Problem yoxdur? Sən yenə uşaqlarla dalaşmısan...

– A-a-a...

– Ötürüm səni?

Sitarə susdu.

Gecə Bakıda uzun müddət gəzdilər. İnanılmaz dərəcədə maraqlı idi, danışacaqları çox şey vardı. Ay işıq saçırdı, fənərlər gözəl şəhəri bayram işığına qərq etmişdi, xoşbəxt sevgililər onların yolunu kəsirdilər. Ayrılarkən, hər biri evdə axşam gəzintisini təbəssümlə xatırlayırdı. Gənclərin simpatiyası sürətlə inkişaf edərək sevgiyə çevrilirdi.

Axşam gəzintiləri öz vaxtını artıraraq olmalı idi. Sevgili cütlüyün cib telefonları mesajlarını bir-birinə çətinliklə çatdırırdı.





Maraqlı işçilər Sitarənin davranışındakı dəyişikliyi dərhal hiss etdilər. Qız mehriban, sakit və gülərüz insana çevrildi. O, hicabını daim yeniləyərək özünə baxmağa başladı. İşə gecikəndə bilirdi ki, aşiq Əli onu əvəz edəcək, buna görə də sakitcə "Araz" supermarketə gəlirdi. Bunun fərqinə varmış rəhbərlik, onların işini müxtəlif növbələrə təyin etdi. Gündüz işlərini bitirən yorğun Əlihüseyn axşam növbəsindən çıxan Sitarəni qarşılamağa qaçır, eyni zamanda təhsil ocağına baş çəkməyi də unutmurdu.

Tezliklə Əli başa düşdü ki, Sitarəsiz bir gün də "yaşaya bilmir". Gənc onunla danışmaq qərarına gəldi:

– Salam! İş günün necə keçdi?

– Normal. Bax, yağış yağmayıb, çöldə istidir, sən isə köynəyin üstündən pencək geyinmisən. Sənə isti olmaz ki?

– Pencəyi geyindim ki, onu sənə verim, axı biz gecəyədək gəzirik, sən üşüdüb soyuqlaya bilərsən. – Sitarədən gözlərini çəkmədən Əli söylədi.

– Nə yaxşı, çox sağ ol!

– Mən sənə çox vacib şey demək istəyirəm.

– De.

– Mənə ərə gələrsən? – qızararaq Əli başladı.

– Mən? Sənə?

– Hə də! Məgər sən məni sevmirsən?

– Sevirəm! Çox sevirəm... – o etiraf etdi.

– Onda Orduda xidmətdən sonra mən səninlə evlənəcəyəm.

– Mən səndən yaşca böyüyəm, mənim ali təhsilim yoxdur. Sən gözəlsən, Əli! Mən isə...

– Mən bazarda kartof seçmirəm ki! Mən səni seçmişəm, sən də oğlanlara az gülümsə, qısqanıram.

Sitarə güldü.

– Sən məni başa düşürsən?!– Əli soruşdu.

– Onda sən də qızlara baxma!

– Mən baxıram ki?

– Hə, sən Məryəmə, Sənubərə, Xəyaləyə baxırsan, Əfsanə ilə danışırsan...

– Bəsdir! Bunlar boş şeydir! Mən həyatda bir dəfə sevən insanam, Əfsanə isə mənim üçün bacı kimidir.

– Ancaq mən hiss edirəm ki, Məryəm səndən ötrü ölür!

– Bu, sənə elə gəlir! Bu mövzunu bağlayaq!

– Əli, mənə anandan danış, – Sitarə söhbəti çevirdi.

– Anam məktəbdə işləyir, o gənc və çox gözəldir. Özü maşın sürür. Özümdən böyük qardaşım və bacım var.

– Əli, sənin müasir, gənc anan var, mən hicabla bağlıyam. O məni bəyənməz! – Sitarə həyəncanla onun sözünü kəsdi.

– Əgər sən namuslu və ləyaqətlisənsə, o zaman anam səni mütləq bəyənəcək. Anam dünyanın ən yaxşı anasıdır!

Əli ailəsindən çox danışırdı, qız onu maraqla dinləyirdi. Onlar hələ çox gəzdilər, xəyal qurdular, gələcək uşaqları üçün adlar fikirləşdilər.

– Bilirsən, istəyirəm çoxlu oğlum olsun. Böyüyün adını Nadir qoyacam, sevimli babamın şərəfinə, Aynur xalamın oğlunun da adını belə qoyublar. Qardaşım Nadir çox cəsarətlidir, onunla dörd yaş fərqimiz var.





– Bəs qız istəmirsən? – Sitarə soruşdu.

– Mən balaca qızları da sevirəm. Mənim kiçik bacım, balaca Ruha, çox şirindir. Amma qızlarım üçün narahat olacam. Mən qısqanc ata olacam! Allah eləməsin, bacımın bəxtinə pis ər düşsün!

– Sənin kürəkəninə yazığım gəlir!

– Sitarə, birdən mən Ordudan qayıtmasam, mənim üçün ağlayacaqsan?

– Ay Allah! Sən nə danışırsan?! Getmə əsgərliyə! Lazım deyil...

– Mən Vətənimi qorumalıyam!

– Bəs məni kim qoruyacaq?

– Bəs sən də Vətənimin qızısan da!

Sitarənin gözləri yaşardı. Əlihüseynin başının üstündəki nəhəng ay onun gözəl üzünü işıqlandırırdı.

Səhər Əlinin əmək həftəsi başa çatmaq üzrə idi. Satıcı malı saydıqdan sonra dönüb gözəl Məryəmlə üz-üzə gəldi:

– A, sənsən...Salam, mən artıq bitirirəm. – Alik quru tərzdə dedi.

– Əli, səninlə danışmaq istəyirəm, – gözəl barmaqlarını qıraraq Məryəm söylədi.

– Nə barədə?

– Əli, sən mənim çox xoşuma gəlirsən...

– Məryəm, davamını gətirmə. Sənə hər şeyi necə varsa deyəcəm. Sən çox gözəlsən, amma mən səninlə ola bilmərəm! Sənə gözəl həyat bəxş edə bilmərəm, ailəmdə həddən çox problemim var. Mən xəstə qardaşıma görə, xəstə bacıma görə məsuliyyət daşıyıram! Onların qeydinə qalmaq üçün həmişə valideynlərimin ailəsi ilə birlikdə yaşamağı planlaşdırıram!

– Bəs niyə belə fikirləşdin ki, bu işdə sənə kömək etməyəcəyəm? Səninlə həm sevinc, həm də kədəri bölüşməyə hazıram!

– Bütün bunlar sadəcə gözəl sözlərdir. Real həyat, daha çətin və qorxuludur ... Mənə gözəl olmasa da, amma üzüyola, səbirli həyat yoldaşı lazımdır ...

– Sitarə?

– Bəli, o...

– Amma onda heç biri yoxdur! Onu səbirli və üzüyola hesab edirsən?

– Yaxşı, bəsdir! Yetər, davam eləmə! Mənə lazım olan hər şey onda var!

– Allah xoşbəxt eləsin! – Məryəm, başını aşağı salıb, sürətlə uzaqlaşdı. Tezliklə qız işdən çıxdı.





# XI FƏSİL

4 iyul 2020-ci il. Şəhərin bürküsü göylərə yüksəlirdi. Televiziyada hidrometeorologiya mərkəzi çoxdan gözlənilən yağış vəd edirdi, lakin yağış qaynar torpağı suvarmağa tələsmirdi.

Kresloda rahat oturan Əfsanə, heç bir marağı olmadan, televizora baxırdı. Mobil telefonun qəfil zəngi onu ayağa qaldırıb çantaya tərəf getməyə məcbur etdi.

– Alo?

– Əfsanə, salam!

– Əli, salam! Səndən nə əcəb?

– Sabah işdən nə vaxt çıxacaqsan?

– Altıda, nolub ki?

– Sənin üçün sürprizim var! – Əli sevinərək cavab verdi.

Səhərisi günün axşamı dostlar qızın evinin yaxınlığında yerləşən parkda görüşdülər.

Məkan cənnət kimi görünürdü, başını aşağı əymiş ağacların yarpaqları və ayaqlarının altında yamyaşıl otlar rahatlıq yaradırdı. Yüngül meh onların cavan üzlərini xəfifcə sığallayırdı. Buludlar bir-birini qabaqlayaraq yağışa hazırlaşırdılar.

Əfsanə Əlini diqqətlə dinləyib, onun qəribə yaxşı əhvalını öz-özünə qeyd etdi.

– Yadındadırmı, üçümüz "Xalqlar dostluğu" metro-stansiyasının yaxınlığındakı "Paxlava" restoranının bağında oturmuşduq?

– Əlbəttə, mən onda anladım ki, Sitarə ilə aranızda ali hisslər var.

– Doğrudan? Necə?

– Ah, Əli! Mən axı səndən düz on yaş böyüyəm! Sən mənim üçün qardaş kimisən.

– Və buna görə də, mənə üzüyola bir qız tapmağı təklif etdin?

– Hə, yazığım gəlirdi sənə, Sitarə ilə dalaşanda sən çox əziyyət çəkirdin. Sən gözəlsən Əli, hər gözəl qız sənə ərə gələr.

– Bilirsən, mən özümə "gözəlini" imkan edə bilmərəm. Mən ailəmə görə cavabdehəm, xəstə qardaşımı, bacımı ömür boyu saxlamalıyam. Anamdan heç vaxt imtina etmərəm, o mənim hər şeyimdir! Mənə elə həyat yoldaşı lazımdır ki, onların qayğısını mənimlə birgə çəksin. Mənə gözəllik yox, mərhəmət lazımdır. Gözəl qızlar, tələbkar və kaprizlidirlər.

– Niyə belə düşünürsən? Bəs Sitarə qayğı və məsuliyyəti səninlə bölüşəcəkmi?

– Bəli! O məni başa düşür və sevir. Mənə həmişə deyir ki, məndən böyükdür və təhsili yoxdur ...

– Sən hələ gəncsən, təcrübəsizsən, bütün həyatın hələ qarşıdadır.

– Mən bilirəm nə deyirəm. Yeri gəlmişkən, xatırlayırsanmı, biz ilk vaxtlar tez-tez mübahisə edirdik?

– Mənə kassanı necə verdiyini xatırlayıram. Direktorumuz Şahin müəllim o vaxt mənə dedi: "Kassanı Əlihüseyn kimi apar"! Onun kassası həmişə dəqiq gedirdi! Əli oxuyur, vaxtı yoxdur, buna görə səni təyin edirəm".

– İşə bir bax!

– Bəli, düzdür, səni həmişə bizə nümunə göstərirdilər.





– Bu park necə də gözəldir! – mövzunu dəyişən Alik ciddi tonla dedi.

Əfsanə fikirli şəkildə susurdu. Onun heyrətli görünüşü dostunu güldürdü.

– Səni vidalaşmaq üçün bura çağırmışam! – o daha da ucadan güldü. Əfsanə ağladı, Alik davam etdi:

– Ağlama, sən də anam kimisən...

– Əli, bəlkə sən hələ əsgərliyə getməyəsən, indi vəziyyət ağırdır?! – qız soruşdu.

– Əsgərliyə gedənlər məndən pisdir, ya mən onlardan yaxşıyam? Bəlkə "şəhid" oldum, hamınız mənsiz daha rahat yaşayarsınız! – Əli yenə də gülüb zarafat etdi. O qəhqəhə çəkərək ürəkdən gülürdü.

– Nə gic-gic danışırsan! Bu gün həmişəki kimi deyilsən!

– Bəs mən həmişə necə oluram ki?

– Ciddi, sakit, düşüncəli və çox etibarlı. – Əfsanə düşən göz yaşını sildi.

– Hə, zarafat etdim, daha çox ağlayacaqsan!

– Yaxşı, daha belə danışma, lazım deyil.

– Sən yəqin süprizi gözləyirsən? Bu, sənədir! – o qutunu uzatdı.

Hədiyyəni açanda qız ah çəkdi. Bu, nazik zəncir üstündə gümüş arı idi.

Qız kulonunu əlinə aldı, sürpriz uğurlu olmuşdu. Razı qalmış Alik səssizcə ona baxırdı.

– Necə də gözəldir, çox sağ ol! Bu kəpənəkdir, ya arı? Lap gözəldir ki...

– Mən özüm bunu sifariş etmişəm sənin üçün. Bu həm kəpənəkdir, həm arıdır, lap sənin kimi! Arı bal toplayır, sənin kimi, mənim böyük bacım!

– İzah elə!

– Qoy əsgərlikdən qayıdım, onda sənə başa salaram.

Əfsanə hədiyyəni öz üzərinə ölçərək, göz yaşları içində gülümsəməyə başladı.

– Sağ ol, çox sağ ol! Çox gözəldir! – qız hədiyyəyə uşaq kimi sevinirdi.

– Təşəkkür eləmə, sakit ol…

– Yaraşır?

– Bəli! Sağlıqla tax! Mən sadəcə düşündüm ki, Sitarənin məndən hədiyyəsi çoxdur, sənin isə məndən yadigar heç nəyin yoxdur. Birdən başıma nəsə gələr, mən sənə bir şey yadigar edə bilmərəm.

– Ürəyimi niyə üzürsən axı? Bu cür sözlər xeyirə aparmaz!

– Yadındadırmı, ad günündə sənə heç nə verməmişdim, birdən çatdırmaram, öldürərlər, ya sən ərə gedərsən.

– Belə danışma. Sən mənə tez-tez zəng elə, səni həmişə gözləyəcəyəm! Axı sən söz vermisən ki, əsgərlikdən sonra öz işini açıb, hamımızı işə götürəcəksən!

– Bəli, söz vermişəm! Hamınıza yaxşı maaş verəcəm!

– İnşallah!

– Özünü qoru! Hər şeyə görə çox sağ ol, bacıcan!

– Mənə nəyə görə? Sən sağ ol, sən özünü qoru!

– Mən Sitarəyə sonuncu hədiyyə verməmişəm, bəlkə nə vaxtsa. Necə düşünürsən, Sitarə məni unuda bilər? Qorxuram ki, o Rusiyaya çıxıb gedər və məni unudar və ya başqa oğlana ərə gedər!

– Düşünmürəm.

– Mən sənə tez-tez zəng edib, onun haqqında soruşacam. Mən onu sevirəm.





– Fikir eləmə və mənə tez-tez zəng elə.

Onlar parkda hələ çox oturub, söhbət edə-edə növbəti həyat vərəqini vərəqləyirdilər.

# XII FƏSİL

Əlihüseynin ordu həyatı asan deyildi, hərbi nizam-intizam sərt idi. Bütün hərbi qulluqçular tərəfindən qanunlar, hərbi nizamnamələr və komandirin əmrləri ilə müəyyən edilmiş qayda və qanunlara dəqiq riayət edilməsi tələb olunurdu. Bütün çətinliklərə baxmayaraq, Alik tez bir zamanda hərbi həyata uyğunlaşdı və qısa müddətdə həmkarları arasında böyük nüfuz qazandı, üstəlik, oğlanın yaxşı fiziki hazırlığı var idi.

Üç aydan sonra Əlihüseyn artıq Dağlıq Qarabağda döyüşürdü.

Uzun otuz il ərzində ana torpaq öz oğullarını qarşılamırdı. Sonsuz, minnətdar səma təmiz və aydın idi. Yuvarlaq dağlar öz doğma əsgərlərinə məhəbbətlə baxırdılar. Doğma torpaq nəvazişlə onların ayaqları altında uzanıb azadlığa çıxmasını gözləyirdi.

Qarabağın ecazkar yerləri Azərbaycan uşaqları üçün xalq muğamlarını oxuyurdu.

Təbiətin musiqisi əsrlərin yaddaşını və bütün Azərbaycan xalqının ağrı-acısını daşıyırdı. Azərbaycan torpağının havası onlara qüdrətli güc verdi, xalqın gücü isə torpaq sevgisini onlara çatdırırdı. Və bu həyat çarxı heç vaxt dayanmayacaq, Yer planeti fırlanarkən nəsildən-nəslə keçəcək.

Əli kiçik bir dağın yamacı ilə köhnə su kolonkasına endi. Oktyabrın başlamasına baxmayaraq, hava isti idi. Əsgər ətrafa göz gəzdirib, uzaqdan dostunu gördü. Qar kimi ağ mayka geyinmiş Röyal, diz üstə dayanaraq namaz qılırdı.





Qısaboylu, yaraşıqlı gənc fufaykasını altına sərib, səylə dua edirdi. Yaxınlıqda daşın üstündə onun əsgər köynəyi quruyurdu.

Başındakı qısa saçları günəşdə parıldayırdı, Röyal onları elə indicə yumuşdu.

Əli daşın üstündə oturaraq səbirlə dostunu gözləyirdi. Namazı bitirdikdən sonra Röyal ayağa qalxıb tez geyinməyə başladı. Qara hərbi botlarını geyinərkən Aliki gördü.

– Nədir, yoxsa başını yumusan? – Əlihüseyn ondan soruşdu.

– Hə!

– Üzünü də qırxmısan?

– Hə, ay mənim "ağsaqqalım".

– Mənə belə demə! – deyə Alik ondan xahiş etdi.

– Siz hamıdan böyüksünüz, ona görə hamı sizi belə çağırır. Biz sizə "ağsaqqal" deyirik, sizdən yaşca böyüklər isə sizə "Topu" deyirlər. Sizə hamı hörmət edir...

– Yaxşı, bəsdir! – Alik onun sözünü kəsdi. – Tez geyin gedək, döyüşdən qabaq soyuqlayarsan!

– Bəxtim gətirdi, çimdim və üzümü qırxa bildim. Dünən bütün doğmalarıma zəng elədim, sağollaşdım...

– Sağollaşdın?! – Alik təəccübləndi.

– Hə də, birdən məni öldürərlər! Anamın səsini eşitmək istəyirdim, əllərindən, gözlərindən ötrü darıxdım. Çimdim, özümü qaydaya saldım, məni ölü tapanda bədənimin çirkli olmasını və pis qoxumasını istəmirəm. İstəmirəm ki, üstümdə qurd-quş gəzsin...

– Axmağa bax! Düşünürəm ki, nə isə olsa, sənin artıq vecinə olmayacaq... Həm də bizi niyə öldürməlidirlər? Bəlkə, biz səninlə 99 il 11 ayımızda öləcəyik!

Alik öz sözünə güldü, əsgər isə davam etdi:

– Siz yaxşı insansınız! Biz hamımız sizi çox istəyirik, "ağsaqqal".

–Yaxşı, qulaqlarımı doldurma, mən onları indicə torpaqdan təmizləmişəm. Yaxşısı budur mənə de, ülgücü hardan tapdın?

–Yusif verdi, onlar Nəsirlə artıq təraş olundular. Saqqal qaşınır, dözə bilmirəm...

Çoban üç qoyunla birlikdə onlara yaxınlaşdı:

– Əsgərlər, necəsiniz? Namaz qılırıq, hə? Allah qəbul eləsin!

– Sağ ol.

– Hava yaxşıdır, sizə bir az pendir gətirmişəm. Gedək sizə, çay içək!

Əli yaşlı çobana ciddi baxaraq dedi:

– Get hara gedirdin, yanımızda nə gəzirsən? Qorxmursan bizimlə partlayarsan?

Çoban çaşmış halda diqqətlə Əliyə baxırdı.

– Ağsaqqal, o, sadəcə bizi pendirə qonaq etmək istəyirdi... – Röyal Əlinin sözlərinə görə özünü narahat hiss edərək sakitcə dedi.

– Heç nə olmaz, onun qonaqlığı olmadan da keçinə bilərik. Bu insan mənim xoşuma gəlmir. Bəlkə, bu düşmən xəbərçisidir... Niyə onun qoyunu bu qədər azdır və niyə o həmişə yanımızda fırlanır?

– Müharibədir axı, "ağsaqqal"! Pis adama oxşamır da...

– Bilmirəm, üç qoyuna görə özünü belə riskə atmaq?! Burada hər yerdə ot və risk doludur...





– Axmaqdır da, kəmağıldır. Gəl, pendirini al ondan, o isə qoy yoluna davam eləsin.

– O axmaq deyil, bicdir...

Bütün bu müddətdə Əli Röyal ilə pıçıldaşarkən, çoban səbirlə onları seyr edirdi. Nəhayət, Əli qışqırdı:

– Sağ ol, dayıcan! Bizə səndən heç nə lazım deyil, bizə yaxşı baxırlar, öz yolunla get, burada müharibədir, sən isə qoyunlarla ayağa dolaşırsan.

# XIII FƏSİL

Sakitlik qorxulu idi, hərbi maşınların və digər texnikanın gurultusu müvəqqəti olaraq səngimişdi. Əli əsgərlərin itkisinə çətin qatlanırdı. Elə indicə söhbət edirdilər, vəssalam, adam yoxdur...

Ölüm nədir, – düşünürdü, – əsgərin ruhu hara gedir?

Ərzaq payını götürüb daşın üstündə oturdu. Daima ətrafa boylanaraq, tuşonkanı açdı və çörəkdən bir tikə kəsdi.

Ətin tanış iyini hiss edən Alik bir anlıq gözlərini yumdu. Evin qoxusu gəlir... Göz yaşları boğazında yumağa döndü:

– Yox, ağlamayacağam! Ölməyəcəyəm... Mən anama, xəstə qardaşıma, bacıma və atama lazımam! Anacan, səni nə qədər çox sevirəm! Sən mənim elə gəncim və gözəlimsən ki!

Hər şey qurtarandan sonra mən çoxlu yatacağam. Eləcə yataq otağımda qapanıb yatacam! Bacarmıram, yuxusuzluqdan bütün bədənim ağrıyır. Kürəyim dəhşət ağrıyır, zirehli jilet ağırdır.

Çətinliklər olsa da, biz qalib gələcəyik! Mütləq qalib gələcəyik!

Bu qələbə artıq var olmayan, Azərbaycan torpağında yaşayan və doğulacaq insanların naminə lazımdır. Maraqlıdır, qardaşım Nadir indi haradadır, başına nə gəldi? Onunla eyni vaxtda Qarabağa düşdük, heyif telefonum xarab oldu".





Ona daha iki əsgər yaxınlaşdı. Onların da əlində ərzaq payı vardı.

– Alik, sən öz snikersini götürməyi unutmusan! – Denis təmiz Azərbaycan dilində dedi...

– İstəmirəm, özün ye, – Əlihüseyn quru cavab verdi.

Digər oğlan, tamamilə yeni döyüşçü idi, o, gözündən daim sürüşən eynəklərini düzəldirdi. Oğlanın qəşəng əlləri palçığa batmışdı... Əli ona nəm salfeti uzatdı:

– Götür!

– Sağ ol!

– Sən pis görürsən, nə işin var burada? – Denis soruşdu...

– Mən bura könüllü gəlmişəm! – oğlan cavab verdi.

– Mən də könüllüyəm, incimə qardaş, ancaq sən eyni geyinirsən... Məndə ki söz danışdım da, bağışla! Nə fərqi var, biz hamımız bura öz torpaqlarımızı murdar əclaflardan təmizləmək üçün gəlmişik!

– Mən köklü bakılıyam, Alik şəkilidir, sən haradansan? – konservləri aça-aça Denis soruşdu.

– Mən də Bakıdanam. Adım Nəsimidir.

– İndi tez yeyək, ola bilsin döyüş indicə başlayar...

Biz yaxşı qidalanırıq. Təkərli mətbəx aşpazla birgə dünən partladı... Tuşonkamız keyfiyyətlidir, ancaq ətdir!

Dünən erməni "burdasını" gördüm. Qaçanda, hər şeyi qoyub getdilər...Yəni bu görəcək bir şeydir! Məgər, öz əsgərlərini belə saxlamaq olar? Onların erməni "tuşonka"sı – başdan ayağa üfunətli piydir! Ama bizimki başqa aləmdir! – deyib, rus oğlan iştaha ilə konservi yeməyə başladı.

Alik yavaş-yavaş yeyir, kiçik bacısı və anasını, üçü çarpayıda necə atıldıqlarını, sonra yastıqlarla vuruşduqlarını xatırlayırdı. Bu necə də şən xoşbəxtlik idi! Anasının gözəl əllərinin "dolma"nı necə məharətlə bükdüyünü xatırladı. Yenidən gözlərini yumdu...

– Sən niyə pis yeyirsən? Tez-tez ye, bilmək olmur sonra nə olacaq, nə vaxt yemək verəcəklər. Bizə güc və döyüş ruhu lazımdır! Dünən Quzanlı kəndində yaxşı kabab vardı, biz onu böyük iştaha ilə yeyirdik, amma bu dünən idi, indi isə oktyabrın 8-dir, nə versələr tıxa və sevin! Alik Denisə baxdı:

"İşə bax, mən onu cəmi bir neçə saatdır tanıyıram, amma o artıq mənim üçün çox yaxın və əziz olub! Hər şey bitəndən sonra onu mütləq Şəkiyə qonaq aparacağam".

Uzunboylu, başında bir topa kürən saçları olan iri rus əsgəri "Üç pəhləvan" cizgi filmindəki Dobrınya Nikitiçə bənzəyirdi. O, daima gülümsəyir və zarafatlaşır, gücü ilə fəxr edir, yaralı əsgərlərə kömək edirdi. Onun yanında etibarlı və əyləncəli idi.

7 oktyabrda Quzanlı kəndində olarkən, saat 14:49-da, Əli Bakı şəhərinə anasına zəng elədi:

– Alo! Alo!

– Kimdir?

– Öz oğlunu tanımadın? Mənəm, Əlihüseyn!

– Alik?! Oğlum, necəsən? Özünü necə hiss edirsən, yeməyin-içməyin necədir?

– Bizi çox yaxşı yedizdirirlər. Ruha necədir, ata, İlkin?

– Hər şey normaldır! Əynin istidir? Ayaqların istidir? Sənə nəsə lazımdırsa de, bir yol tapıb sənə göndərərəm.





– Narahat olma, hər şey yaxşıdır! Mən indi hətta meyvə də yedim! Bizi orada daimi hər şeylə təmin edirlər.

– Alik, ana sənə qurban olsun, diqqətli və ehtiyalı ol, diribaş ol, qorxmaz ol və özünü qoru.

– Yaxşı, ana!

– Alik, səni gözləyirəm!

– Yaxşı! Ana, sən Nadir haqqında nə isə bilirsən?

– O da Qarabağda döyüşür! Sən özündən muğayat ol!

– Ana, fikir eləmə! Heyif telefonda video yoxdur, sənə göndərərdim ki, baxıb sakitləşəsən. Buralar elə gözəldir ki! Hər şeyə görə çox sağ ol, ana! Elnarə xalanın telefon nömrəsini ver, ona zəng eliyim.

Həmin günü Əlihüseyn bütün qohumları ilə danışdı.

Arzu oğlu ilə danışanda ağladı. O da, əsgər oğlu kimi, xəyallara daldı. Bir gün onun sevimli Əlihüseyni qaça-qaça otağa girdi və sevinclə bildirdi:

– Ana, mən əsgər gedirəm!

– Nə əsgərlik?! Sən magistraturaya girməlisən!

– Mən artıq tibbi müayinədən keçmişəm, dostlarımın hamısı gedib, mənim nəyim pisdir?

– Səndə skolioz var! Onlar sənin onurğandakı əyriliyi görmədilər ki? – deyərək qışqırmışdı.

Alik güldü:

– Onlar dedilər ki, mən top kimiyəm! Səhhətim yaxşıdır!

Oğlunun tezliklə ata evindən ayrılacağını öyrənən Arzu ona çox diqqətlə yanaşdı. O, ərinin oğlunu danlamasına imkan vermir, ona dadlı yeməklər bişirirdi. Bir dəfə internet vasitəsilə ona şalvar almaq istədi:

– Alik, bax, internet-mağazada sənin üçün əla şalvar görmüşəm.

– Niyə? Onsuz da əsgər gedirəm, dəyməz. Mən heç bilmirəm qayıdanda necə olacağam.

– Yaxşı, onda sən əsgərlikdən qayıdan kimi, sənə kreditlə maşın alarıq.

– Ana, neynirsən ki? Mənə maşın lazım deyil, mən kitab oxuya-oxuya avtobusla da gedib-gələ bilərəm. Tıxaclarda dayanmaqdansa 30 qəpik verib getmək daha yaxşıdır. Maşına çox xərc lazımdır.

Arzu əllərini salladı:

– Kimə desən inanmaz! İlk dəfədir ki maşın arzulamayan adam görürəm. Bu adam da – mənim oğlumdur!

– Ana, bunların hamısı həyatda kiçik şeylərdir! – onda belə cavab vermişdi, indi ona elə gəlirdi ki, bu üç ay əvvəl olmamış, sanki onun hələ çox gənc olan ömründən bir qərinə keçmişdir.

Alik yoldaşlarına tərəf baxdı. Denis danışmağa davam edirdi, uşaqlar onu maraqla dinləyirdilər:

– Necə də sakitlikdir, hətta şübhəlidir! Axşamdır, amma səssizlik qorxudur...

– Mənim elə şirin, iri gözlü qızım var! Məni sevir, atasını. Adını Alina qoymuşam.

Pandemiyada heç cür iş tapa bilmirdim, fikir edirim. Eh, görəsən oralarda anam necədir? Könüllü getdiyimi biləndə ağladı. Necə də getməyəsən axı? Ermənilər iyulda ilk olaraq bizim Tovuza hücum çəkdilər, generalı öldürdülər, Polad Həşimovu. Əlimi-qolumu sallayıb evdə otura bilməzdim.

Kaş ki ailəmi görə biləydim, heç olmasa, gözümün ucu ilə ... Gərək, onları nə qədər çox sevdiyimi tez-tez deyərdim.





Denis əsgər yoldaşlarına tərəf baxdı, uşaqlar ona sakitcə qulaq asırdılar.

Nəsimi də iştahasız yeyirdi, durmadan ətrafa baxıb səksənirdi...

– Vətənim üçün ömrümü fəda edərəm! Yalnız ən möhkəm və fiziki cəhətdən hazırlanmış əsgərlər sağ qalacaq. Burada insan həyatının dəyəri yoxdur! – birdən dedi.

– Bunları nəyə görə deyirsən? Biz müharibədəyik. Bu internetdəki oyunlardan deyil! Virtuallıq və reallıq – bir-birinə uyğun olmayan şeylərdir! Bu, canlı, sərt reallıqdır! – konservini yeyib qurtarandan sonra Denis dedi.

– Mən sadəcə bilmirəm... Bu gün birinci gündür burdayam. Artıq iki nəfərimiz yoxdur. Başa düşmürəm, insanı necə öldürmək olar?

– Düşmənlə üz-üzə gəlsəm, onu vura biləcəyəmmi? Yəqin ki, onun da uşaqları, arvadı, bacısı, anası, atası, qardaşı, nənələri və babaları var. Onlar onun üçün ağlayacaqlar.

– Bilirsən, mən də belə düşünürəm, həmişə. Lakin ermənilərin qarşısını almasaq, onlar daha da irəli gedəcəklər! Onlar bizə aid hər şeyi məhv etdilər və burada heç nə tikmədilər! Onlar öldürürdülər, qarət edirdilər, hər şeyi mənimsədilər və "müstəqillik" haqqında hekayə icad etdilər, həm də bizim öz torpağımızda! Əgər "artıq fikir vermisənsə" onda başa düşəcəksən: dünyanın heç bir filmi nə qədər səviyyəli olsa da, real həyatda müharibənin dəhşətlərini əks etdirə bilməz...

Erməni əsgərləri silahsız Azərbaycan xalqını vəhşicəsinə öldürürdülər, biz isə dinc insanlara toxunmuruq! Gözləyirik ki, hamı səpələnsin, hətta kömək edirik... Onlar neçə illərdir ki, yalanları ilə aslanın dabanını dişləyiblər. Ona görə də payını aldılar. Ermənilər indi də

birinci başladılar... Yayda bizim Tovuzu partlatmaq istəyirdilər... 30 ildir onlar bizə hücum çəkir, bizi elə öz torpağımızda öldürürlər! Əclaflar!

İndi onlar davamlı təxribatları ilə bizi təhlükə altına atmaq istəyirlər! Atışmanı özləri başlayırlar, sonra da bizim üstümüzə atırlar! Onlara qanun yazılmayıb və bütün dünyanın qərarlarını veclərinə belə almırlar!

Ruslara arxa kimi güvənirlər, amma daha axmaqlar yoxdur! Rus anası artıq "iki yüz" yükünü almayacaq!

Bəli, müharibə – dəhşətli işdir! Hətta həşəratlar gizləniblər.

Hətta 2000-ci ildə baş vermiş zəlzələ bu qədər qorxunc deyildi. Burada təkcə yer lərzəyə gəlmir, göy də his içində fırlanır!

– Bütün bunları bilirəm və anlayıram! Ancaq insan həyatı...

– Düşmənlə qarşılaşsan, soyuqqanlılıqla öldürəcəksən! Ermənilərin bugünkü firavan Azərbaycanı görməyə imkan vermədiyi bütün Azərbaycan xalqına görə! – yerindən qalxaraq Alik quru səslə dilləndi...

– Mən də bu fikirdəyəm! – Denis dostunun sözünü təsdiqləyib snikersi açdı. – Nəsimi, sən nə iş görürsən? İşləyirsən, daha doğrusu, hardasa işləyirdin?

– Mən skripkaçıyam...

Alik başını qaldırdı:

– Mən də "musiqi"ni qurtarmışam! Qarmon...

– Bax, komandir əl edir, sürünək, musiqiçilər... Eh, heç yeyib qurtarmadıq! – Denis ayağa qalxdı.

Onlara əyilərək daha beş nəfər yaxınlaşdı.





Hamı oturub döyüşü gözləyirdi... Düşmənin diqqətini çəkməmək üçün siqaret çəkməməyə çalışırdılar. Müasir hərbi texnika uzaq məsafədən tüstünü aydın göstərirdi.

Eynəyini salfetlə silən Nəsimi yaşlı ulu nənəsinin gözyaşardıcı sözlərini xatırladı:

– Mənim balam, mən sənə bir dua öyrədəcəm "lənət şeytana", o səni güllədən qoruyacaq!

Onda o qımışmışdı... İndi o əyilib səngərdə oturmuşdur. Ulduzlu qaranlıq səmaya baxıb, birdən fikirləşdi; " Eh, indi qaranlığa qışqırasan:

" Qarabağ, sənin dalınca gəlmişəm!"

Başını aşağı salan Nəsimi gördü ki, Alik avtomatı sinəsinə sıxaraq fikrə dalıb.

Oğlan evini düşünürdü. O, bütün qonşuları, dostları barədə fikirləşirdi... Günəşin şüalarını, Şəkidə dan yerinin sökülməsini, gün batımını xatırladı, sinəsində ordenlərlə qalib qayıtmağı xəyal edirdi.

Ancaq o daha çox onu düşünürdü.. Sitarəni.

Yaşanmış günlər bir-birinin ardınca yaddaşından keçirdi.

Öz ad gününü, 24.01.20, o axşam, anası və bacısı ilə mətbəxdə keçrirdi. Onda Arzu "Napoleon" tortu bişirmişdi.

– Bağışla ki, belə qeyd edirik. Bu gün cümə günüdür, işdə yubandım... Çətin gün idi! – gileylənərək dedi.

– Heç bir şey, mən anlayıram...

– Sən hara?

–Yatmağa...

– İncimədin ki, oğlum?

– Bu nə sözdür!

– Arzu edirəm ki, bütün arzularına çatasan!

– Sağ ol, ana...

Həftəsonu iş günləri idi və bazar ertəsi Alikin istirahət günü idi. Bu gün onu ilk narahat edən Sitarə oldu:

– Salam!

– A, salam!

– Əli, sən məni bir saatlıq əvəz edə bilərsən? Təcili işim var! – qız xahiş etdi.

– Sitarə, bilirsən ki, mən hər şeyi əvvəlcədən planlaşdırıram! Yeganə istirahət günümdə kiminsə işimə mane olması mənim xoşuma gəlmir!

– Nə olar, səndən çox xahiş edirəm! Nə olar, zəhmət olmasa!

– Yaxşı! Gələcəyəm.

– Nə vaxt?

– Sənə nə vaxt lazım olsa onda!

– Onda 16.00-a.

– Oldu.

İşə gələn Alik işçi heyəti arasında bir "canlılıq" hiss etdi. Hamı müəmmalı şəkildə ona gülümsəyirdi...

Nəhayət, administrator və bütün işçilər onun yanına çıxdılar:

– Əlihüseyn! Sürpriz!

Salona sinidə böyük şokoladlı tort gətirdilər. Musiqi çalmağa başladı, hamı əl çaldı.

– Əli! Ad günün mübarək!





Alik belə bayram gözləmirdi. Qəlbində sevinclə qarışıq utancaq bir həyəcan var idi. O, qızardı...

– O-o-o! Sağ olun! Narahatlığa dəyməzdi! – yoldaşlarından təbrikləri qəbul edərkən deyirdi...

Bir az sonra gülümsəyərək Sitarədən soruşdu:

– Deyəsən, işlərin vardı, tələsirdin! Gəldim səni əvəz edim, gedə bilərsən!

– Bağışla, məndən xahiş etdilər ki, səni evdən çıxarım. Mən sənə ilk dəfə yalan danışdım, bir daha təkrarlanmayacaq!

– Səndən xahiş etdilər?

– Hə də! Səndən hamı çəkinir, bilirlər ki, razı olmayacaqsan, ona görə mənə müraciət etdilər!

– Hə, doğrudan da hamı bilir ki, sənə yox deyə bilmirəm!

Bütün bunları yada salaraq, Alik öz-özünə gülümsədi.

– Nəyisə yaxşı şey xatırladın, hə? – Nəsimi soruşdu.

– Hə, öz ad günümü... Həmçinin, instituta girməyimi necə qeyd etdiyimizi xatırladım, – Alik cavab verdi. – Şəkidə babam qoç kəsib, əla kabab çəkdi, hamı "Soyuq bulaq" istirahət evində yığışdı.

– Hə, əladır ki! Görəsən, belə şeylər bizdə yenə olacaqmı...– səsində intizarla Nəsimi dilləndi.

Denis sərt şəkildə ona baxaraq, sözünü kəsdi:

– Dilinə çiban çıxsın! Biz hələ yüz yaşına qədər yaşayacağıq, buralar necə də soyuqdur!

Hərbi şalvarın dərin cibindən snikersi çıxarıb dişlədi...

– İstəyirsən? Bəs, sən? – yoldaşlarına təklif etsə də, onlar imtina etdilər.

Alik səssizcə düşüncələrə daldı...

– Mənim də arzum var... Torpaqlarımızı geri qaytaran kimi, böyük ev tikəcəyəm.

Uşaqlar ona tərəf boylandılar... Bəstə boy, yumrusifət hərbçi, otuz iki yaşı olar-olmaz, ayağını altına sıxıb yerdə oturmuşdu. Onun adı Əhmədov Sənan Qalasan oğlu idi.

– Kirayədə yaşamaqdan bezmişəm. Mən xoşbəxt insanam, – dedi və səsində kədər sezilirdi, – mən həmişə böyük ailəmin olmasını arzulamışam. Çox şükür! Allah xətrimə dəymədi...

Əslən şamaxılıyam, bizim oralar çox gözəldir.

Əsgərlikdən sonra artilleriyada tankçı kimi müqavilə ilə xidmətə getdim. İndi bizim hissə Füzulidən keçib Xocavəndin Qaraxanbəylisinə girir...

Sevib evlənmişəm. İki oğlum və bir qızım var, Nuray, onun indi beş yaşı var. Elə ağıllı, mülayimdir ki.

Onun dünyaya gəlməsini çox istəyirdim. O, məni çox sevir. İndi balalarım Bakıdadır, yoldaşımın anası onlara baxır. Balalarımı oxutmaq istəyirəm. Onlara ali təhsil vermək istəyirəm. İbrahim və Həmid böyük adam olacaqlar... Onlar balaca olsalar da, artıq kompüteri söküb yığa bilirlər. Çox bacarıqlı və mehribandırlar. Qızım da, yəqin ki, ya həkim olar, ya müəllim... Məndən gəlincik istəmişdi. Onlarla fəxr edirəm...

– Gəlməzdən əvvəl onları qucaqlayıb bağrıma basdım. Ağır idi.

Gənc kişi başını göyə qaldıraraq dərindən nəfəs aldı. Gözləri yaşardı.

– Allah, əgər sən məni eşidirsənsə... Balalarımı qoru! Fatiməmi, valideynlərimi də qoru! Bu həyatda heç kəsə





pislik etməmişəm, hamıya ancaq kömək eləmişəm. Sən də mənim balalarıma kömək ol!

Ona qulaq asıb hamı yerində donmuşdu... Əhmədov susaraq davam etdi:

– Böyük aynabəndli ev tikəcəm, qoy hamı oturub birlikdə şəfəqin sökülməsini qarşılayaq, qürubu yola salaq...

Zalı böyük, geniş edəcəm. Qonaq sevirəm...

Qoy hər şey qurtarsın, və biz mütləq qalib olacağıq! Qələbə bizimlədi! Ermənilər, hücuma keçib olan-qalanımızı da qoparmaq istəyirlər...Bir santimetr belə verməərik, ancaq özümüzün olanı geri alacağıq!

Birazdan, səngərdə oturub, əsgərlər Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevin nitqini dinləyirdilər. Mobil telefon hamı üçün bir ədəd, o da komandirdə idi...

Azərbaycan liderinin nitqini dinləyən uşaqlar gülümsədi və dediklərindən böyük qürur hissi keçirdilər. Onların hər biri qarşıdakı döyüş üçün məsuliyyət hiss edirdi. Cavan, çox gənc əsgərlər anlayırdılar ki, Vətəndən əziz heç nə yoxdur, onun uğrunda ölüm-dirim savaşına gedirlər.

Prezidentin səsi Böyük Vətən müharibəsi illərindəki Levitanın səsi ilə müqayisə edilə bilərdi:

"Artıq bir aya yaxındır ki, İkinci Qarabağ müharibəsi gedir. Xalqımız üçün bu müharibə Vətən müharibəsidir. Vətənimizin torpaqlarını işğalçılardan azad edirik. Bu müddətdə şanlı Azərbaycan ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edib. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik, çünki Dağlıq Qarabağ Azərbaycanın əsl, tarixi torpağıdır".

O, təkcə əsgərlərinin deyil, bütün Azərbaycan xalqının qəlbində inam yaratmışdır.

Dünənki uşaqların mübariz ruhu və vətənpərvərliyi Azərbaycan sakinlərində böyük ümidlər yaratdı. Hamı gözləyir və dua edirdi...

Deyəsən, Qarabağın ana torpağının özü də azərbaycanlı oğulları üçün darıxıb, onlara ölümcül döyüşdə kömək edir, onlara güc, dəstək verir! O, oktyabr ayında yağışların vaxtını uzadır, uşaqların soyuq havaya tab gətirməsinə imkan verirdi. Neçə əsrlərdir ki, torpağımız öz ağrılarına mətanətlə dözür? Bax, elə bu otuz il ərzində də erməni əsirliyində olarkən o arıqlamış, xaraba qalmışdı! Səbirlə sahibini gözləyirdi, o sahib ki, onun adı – Azərbaycandır!

Bu diyarlar çoxdandır quşların nəğmələrini və bütün canlıları görmürdü.

Hər şeyi cəngəllik və tikan basmış, alaq otları doğma Azərbaycan torpağımızı zəncirləmişdi.

Torpaq zəhmətkeş azərbaycanlı əlləri olmadan ölür, nəfəs almır, boğulurdu...

Övladlarımız – xilaskardır, Sizə minnətdarıq!!! Qarşınızda baş əyirik torpağa qədər!





# XIV FƏSİL

2020-ci ilin hərbi oktyabrı olduqca quru və isti idi, yalnız uzun gecələr çox qəzəbli və soyuq olurdu...

Bir gün səhər tezdən Alik baxdı ki, müharibədən narahat olan yuxulu parabüzən onun şəhadət barmağı ilə sürünür...

"Allah, təbiət bütün təzahürlərində necə də gözəldir! " – o səngərdə oturub fikirləşirdi... Əyilib əli ilə bir ovuc torpaq götürüb onun doğma qoxusunu içinə çəkdi...

Torpaqdan uşaqlıq, ev, Azərbaycan iyi gəlirdi...

Əlihüseyn, iliyinədək tanış qoxunu içində saxlayaraq gözlərini bir dəqiqəlik yumdu.

Əsgərlərdən biri bunu gördü, o da əli ilə torpağı götürüb iylədi...

– Təravət ətri var! – gülərək söylədi. – Füzuli şəhəri, valideynlərimin Vətəni! Yaxşı torpaqdır, onu əkmək, becərmək olar. Bu canavarlar bizim malımızın qədrini bilmədilər, otuz il onun nemətlərindən istifadə etmədilər. Daha da yaxşı, dincələn torpağımız daha da münbit oldu.

Tezliklə günəş çıxacaq. Bu gün oktyabrın 9-dur. Qarabağımız bizi sevir... Təbiət bizə kömək edir. Yağış yoxdur.

Ermənilər bizim Dağlıq Qarabağı öz bildikləri kimi adlandırıblar: "Artsax"... bu nə isə günəşlə bağlıdır... Əslində isə onu qanlı, qaranlıq zülmətə çevirdilər!

Artsax-Martsax, uydurdu emrəni sarsax! – qafiyə ilə deyib yana tüpürdü.

Alik susub, torpağın altından ucu görünən snikers kağızının parçasına baxırdı.

“Şokoladın kağızı var, insan isə daha yoxdur” ... – snikersin kağızını əlinə götürərək düşündü.

O, konfet qabını ehtiyatla silkələdi, Nəsiminin sınmış eynəklərini ona bükdü və hər şeyi yenidən torpağa basdırdı... O, mehriban skripkaçının və şən Denisin üzlərini xatırladı... Dünən axşam onlar da getdilər...

Azərbaycan övladları vətənləri uğrunda ölümünə vuruşurdular!

Alik saatına baxaraq döyüşə hazırlaşdı. Səhər saat 10:00 olurdu.

Döyüş qəflətən başladı, nərilti, uğultu və ildırım gurultusu ilə... Torpaq silkələnirdi, uçurdu, daşları, tozları göyə qaldırırdı... Bu müharibənin dəhşəti idi! Qarabağın qara səması odlu buludların arasından parıldayırdı. Hər iki tərəfin sağ qalmaq şansı az idi. Əsgərlərimiz mətanətli və yenilməz idilər.

Minaatanın atəşləri dayanmırdı... Əsgərlərimiz mərdliklə müdafiə olunur, irəli atılır və Vətən uğrunda döyüşürdülər. Əlihüseynin hissəsinin yaxınlığında qurğuşun mərmisi partladı...

Alik qaynar bir şeyin sinəsini kəskin sıxdığını hiss etdi. Partlayan mərminin dörd qəlpəsi onu dəlib-deşik etmişdi.

O yıxıldı və artıq o yox idi... Onun daha beş xidmət yoldaşı öldü: Yusif, Röyal, Həsən, İzzət, Məmməd. Daha iki əsgər Mais və Nəsir güclü yaralandılar, ayaqlarından xəsarət aldılar...





11 oktyabr 2020-ci ildə tankçı Əhmədov Sənan Qalasan oğlu da şəhid oldu.

Şəhid olmuş Vətən övladlarına əbədi eşq olsun, onlar Azərbaycanı qoruyurdular!

# XV FƏSİL

Bakıda qızıl payız isti və yumşaq olsa da, insanlar ətrafdakı gözəlliyi hiss etmirdilər. Bakılılar Qarabağda gedən müharibəni çox ağır keçirirdilər. İnsanlar qəzetlərdə, internetdə yazılan bütün xəbərləri böyük maraqla oxuyur, amma ən çox da öz prezidentlərinin çıxışlarını gözləyir, dinləyirdilər. İlham Əliyevin inamlı səsi onların qəlbinə güc və böyük inam aşılayırdı. Hərbi komissarlıqlarda könüllülərin böyük axını növbəyə düzüldü. Cavan da gedirdi, yaşlı da. Küçələrdə uşaqlar yürüş etməyi öyrənir, döyüş mahnıları oxuyurdular. Sakinlərin pəncərələrində iki bayraq asılmışdı: Azərbaycan və Türkiyənin... Bu bayraqlar hər yerdə küləkdə dalğalanırdı. Hamı Azərbaycanın Böyük Qələbəsini və övladlarının geri qayıtmasını Uca Tanrıdan diləyirdi...

Ordumuzu irəli aparan amansız döyüşlər gedirdi. Ölən əsgərlərin xəbəri bütün şəhərə çox sürətlə yayılırdı. Hər yandan ölən əsgərlərin qohumlarının fəryadı, iniltiləri eşidilirdi...

Azərbaycan xalqı milli mənsubiyyətindən asılı olmayaraq ordumuza görə müxtəlif cür narahat olurdu. Çoxları cəbhəyə humanitar yardım hazırlayırdı. Kimininsə qəlb ağrısı başlayıb, depressiyaya çevrilirdi. Kimisə səylə dua edirdi... Dərd hamını bir araya gətirdi və bir etdi. Hamı 20-ci ilin pandemiyasını unutdu, COVID-19 virusu artıq heç kəsi narahat etmirdi, hamı Azərbaycan torpaqlarında gedən müharibənin sonuna görə həyəcan keçirirdilər. Komendant saatı 21.00-dan başlayır və hamı tərəfdən ciddi əməl edilirdi.





Lakin bütün çətinliklərə baxmayaraq, birləşmiş Azərbaycan xalqı Qələbəyə inanırdı, öz qəhrəmanına inanırdı: Prezident İ.H.Əliyev Qarabağ torpağına gedən yolda bütün maneələri dəf edərək inanırdı və gedirdi. Azərbaycanda hər bir insan ölkəsinə, öz cəmiyyətinə xeyir verməyə çalışırdı.

Qarabağda amansız müharibə, böyük şəhərlərdə isə dinc sakit həyat davam edirdi.

"Araz" supermarketi də istisna deyildi.

Satıcılar ərzaqları qutulara qablaşdırmaqla məşğul idilər... Bu, cəbhədə olan Azərbaycan oğulları üçün humanitar yardım idi.

Sitarə peçenyeləri düzərək Əlini düşünürdü:

"Eh, bəlkə, mənim sevgilim də belə bir pay alacaq?!

Kaş ki biləydim, bura məktub qoya bilərəmmi, ya yox, amma hardadır məndə elə bəxt? Hardadır o, necədir?

Bu gün onu yuxuda görmüşəm. Onunla birlikdə gəşəng avtobusda gedirdik, lakin Əli qalxdı və dedi:

– Mən artıq çatdım. Heyif ki, düşməliyəm. Yolum qısa oldu. Və o düşdü. Görəsən, bu nə deməkdir? Yuxuda qısa yol nəyi bildirir?"

Bunu yadına saldıqca Sitarənin ürəyi sıxıldı. Qız başına şalını düzəldib yana baxdı. Üç nəfər cavan oğlan və administrator satıcının birinin mobil telefonunda nəyəsə baxırdılar...

Administrator ona əl elədi. Sitarə onlara yaxınlaşdı.

– Qulaq as, – baş satıcı ona müraciət etdi, – bax gör, bu oğlan bizdə işləyən oğlan deyilmi, mən burda təzə işləyirəm?

– Bu oğlanı bu günlərdə öldürüblər... Füzuli şəhəri yaxınlığında... – gənc satıcı dilləndi.

Sitarə yaxın gəldi, ürəyi pis bir hisslə bərk döyünməyə başladı.

– Bu ki bizim Əlidir!!! – üçüncü satıcı qışqırıb dəhşət dolu baxışla Sitarə tərəfə baxdı.

Qız astaca yaxınlaşıb özgənin telefonuna baxdı...

– Əli? Mənim Əlim? Şəhid? O şəhiddir? O həlak olub? – deyərək pıçıldadı.

Gözü önündə hər şey axdı, ayaqları büküldü...

– Ona su gətirin! – administrator əmr etdi, – nəyidir onun?

– Nişanlısıdır, – dedi kimsə.

Evə gedərkən Sitarə avtobusda oturub ağlayırdı. Ona elə gəlirdi ki, bu nəsə bir acı səhvdir, çünki bu həyatda belə olmur! O Əli ilə birlikdə dəfələrlə filmlərdə qəhrəmanın necə öldürüldüyünü görürdülər və o zaman ona deyirdi:

– Ay qız, bu ki kinodur! Mən onların hamısını tək sol əlimlə yıxaram!

Qız ağlayırdı, hicabının ucları yaş idi... Sonuncu dəfə teatrdan çıxanda necə zarafat etdiklərini xatırladı:

– Təsəvvür edirsən məni də belə öldürüblər, sinəmə güllə ilə?

– Mən səni xilas edərəm! Qoymaram öləsən... – onda ona deyirdi. Xilas etmədi!

İndi onun bütün xəyalları qırıldı, qara duman apardı onları.

Qızıl payız boz və soyuq, buludlar qaranlıq və qəddar, həyat isə boş və bədbəxt oldu...

Hər kəsin sevimlisi olan insanın ulduzu əbədi olaraq söndü.





# XVI FƏSİL

Qarabağın qanlı oktyabrı bütün canlıları dəhşətli gərginlikdə saxlayırdı. Zəifləmək "ölüm" demək idi.

Nadir soyuq tər içində oyandı. Soyuqdan uyuşmuş beli, artıq titrəməni hiss etmirdi. Ağır zirehli jilet sinəsini sıxırdı... Yaş torpaqda yatmaq ağır zövq idi, ancaq düşməni məhv edərək irəliləmək üçün mübarizə aparmaq lazım idi.

On doqquz yaşlı oğlan vahiməli yuxusunu xatırlamağa çalışsa da, bu onda çətin alınırdı.

– Sən düz üç saatdır yatırsan, indi mənim növbəmdir... – özü kimi gənc oğlan olan əsgər ona müraciət etdi...

– A, yaxşı, get, yat, mən keşiyinizi çəkərəm, – ürəyində həyəcan hiss edən Nadir söylədi.

– Heç olmasa, yuxunu götürdün? Yuxuda nə görmüsən? – Nadirin isti çalasına uzanan əsgər soruşdu.

– Xatırlamıram, mən, deyəsən, yuxuda qardaşım Əlihüseyni görmüşəm.

– A-a-a, yaxşı... Hə, yaxşı, sakit olun orda... yatıram...

Nadir şalvarın cibindən mobil telefonu çıxardı, bu yeganə əşya ona dinc həyatı xatırladırdı...

O nadir hallarda "İnstaqram"a girirdi, ancaq bu gün nədənsə əli məhz ora getdi...

Açan kimi Alikin şəklini gördü...

Əlihüseyn artıq yoxdur... O, şəhiddir, şəhid, şəhid!!!

Nadir nə oxuduğunu, bacısı Aytənə, sonra da anasına necə zəng etdiyini dumanlı şəkildə xatırlayırdı...

– Alo, ana! Aliki öldürüblər? O həlak olub? Ana, cavab veeeeer!!!

– Yox, nə danışırsan! O yaralanıb... – ağlamış Aynur səsini dəyişərək cavab verdi.

– Məni niyə aldadırsan! Mən internetdə görmüşəm! Alik artıq yoxdur?

– Oğlum, sən özün necəsən? Özünə yaxşı bax... – Aynur ağladı...

Daha sonra Nadir tez nömrəni yığıb, xalası Arzuya zəng elədi.

– Xala, Alik şəhid olub? Onu öldürüblər?

Dərddən sarsılmış Arzu, bir az susub, dilləndi:

– Nadir, necəsən? Özünü qoru!

– Xala, axı sən cavab vermədin, de görüm!!! – qışqırdı. – De də, de, o şəhiddir?

– Yox, o sağdır. Bizə səhv məlumat veriblər, balam, qardaşın Alik sağdır, sadəcə yaralıdır.

– Hə? Onda onun telefon nömrəsini mənə ver...

– Telefonu xarab olub, mən ona deyərəm, sənə zəng edər. Sən ancaq özündən muğayat ol... Biz hamımız sənin üçün nigaranıq... – Arzu dərdli-dərdli ağladı...

– Ağlama, xala!

– Ağlamıram, şəbəkəyə nə isə olub...

Nadir yenidən anasına zəng etdi:

– Ana, xalama de ağlamasın, möhkəm olsun...





Daha sonra Nadir hönkürüb ağlayır, özünə yer tapmırdı, ürəyinin ağrısı keçmirdi...

Komandir ona yaxınlaşıb:

– Fikrətli, bu sənin qardaşındır? – soruşdu.

– Bəli.

– Onunla fəxr elə, o öz adını əbədiləşdirdi. O torpaqlarımız uğrunda vuruşurdu! Sən sona qədər getməlisən, qardaşının Qələbəyə gedən yolunu davam etdirməlisən!

– Əlihüseynin intiqamını alacağam... Biz mütləq qalib gələcəyik!

– Bax bunun üçün də sən yaşamalısan... Bizim üçün ən vacibi – Qələbədir! Sizin həyatlarınızı qorumaq isə – mənim üçün ən başlıca məsələdir...

Komandir qalan əsgərlərə tərəf dönərək ucadan dedi:

– Övladlarım! Biz hər gün əziz və doğma İlham Əliyevin çıxışını dinləyirik! Prezidentimizin əminliyi, gücü bizə, onun döyüşçülərinə keçir... O bizə ruh gücü, vətənpərvərlik bəxş edərək önümüzdə və arxamızda dayanır! Dövlətimiz bizə inanır, bizi gözləyir, köməklik göstərir.

Sizin vəzifəniz təkcə torpaqlarımızı işğalçılardan təmizləmək deyil, həm də sağ qalmaqdır! Bunun üçün xahiş edirəm, hərbi intizama riayət etməyə davam edin... Mən sizinlə fəxr edirəm və çox qiymətləndirirəm.

Müharibə başlayandan çoxları artıq aramızda deyil, amma onların xatirəsi naminə düşmənlə vuruşacağıq, yolumuzu irəli aparacağıq, Qələbəyə yol açacağıq!

Atdığımız hər addım bütün dünya tərəfindən izlənir. Azərbaycan əsgərinin şərəfini ləkələməməlisiniz! Bu təlxək Paşinyan roliklərin birində bildirib:

"Azərbaycan əsgərləri qulaqlarınızı kəsəcək, gözlərinizi çıxaracaq..."

Bu zalım bizi bütün dünyanın gözü qarşısında qaralamaq istəyir, bu dəccal özünün yaratdığı vəziyyətə faciə qatmağa çalışır... Başqasının qanını tökməyə, başqalarının arxasında gizlənməyə öyrəşdiyi üçün başqa ölkələri də bu müharibəyə cəlb etməyə çalışır... Amma indi insanları aldatmaq mümkün deyil!

Artıq Xocavənd rayonuna yarı yoldayıq.

Hamınızdan bu cür səbirli və cəsarətli qalmağınızı xahiş edirəm... Dinc erməni əhalisinə toxunmayın, təxribatlara uymayın!

Məndən bir addım belə çəkilməyin, hamı yalnız mənə və mənim tərəfə baxsın!

Allah və Prezidentimiz İlham Əliyev bizimlədir!

Axşama Hadrutu götürdülər... Əsgərlər erməni lövhəsini tez sökdülər və tapdaladılar.

Nadir Hadrutun divarında yazdı: "Əli, Nadir, Şəki". Daşın üstündə oturub dedi:

– Alik, biz Hadruta girdik! Sənin qisasını aldım, biz mütləq qalib olacağıq!





# XVII FƏSİL

Müharibənin cəhənnəmi və dəhşəti ondan ibarətdir ki, insan üçün hər şeyi müharibə özü həll edir!

Ölüm döyüş meydanındakı vəziyyətin bərabər hüquqlu sahibidir, onun qarşısında hamı bərabərdir. Ancaq yenə də hərbi intizam və fərasətlə cəldlik, minaatanların sonu olmayan odlu atəşi qarşısında sağ qalmaq üçün cüzi imkan verirdi.

XXI əsrin müharibəsi öz ildırım sürəti ilə ötən əsrlərin müharibələrindən tamamilə fərqlənirdi. Müasir artilleriya silahı qəfildən, bir zərbə ilə vururdu. O, hər şeyi kor-koranə yerlə-yeksan edir, insan həyatını iz qoymadan aparırdı. Minaatanlardan çıxan sonsuz artilleriya atəşləri insan emosiyalarını hesaba almırdı. Müharibə insanın öz əlləri ilə fəlakət yaradırdı. Tankların davamlı uğultusu ilə raketlərin gurultulu səsi bütün canlılara iflicedici təsir edirdi.

Əllərində planşet olan dünənki oğlanlar müharibədə keçirdikləri bir gün ərzində hərbçi igidlərə çevrilmiş, Dağlıq Qarabağdakı qanlı döyüşlərdə hadisələrin bütün nəticələri onlardan asılı idi.

Azərbaycan əsgərlərini hərbi texnika və ləvazimatla yaxşı təchiz etmişdi, lakin ordunun hərbi təminatla davamlı olaraq təchiz olunmasına baxmayaraq, daimi partlayışlar və əsgərlərin yerdəyişməsi çoxlarını əliboş qoyurdu.

Onların yuxusu fasiləli, nizamsız və ağrılı idi.

Birinin yataq torbası var idi, biri oturarkən yuxuya gedirdi, biri də əlləri ilə kiçik bir çuxur qazır və gecəni orada yatırdı. Deşik çadır "cah-cəlal" hesab edilirdi. Kim harada gəldi yatırdı... Yağış, şaxta, qırov və şeh öz işini görürdü. Gecə payız torpağı əsgərlərin bütün istisini çəkərək sağlamlıq və gücünü aparırdı. Bütün bədənlərini bürümüş üşütmə onları əldən salırdı. Yalnız vətən sevgisi onları yenidən ayağa qalxmağa, bundan sonra da Vətən uğrunda mübarizə aparmağa məcbur edirdi!

Hər kəsin yeməyi də fərqli idi... Obyektlərimizi hədəfə alan düşmən çox vaxt hamını naharsız qoyurdu, çoxları əlləri ilə soyuq yemək yeməli olurdular.

Düşmənlərdən geri aldığımız rayonlar öz baxımsızlığı və yoxsulluğu ilə hamını heyrətləndirirdi...

Bir inək tapıb kabab çəkmək şansı nadir və demək olar ki, real deyildi.

Ermənistan hakimiyyəti torpaqlarımızı bərbad vəziyyətdə, sevgisiz, diqqətsiz saxlayıb.

Erməni gənclərinə yalançı "Artsax" məhəbbəti aşılayaraq, torpaqlarımızı qazanc kimi istifadə etmişdilər. Bu lənətə gəlmiş müharibədə otuz illik "təxribatlara" görə Ermənistan bunda maraqlı olan ölkələrdən maliyyə alırdı. Çoxları Qarabağ müharibəsi hesabına, silah və hərbi texnika satmaqla xəzinəsini doldurmaq istəyirdi. Düşmən siyasətçilər əsgərlərimizin ölümündə öz siyasi statuslarını qaldırmaq istəyirdilər. Ermənistan rəhbərliyi milyardlıq vəsaitləri müharibənin hesabına yazır və mənimsəyir, erməni övladlarına aman verməyərək, öz erməni xalqını daima axmaq yerinə qoyurdu. Ermənilər münbit torpaqlarımızı hərbi poliqona çevirmişdilər...

Bu müharibə ermənilərə böyük dərs verdi. Onlar öz yalanları və davamlı təxribatları ilə artıq rus əsgərlərinin arxasında gizlənə bilməyəcəklər.





Bu müharibə göstərdi ki, Ermənistanın siyasi arenada heç bir üstünlüyü və statusu yoxdur! Onu sadəcə kəmağıl uşaq kimi istifadə edirlər...

Dünyanın hər yerindən Qarabağ münaqişəsində iştirak etmək üçün gələn erməni silahlıları aşağıdakı problemlərlə üzləşiblər: Dağlıq Qarabağda təchizatla, komandanlığın diqqətsizliyi, texniki vasitələrin olmaması, bölmələr arasında hərəkətlərin uyğunsuzluğu və səngər həyatının digər problemləri. Münaqişə iştirakçılarının dediklərinə görə, bir çox bölmələr heç yarımçıq da olsa komplektasiya edilməmişdir və bu da bir çox cəhətdən onların uğursuzluğunun səbəblərindən biri idi. Ermənistan bütün dünyaya yalan danışıb, bütün ölkələrdən dalbadal kömək istəyirdi.

Hərbi əməliyyatlarda ermənilərin tərəfində dünyadakı bütün erməni diasporunun nümayəndələrindən ibarət könüllülər dəstəsi iştirak edirdi. Suriya, Livan, İraq, Fransadan olan ermənilərin münaqişədə iştirakı məlumdur.

Belə gedişlə sözdə "böyük Ermənistan" gec-tez yer üzündən yox ola bilər... Ölkə "fırıldaqçı və satqın" olmamalıdır, ölkə öz xalqını sevməlidir!

Biz azərbaycanlılar Prezidentimiz İlham Əliyevə minnətdarıq ki, Qarabağ günəşini bizə qaytardı!

Bütün Azərbaycan böyük Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyəyə köməyə görə təşəkkür edir! Biz bir və məğlubedilməzik!

Atəşkəsdə vasitəçiliyə görə Rusiya Federasiyasına təşəkkür edirik.

Ən əsası isə: bütün Azərbaycan xalqı diz çökərək öz azad döyüşçülərinə minnətdarlığını bildirir!

Dağlıq Qarabağ – Azərbaycandır!

Əlihüseynin dəfnindən bir ay keçmişdi.

Arzu dayanmadan yastığa ağlayırdı. Uşaqları və ərini oyatmamaq üçün qadın hıçqırıqlarını boğmağa çalışırdı. İtkinin acısı keçmirdi, əksinə, gündən-günə daha da artırdı. O, oğlunun "ölümü"nün təfərrüatlarını öyrənmək istəyirdi, lakin o zaman komandir ona telefonla məlumat verəndə dedi:

– Ana, əgər mən sağ qalsam, gələcəm və mütləq sizə övladınız haqqında danışacağam, o doğma torpağını müdafiə edərkən qəhrəman kimi şəhid oldu!

Bədbəxt ana, günləri sayarkən, çox düşünürdü...

"Bu gün 2020-ci ilin noyabrın 10-dur, mənim balam isə artıq yoxdur! Ciyərparam, "toppuşum" getdi...

Ölürəm mən, dözmürəm artıq! Gərək onu saxlayaydım...

Yox! Hər şey düzdür! Mən düz hərəkət etdim: oğlum Vətənini, xalqını qoruyurdu...

Bundan sonra necə yaşayım? Bundan sonra nə edim? Bundan sonra nə üçün yaşayım? Bacarmıraaam!!!"

Küçədə maşınların qulaqbatırıcı siqnalları eşidilirdi. Arzu mətbəxin pəncərəsinə tərəf getdi.

İşıqlı şəhər rəngli fənərlərin nuruna boyanmışdı, maşınlar dəstə ilə gedir, uzun küçəni doldururdu. Azərbaycan və Türkiyə bayraqları küləkdə dalğalanırdı. Komendant saatına baxmayaraq, hamı sevinir, qışqırır, öpüşürdü. Qələbə atəşfəşanlığı gecə səmasını rəngləyirdi.

Kədər və sevinc göz yaşları ananı boğurdu, yazıq qadın pəncərədən uzaqlaşdı. Onun baxışları küncdə dayanmış paltaryuyan tozuna sataşdı... Onu yayda qənaətcil oğlu Alik almışdı. O vaxt o, iki böyük bağlama gətirmişdi, çünki evdə toz çoxdan qurtarmışdı. Dərddən beli bükülmüş ana hönkür-hönkür ağladı.





Balasını itirən ananın hönkürtüsü onun ürəyini parçalayırdı.

– Oğlum, biz qalib olduq! Burada sənin də qanın var! Qoy dünyada analar heç vaxt oğullarını itirməsin, heç vaxt! – şəkildən ona gülən balasına baxaraq dedi.

Əlihüseynin gözləri sevinclə deyirdi:

– Fikir eləmə, ana, biz zəfər çaldıq! Qarabağ bizimdir, və biz onu heç vaxt verməri̇k!

Arzu kədərlə gözlərini aşağı salıb yerdə kitabdan bir kağız parçasının düşdüyünü gördü. Orada Əlinin xətti ilə yazılmışdır: *"Xəyalını qurduğun xoşbəxtliyə bir gün bu kəpənək kimi uçaraq qovuşarsan inşallah".*

**Şəhid Əlihüseyn anası Arzu xanımın xatirələrində...**

## Qəbul imtahanı həyəcanı

Qəbul imtahanı günü hamımız həyəcanlı idik. Alik məni onunla getməyə qoymadı. Nə qədər cəhd etsəm də "Uşağam, ana, dalımca gəlirsən? Bu istidə otur evdə, atayla gedirəm", – deyə təkid etdi. İmtahan günü onun ovqatını pozmaq istəmədim. Xeyirlə yola saldım. Ancaq çox narahat idim. Elə ürəyimdə düşünürdüm. Qapıdan keçən atasını görəndə inanmadım. Niyə tez gəldin həyəcanlı tərzdə soruşduqda: "Alik dedi, ata, mən içəri girməmiş get, gözləmə. Buradan özüm gələcəm."Elə bil dünya başıma fırlandı. Qəbul imtahanı həyəcanlı olar, özünü pis hiss edər, narahatlıq olar, nəzarətçi çölə çıxarar.... ürəyimdə fikirləşmədiyim qalmadı. Vaxt da getmir. Saat 1,2,3 həyəcan artır. Telefon da yox. Xalaları gəldi. Alikdən səs yox..... Saat 16:00. Zəng edirəm müəllimlərə, onların da xəbəri yox. Evdə heç kəs danışmır. Elə ki telefon zəng çaldı, hamımız eyni anda telefona tərəf atıldıq.

– Alo.

– Bəli, Həşim müəllim.

– Arzu müəllimə, Alik yanımdadır. Yoxladıq, 21 düz cavab yazıb, ancaq daha çox gözləyirdim ondan.

Bunu demişdi ki, otağı sevinc səsləri bürüdü. İndi siz təsəvvür edin o anı...

Ən vacib günlərdən birində məni gözlətməyi əziyyət bilən Alik... Haradasan? Sən bu ürəyin sahibi idin. Sən bu cəsarətin yiyəsi idin. Sən mənim xəyalımda qurduğum, gələcəyin özünü təsdiqləmiş oğulu idin.

## Yamaqlı şalvar

Şalvarı süzülmüşdü. Dedim ki, salvarı dəyişmək lazımdır, sifariş edək gətirsinlər.

"Lazim deyil, ana, onsuz da əsgərliyə gedəcəm. Gələndən sonra alaram", – dedi.

İsrar edəndə dedi ki, gələndə bilmirəm ki, əynimə gələr, ya gəlməz. Yenə etiraz etdim. Səhər evdən çıxdı, bir az keçmis içəri girdi. "Şalvarıma yamaq saldırdım" , – deyərək güldü.

Daxilimdən elə bil cərəyan keçdi. "Yəni mənim bir şalvar almağa gücüm çatmır ki, oğlum yamaqlı geyinir?", - düşünərək çox pis oldum. Mənim bu vəziyyətimi görən oğlum: "Ana, niyə pis olursan ki, satışda olan şalvarlar da yamaqlıdır da", - dedi.

"İndiki dövrdə yamaq saldırmaq? Özü də ADNSU məzunu? Bakıda yaşayan oğlan? Özü maaş alan, 21-ci əsrin uşağı" fikirləri məni uzağa apardı. Nitqim qurumuşdu. Heç nə deyə bilmədim...

## Xərci çoxdur

Universitetə və işə getdiyindən yollarda vaxtı çox gedirdi. Bu da məni narahat edirdi.

"Alik, oxu sürücülük vəsiqəsi al, sənə bir maşın alaq. Yollarda yorulursan", - dedim.

Razılaşdı. Bir müddət sonra maraqlandıqda: "Ana, maşın lazım deyil, xərci çoxdur . Benzin, yağ ... Həm də 30 qəpik verib, avtobusun arxa yerində otururam, həm kitaba baxıram, həm telefona. Ehtiyac yoxdur", - demişdi.

Sən bunu da istəmədin. İndi bütün bu olanları xatırlayıb için-için yanıram.

Kaş səni işləməyə qoymazdım... Kaş sənin cibinə xərclik qoyardım... Kaş sənin başqa gənclər kimi keflə yaşamağını təmin edərdim.

Bilsəydim ki, 22-ci ilinin payızında əbədi bizimlə sağollaşacaqsan. İndi sənin bu kimi zəhmətlərin məni hey yandırır. Mən səni həyata hazırlayarkən, aldı qopardı məndən...

Sən mənim keçmişim, bu günüm, gələcəyim idin!

## Gəldin, amma.....

Artıq 4-cü kursun mart ayı idi. Pandemiya başlamışdı. İş rejimindən hamı ayrılmış vəziyyətdə evdə oturmuşdu. Mənim də, Alikin də işi bağlanmışdı. Günümüz evdə keçirdi. Əslində, bu vəziyyət çox çətin idi. Amma günlər bir-birini əvəz etdikcə elə bil sevinirdim. Çünki mən oğlumla heç vaxt





bu qədər yaxın olmamışdım. Səhər isə get, gəl, sonra ev işləri, Ruhaya vaxt ayırma, Alikin də işləyib oxuması bizi bir-birimizdən ayırırdı. Hətta yay aylarında birlikdə istirahətə gedək deyəndə: "Ana, işləyirəm, gedə bilmərəm", - deyirdi. Çox pis olurdum, amma sevinirdim də. İşlədikcə dəyişirdi, formalaşırdı, həyatın əsl üzünü görürdü, çətinliyə öyrəşirdi, həm də pis vərdişlərdən, indiki dövrün mənfiliklərindən uzaq olurdu.

Birinci kursda oxuyanda, indiki kimi yadımdadır, xalçanı bükdüm, dedim, gəl, bunu götür o biri evə apar. Heç nə demədən gəlib götürəndə xalçanı qaldırmağı ilə düşməyi bir oldu. Qəhqəhə çəkib gülsəm də, öz-özümə məəttəl qaldım ki, bu boyda uşaq bir xalçanı götürə bilmədi.

Birinci kursun axırı idi. Kəsirləri olduğunu dedi, əsəbləşdim, deyindim ki, niyə? Kirayədə qalmırsan, işləmirsən, ailə saxlamırsan, tək işin oxumaqdır. Niyə olsun ki kəsirin, mən sənə kredit pulu verən deyiləm. Ya dərsini oxu kəsirin olmasın, ya da işlə kreditlərini bağla. Bu sözlərdən sonra heç nə demədi. Bir anlıq üzümə diqqətlə baxıb, çəkilib otağına getdi. Çox danışan deyildi, ayrıca dünyası vardı. Onun bu dinməzliyi məni narahat edirdi. Həmin yayı gəldi ki, "ana, iş tapmışam". Marketdə fəhlə işləyəcəm. Bunu eşidəndə narahat olmadım, dedim "lap yaxşı, işlə".

Yay vaxtı idi. Evə gec gəlirdi. Qapıdan girəndə dedim, "ay bala, sən niyə gec gəlirsən?". "Bu nə həyatdır ki, adama 7 saat deyib 9 saat işlədirlər, maaşı da az" deyib gileylənərək, əllərini yuyub süfrə başında çox yorğun, qocalmış adam kimi oturdu. Onun bu görkəmi ürəyimi sızlatsa da, yadıma xalça düşdü, amma özümü büruzə vermədim. "Həyat belədir də, özünə yer tutmasan, həmişə kölə kimi olursan", - dedim.

İlk maaşını alanda zəng etdi ki, "evə nəsə lazımdır?" Elə sevindim ki....

Durub uşaqlara kətə bişirmək istədim. Sobanı çıxarmaq üçün Aliki köməyə çağırdım. Gəlib bir stəkanı götürən kimi götürdü qoydu yerə. Yenə xalça yadıma düşdü. Baxışlarımı anlayıb "un kisələrindən sonra bu quş kimi gəlir mənə", - dedi. Mən də "gördüm, bala, gördüm", - dedim.

Həqiqətdə də, elə idi. Demək, zaman və məkan artıq onu cilalayırdı. Bir gün dedi ki, "ana, işimi dəyişəcəm, ancaq fəhlə yox, anbar işini də, rəf işini də bilirəm, kassaya istəyirəm, görüm alınır"...

Səhər universitetə, günorta işə gedirdi. Mən də işdən gələn kimi qızım Ruhəngizi məşğələlərə aparırdım. Elə gün olurdu ki, heç bir-birimizi düz-əməlli görmürdük. Bu məni çox incidirdi. Boş vaxtımız üst-üstə düşmürdü. Ana bala kimi yaxın ola bilmirdik.

Bir gün dedi ki, "ana, kassaya keçdim, amma günortadan sonra "part-taym" işləyəcəm, hələ təzəyəm, öyrənirəm. Yaxşıdır, rahatdır".

Günlər sürətlə uçurdu.

Soruşurdum "universitet, işin necədir, çatdırırsan?" "Yaxşıdır", - deyirdi, gileylənmirdi. "Kassada dəqiq işləyirəm, səhvim olmur, düz çıxır hesabım. Müdirim dedi ki, yerimi dəyişsəm, səni də özümlə aparacam".

Demək, bu sahədə həm dəqiq idi, həm də etibar qazanmışdı. Yenə də sevinirdim... Pisliklərdən, pis vərdişlərdən uzaq olurdu. Bu məni rahatlatsa da onun tələbəlik və gənclik illərinin belə keçməsinə də heyifsilənirdim...Ancaq gözümün önünə keşməkeşli həyatı gətirəndə özümdə təskinlik tapırdım.

Nəhayət, işinə olan məsuliyyəti rəhbərlik tərəfindən bəyənilir və universitet ilə işinin uzlaşmamasına baxmayaraq, ona bütün kassanı həvalə edirlər. Bu da bir uğur.

Şükür Allaha, - dedim, xırda-xırda addımlarla irəliləyir.

Sən demə, mən onu həyatın çətinliklərindən üzüağ çıxsın deyə hazırlayarkən taleyin başqa planları varmış...

Qonşunun oğlu hərbi xidmətini başa vurub evə gələndə rəhbərlik tərəfindən valideynlərinə təşəkkürnamə ilə gəlmişdi. Dedim gedəndə sən də "qramota" ilə gələrsən.

Demək, tale mənim həyatımın ən gözəl, qürurlu və kədərli, heç zaman unudulmayacaq bir səhifəsinə möhür vurmağa hazırlaşırmış.

Ən şərəfli "qramota" ilə gəldin.





Sən gəldin! Ən şərəfli "qramota" ilə! Ancaq əlində yox, üçrəngli bayrağa bükülərək gəldin!

Füzuli torpağını düşməndən təmizləyərkən qəlpə ilə parçalanmış ürəyinlə gəldin!

Sən öz tabutuna VƏTƏN sığdıraraq gəldin!

Yenə də gəldin... Sən nənənin doğum günündə əbədi olaraq torpağın köksünə verildin...

## Təftiş

Alikin kassir işlədiyi vaxt elə olur ki, problem yaranır. Rəhbərlik bir neçə işçinin işini təftişə göndərir. Bunların içində Alik də olur. Yoldaşları Aliki dəstəkləyir və ona inandıqlarını bildirirlər. 8 ay bir yerdə işlədiyi, salamdan başqa aralarında heç bir münasibət olmayan iş yoldaşı Günel də ondan dəstəyini əsirgəmir.

Təftiş bitir. Əlihüseynin bu işdə heç bir laqeydliyi və günahı olmadığı təsdiqlənir. O, Günelə dərin təşəkkürünü bildirir və bundan sonra aralarında möhkəm, saf dostluq başlayır .

Əsgərliyə getməmiş bir dostuna boyunbağı verərək deyir: "Mən sənə ad günündə verə bilmədiyim hədiyyəmi gətirmişəm. İki gündən sonra xidmətə yola düşürəm, birdən dönmərəm, mənim səndə xatirəm qalsın", - deyərək verdiyi qız elə bu Günel olur....

## Əlimdə...

Xidmətə gedəndə telefonunu təmizləyərək mənə verdi ki, "ana, sən işlət qayıdanda özümə yenisini alaram, nömrəmi də işlət, bağlanmasın". İndi onun telefonunu işlədirəm. Və enerjisi tükənəndə "hanı Alikin "adaptoru", Ruha, gətir, Alikin telefonunu tax", - deyərək səsləndirirəm.

Hər dəfə adını çəkməkdən sanki zövq alıram. Onun hələ də evimizdə olduğunu xatırladıram...

## Komissarlıqdan gələn zəng...

Əlimdə yeni çapdan çıxmış Əlihüseyn üçün yığılmış alboma baxaraq düşünürdüm. Maşındaydıq. Zəng gəldi, dəstəyi atası qaldırdı. Danışıqdan başa düşdüm ki, komissarlıqdandır.

Siması dəyişdi. Həyəcanlandı.

"Hə, bəli, hə, hə, yaxşı, sabah mütləq gələrəm", - dedikcə ürəyim çırpınırdı.

Düşündüm, görəsən, sağdır? Axı, atası görüb? Hə, yoldaşları da görüb, axı.

Ümid yeri axtarıb, özümdə qırıldım. Gözlərimdən axan yaş albomun üstünə yağış damlaları kimi düşərək səs salırdı. Zəng kəsildi. Nəsə soruşmağa taqətim belə yox idi. Qorxurdum cavabdan. Bir az keçmişdi ki, özümü toplayıb soruşdum.

- Ümid yeri axtardın hə?

Peşmanlıqla "hə" cavabını verdi. İçindən dərin bir ah çıxdı...

## Bilirsən niyə?

Bu illər ərzində sən həyatın çox çətinliklərinə sinə gərdin. Səni tək buraxdım. Bilirsən niyə? Çətinliklərin öhdəsindən gələsən deyə! Kimsənin qabağında boynubükük qalmayasan deyə! Hər maneəni aşma bacarığın olsun deyə! İnsanları, zamanı, həyatı dərk edəsən deyə! Sən bunları bacardın!

İndi sənin görünməyən varlığın özüm də bilmədən hər gün məni sənə yaxınlaşdırır.

Hər gün ürəyimin bir teli qırılır. Göz yaşları tellərlə əvəz olunur...

Daxilimdə yaranan boşluq məni məndən qoparır, Alik!

## Ayaqqabı

Son geydiyi ayaqqabıları 16 ay keçməsinə baxmayaraq, hələ də qapının ağzındadır. Onu oradan götürüb dolaba qoymuram. İşdən gələndə qapıdan içəri girən kimi gözüm onu





axtarır. Qəbul edə bimirəm yoxluğunu. Ayaqqabılarımı da çıxarıb, Alikin ayaqqabısının yanına qoyuram.

Bilmirəm, nə qədər belə olacaq. Ancaq onu bilirəm ki, nə qədər nəfəsim var, sənin ayaqqabıların mənim ayaqqabılarımla eyni yerdə duracaq...

Bu dolmuş gözlərim hər zaman səni axtaracaq.

## Aparın...

O zaman Şəkidə Şəhidlər xiyabanı olmadığından Əlihüseyni el qəbiristanlığında dəfn edirlər. Elə olur ki, sonralar şəhidlər gəldikcə "Dovşan düzü "adlanan el qəbiristanlığında ardıcıl olaraq dəfn edilirlər və xalq tərəfindən Şəhidlər xiyabanı yaradılır. Əlihüseynin döyüş yoldaşlarından ayrı düşməsi şəhid anası Arzu xanıma rahatlıq vermir. Gecə-gündüz fikir içində olur. Yerini dəyişməyə isə cürət etmir ki, onsuz da Əlihüseyn hər işdən agahdır, birdən yuxuma gəlib niyə məni narahat etdin, desə onda nə edərəm ?...- deyə düşünür.

Axı o da Vətən uğrunda canını verdi, burada olmalıdır...

Biz ölüb getsək, Alik unudulub tək qalar, onda heç özümə gələ bilmərəm....

Niyə elə olmalıdır..

Aliki xalq tanımalıdır, onun da yeri xiyabandır, axı...

Nə edim, necə edim, bilmirəm!

Günlər bir-birini əvəz etdikcə ananın gecəsi gündüzünə qarışırdı. Qərar verə bilmirdi. Elə olur ki, 20 Yanvar günü vətənə xidmət edən hərbçilər Şəhidlər xiyabanında onların keşiyində dayanırlar. Gördüyü mənzərə anaya çox pis təsir edir və nəhayət ki, 4 aydan sonra onu Şəhidlər xiyabanına köçürməyə qərar verir.

Bütün bu prosesləri yerinə yetirmək üçün təşkilati işləri xalasının əri Camal boynuna götürür. Alikin yeri Şəhidlər xiyabanında qazılan gecə Alik yuxuda Camalın qonağı olur və aralarında söhbət başlayır:

- Camal dayı, bilirsən burada məni kim qarşıladı?

– Kim?

– Fikrət dayı (Camalın atası, neçə illər bundan öncə dünyasını dəyişib).

– Bəs öz baban gəlmədi?

– Gəldi, bir az gec.

– Alik, səni döyüş yoldaşlarının yanına aparmaq istəyirik.

– Camal dayı, buradakı yerim də rahatdır. Ancaq aparsanız da pis olmaz, aparın...

Deməк, sən hər işdən agahsan, demək, bizim yanımızdasan.

Demək, məqamında – uca cənnət məkandasan!

Və səhər Aliki özünə yaraşan yerdə – Şəhidlər xiyabanında dəfn edirlər.

## Qonaqlarım var...

Şəhidlər xiyabanında dəfn edilən günü Alik xalası oğlunun yuxusuna girir, deyir:

– Taleh, qaqaş, mənim iki nəfər qonağım var, vağzaldadırlar, gəl gedək gətirək.

Bunu deyib, bir ata özü minir, birini də Talehə verir. Gedirlər. Qonaqları gətirmək istəyəndə icazə vermirlər. Alik qabağa keçərək: "Onlar mənim rütbəli qonaqlarımdır", – deyir. Bundan sonra qonaqların getməyinə icazə verirlər. Alik "Taleh, qaqaş, bəs iki atımız var, onları hara mindirək?" soruşduqda Taleh: "Gedək, onlara taksi yollayarıq", – deyə cavab verir . Və Alikin dəfn olunduğu Şəhidlər xiyabanında – elə Alikin düz solunda iki qəbir qazılır və iki şəhid dəfn olunur...

Həyat möcüzələrlə doludur. O dünya sirli bir aləmdir. İndi bu olanlar şəhidlərin ölməzliyindən, məkanlarının ucalığından, yaşamaqlarından xəbər verir...

Yerin cənnət olsun, oğlum... Bu dünyanın dada bilmədiyin gözəlliklərini Rəbbim o dünyada sənə nəsib etsin!





## Həsrət

... Mətbəxdə işlə məşğul idim. Ruha çiyinlərini mətbəxin divarlarına sürtə-sürtə gələrək dodağının altında eşidiləcək tərzdə: "Mən Aliki istəyirəm, mən Aliki istəyirəm", – deyərək mızıldandı. Əhəmiyyət vermədim, işimlə məşğul oldum.

Heç bir dəqiqə keçməmişdi ki, otağın qapısı çırpıldı, hönkürtü ilə ağlamaq səsi otağı bürüdü...

## Anama deyin

Bir müddət bundan qabaq Sumqayıta getmişdim. Təsadüfən Quran əhli olan qadınla görüşdüm. Qadın mənim şəhid anası olduğumu bilib özündən ixtiyarsız: "Oğlunun şəklini mənə göstərərsən", – deyib sözünə davam etdi:

– Məhərrəmlik ayında yuxuda gördüm ki, iki dəstədən ibarət insanlar var. Bir dəstə ağ geyimlidir, digəri isə 5-6 nəfərdən ibarət hərbi geyimli əsgərlərdir. Üzü nurlu, hərbi geyimli bir əsgər mənə dedi ki, anama deyin mən yaşayıram, yerim də rahatdır. Mən yaşlı adamam, bala, bilmədim bu uşağın anasını necə tapım? Sonra fikirləşdim ki, şəhidlərin şəkillərinə baxsam, görən, taparam? Sən üçüncü şəhid anasısan ki, qarşılaşıram, amma heç birinə deməmişəm ki, oğlunun şəklini mənə göstər. Elə bil, Allah bu sözü sənə dedizdirdi.

Mən onu dinləyə-dinləyə Alikin şəklini ona göstərdim. O, diqqətlə baxaraq: "Başqasını da göstər", – dedi. Göstərdim. Bir anlıq duruxaraq gözlərimin içinə baxaraq dedi: "Odur!". Daxilimdən elə bil cərəyan keçdi. Bilmədim bu nə idi. Sevinim, ya kədərlənim. Ruhum sanki çıxırdı. Gözlərim doldu.

Bir anlıq nə edəcəyimi bilmədim. Oturduğum yerdən qalxıb yenə oturdum... "Yaşayırsan... Yaşayırsan..." – dolmuş gözlərimi silərək dodağımın altında pıçıldadım.

Amma mən sənə həsrətəm, həsrət, Alik!

Demək, sən sənə necə həsrət çəkdiyimi hiss edirsən...

## Əlimi yandıran diplom

Əsgərliyə getməmiş atasının adına etibarnamə verdi ki, diplomunu götürsün. Və mənə dönə-dönə tapşırdı ki, ana, Sima müəllimə ilə əlaqə saxla, hazır olan kimi götür. Ancaq mütləq diplomumu götürəndə Sima müəlliməyə şirinlik də verərsən. "Nə verim? Nə verməyimi istəyirsən? Hədiyyə, şokolad?" – soruşdum. Yenə də üzümə diqqətlə baxaraq dedi: "Özün bil, ay ana..."

Sən bu məqamda da dinmədin. Susmağının səbəbini isə gözlərindən oxudum.

Diplomunu götürdüm. Ancaq onu sən görmədin. Zəhmətinlə qazandığın diplomu görmədin.

Diplomunu mənə təqdim edəndə hönkürtü ilə ağladığım heç yadımdan çıxmır. Sima müəllimə şirinliyini verəndə götürmədi. Dedim: "Mən Əlihüseynin vəsiyyətini yerinə yetirirəm". Götürmək əvəzinə mənə sarılaraq: "O mənim ən sevimli tələbəm idi, – deyərək ağladı və dedi:

– Siz fəxr edin ki, Əlihüseyn kimi oğulun anasısınız. Buna görə möhkəm olun!"

Sənin gecələr yuxusuz qalaraq, oxuyaraq qazandığın diplomunu qəbrinin üstünə qoyaraq dedim: "Oğlum, gətirdim, ruhun göylərdə pərvaz edir, görsün. Ancaq Sima müəllimə şirinliyini qəbul etmədi. Məni bağışla, bala...."

Abidə daşı hazırlananda diplomunu abidənin üstünə həkk etdirdim ki, daim sənə yoldaş olsun. İndi sənin görmədiyin diplomun sənə yoldaşdır, Alik. Daim səninlədir. Hər dəfə diplomla bağlı söhbət düşəndə mən bu hissi yaşayıram. Bu sətirləri yaza-yaza belə ağlayıram, oğul....

## Arzu bank

Özünə çox inamı vardı. Güvənirdi özünə. Böyük arzuları var idi. İnanırdı ki, onda alınacaq. Hətta bir dəfə açıqlanıb demişdim ki, 22 yaşın var, ancaq özünü 62 ,72 ,82 yaşında insan kimi aparırsan, elə bil ki, dünyanı görmüsən.

Deyirdi ki, "ana, az qalıb, səbir et, görəcəksən, gör, sənin oğlun necə oğul olacaq".





Görəcəyi işləri sadalayırdı. "Bəs, Alik, bunları etməyə pul lazımdır, haradan olacaq?" – soruşanda gülərək: "Arzu bank"dan" cavabını vermişdi.

İndi, oğlum, sənin o "Arzu bank" dediyin yolunu gözləyir... Dönüşü və görüşü olmayan yolda olduğunu bilərək yenə də gözləyir, həmişə də gözləyəcək...

# Şəhid Əlihüseyn haqda xatirələr...

## Bir oğul itirdim

Zəng gəldi ki, Əlihüseyn yaralıdır. Elə bil dondum, ancaq özümü tez toplayıb Füzuliyə getməyə hazırlaşdım. Yol boyu sürücüyə: "Tez sür, belə sür, düş, mən sürüm", – deyirdim. Yol elə bil uzanırdı. Anası tez-tez zəng edirdi. Danışdıqca ürəyim çıxırdı yerindən. Amma anasına təskinlik verirdim. Çatdıq. Maşından düşəndə çoxlu sayda qurulmuş çadırları görəndə belim qırıldı. Addım atmağa taqətim yox idi. Qoluma girərək başqa tərəfə apardılar. İçəri girəndə yerdə üzü örtülmüş neçə şəhidin olduğunu gördüm. "Bax, gör hansıdır?" – deyəndə isə dizlərim büküldü. Heç nə eşitmək istəmirdim. Cürət edib heç birinin üzünü aça bilmirdim. Qorxurdum görəcəyimdən. Bir ata, axı, bunu necə edə bilər? Dəfələrlə: "Sakitcə özünü topla, bax, gör burdadır?" – soruşurdular. Baxmaq o qədər çətin idi ki... Hər dəfə bir ağı açanda qorxurdum, görəndə o deyil, rahatlıq tapırdım. Bu dəfə isə başqa.

Gözlərim qaraldı. Çökdüm. Çiynimdən bir əl yapışaraq məni silkələdi, asta səslə soruşdu:"Oğlundur?" Cavab verə bilmədim, üzünü örtdüm. Çölə çıxdım. Üzümə neçə göz dirənmişdi. Səssiz baxışlarla cavab gözləyirdilər. Atışma səsindən qulaq tutulurdu. Göydə güllələr ulduz kimi parlayırdı. Havadan barıt qoxusu gəlirdi. Var-gəl edirdim. "Axşama doğru gedir, qalmaq qorxuludur", – dedilər.

Yenidən içəri girib üzünə diqqətlə baxdım, bir bəhanə axtarırdım ki, Alikin üzündə xalı var, bunda yoxdur, – deyəm bircə bəhanə ki, o deyil... Duruxdum. Üzünü saqqal basmışdı, sanki yatmışdı, təbəssümlü idi çöhrəsi. Saçı bir az uzanmışdı.Titrək əlimlə saçını sığalladım, üzünə barmaqlarımın ucu ilə toxundum. Təbəssümlü üzünü son dəfə görürdüm. Bədəni böyümüşdü, əzələləri bərkimişdi. Üç ayda mənim oğlum kişi olmuşdu. Bu gözəllikdə balamı necə torpağa verim axı mən... Necə deyim ki, "mənim oğlumdur"...

***

"30 dəqiqədir səndən cavab gözləyirik. Hava qaralmamış çıxmalıyıq, nə deyirsən, Elşad?" sözləri qulağımda cingildədi. Çox çətinliklə, boğuq səslə: "Götürün", – dedim.

Anasına nə cavab verəcəyimi bilmirdim...

Ataş səslərindən qulaq tutulurdu. Maşınların işıqları sönmüş halda yola düzəldik. Telefonun zənginə fikirdən ayrıldım. Vəziyyəti bildirəndə anası qışqıraraq "baxmısan, görmüsən, odur, Alikdir? Yaxşı bax, Elşad", – deyərək dəfələrlə təkrar edirdi...

Necə ağır idi. Rəbbim heç bir valideynə bu acını yaşatmasın. Mən oğlumun çiynində gedəsi, o mənim çiynimdə getdi. Özü də necə oğul!

... Çətindir. Hisslərimi daxilimdə yaşayıram. Həyat mənim üçün mənasızlaşdı... Ancaq son gördüyüm siması heç gözümün qabağından getmir. Üzü təbəssümlü pəhləvan kimi bir oğul!

## Heç kəsə verməsin...

Xatirə lövhəsinin açılışı qurtaranda sərgisində olan əşyaları evə daşınır. Xalası Alikin şərfini əlinə götürərək qoxusunu ciyərlərinə çəkir: "Arzu versəydi, aparardım", – deyə düşünür. Ancaq bunu deməyə cürət etmir.

Gecə Alik onun yuxusuna girərək: "Xala, anama de, paltarlarımı heç kəsə verməsin", – deyir. Səhər olanları bacısına danışan Kifayət gözləri dolmuş halda: "Görürsən, Arzu, Alikin hər şeydən xəbəri var, o yaşayır", – deyərək yenidən şərfi götürüb hönkürtü ilə ağlayır...

## Yuxuda belə anasını əmanət edən Əlihüseyn

Səni ananın kədərindən, göz yaşlarından, gözündəki nisgildən, haqqında yazılan xatirələrdən tanıdım. Əslində, həyatda səni görmək qismətim olmamışdı. Lakin bir qəhrəman kimi tanımadan sevdim səni. Görünür, qəlbimdə elə bir yer tapmısan ki, həyatda olmasa belə yuxuda görüşdük.

Aylar sonra, ananın, ən nisgilli, ümidsiz anında mənim yuxuma qonaq gəldin. Çox qaşqabaqlı idin. Səninlə danışmağa cəhd etsəm də, küskün baxışlarla baxırdın mənə. Səbəbini soruşanda dedin ki, anam çox kədərlidir, qaşqabağı açılmır. Ona deyin ki, bu mənim xoşuma gəlmir. Onu belə görmək istəmirəm. O qədər canlı idin ki, yuxuda olduğumu anlamırdım. Ayılanda isə çox təəssüf etdim. Uzun müddət yuxunun təsirindən çıxa bilmədim.

Röyalarımdan anasına xəbər göndərən Əlihüseyn! Yerin cənnət olsun!

*Ananın rəfiqəsi Mətanət*

**Döyüş yoldaşı Nurlan:** Bölüyə gəldiyim gün hər kəslə qısa həmsöhbət oldum. Sıra Əlihüseynə gəldi, ilk söhbətindən, ali təhsilli, mədəni, dünyagörüşlü olduğu bəlli idi. Mən yenə də dəqiqləşdirmək istədim və daha yaxından tanımaq üçün suallarımı verdim. Mənə oxuduğu universitetdən, diplomunu hələ almadığından, işlədiyi yerdən, həyat tərzindən danışdı.

O, danışdıqca ortaq cəhətlərimizin sayı artırdı. Bir həftə sonra artıq sırada bir yerdə dayanırdıq, yeməyə bir yerdə gedirdik, boş vaxtlarda bir yerdə oturub, mülki həyatımızdan, planlarımızdan danışırdıq. Onun mülkidə gördüyü işləri, planları, ailəsinə tələbə ikən dəstək olması məndə də həvəs yaradırdı. Çox soyuqqanlı sakit tanıtmışdı özünü kənardan. Heç kim bilməzdi duyğularını ta ki, özü danışmayana qədər.

Bir gün başqa hərbi hissəyə getməli olduğum barədə xəbər aldım. Bəlkə, ilk gün olsaydı sevindirərdi bu xəbər məni, ancaq Əlihüseynə o qədər öyrəşmişdim ki, onun kimi əsgər yoldaşını itirmək ehtimalım var idi. Orada qalmağımın ən başlıca səbəbi oldu. Şanslı sayırdım özümü. Getmədim. Və günlər keçdikcə bu qərarımdan bir gün belə peşman olmadım. Həmçinin onda mülkidə mənə ən yaxın olan dostumu tapmışdım. Ev ilə hər danışanda onlara: "Burada birini tapmışam, mənə dostum Dənizi xatırladır, adı da Əlihüseyndir", – deyirdim. Bir gün biz təzə gələnlərə əsgərin vəzifə borcu yazılan kağızlar paylandı və 3 gün ərzində əzbərlənib danışılması deyildi. 3 gündən sonra onu təkcə Əlihüseyn əzbərləyə bilmişdi. Güclü yaddaşı və ciddi məsuliyyəti örnək götürülməli idi.

***

Biz artıq Füzulidə neçə düşmən postunu alaraq irəliləyirdik. Şəraitə görə ailəmizlə əlaqə saxlamaq xeyli çətinləşmişdi. O mühitdə tək dəstək ana, ata, bacı, qardaş səsi eşitmək idi.

Elə həftə olurdu ki, heç kim ailəsi ilə danışa bilmirdi. Bir gün aşağıdan xəbər gəldi. Bizim batareyaya ehtiyatdan gələn baş leytenant telefonu ilə əsgərləri danışdırırdı. Əsgərlərlə olan səmimiyyətinə görə biz ona "dayı" deyirdik. Vaxt məhdud olduğundan ən çox 3 dəqiqə danışa bilirdik. Mən söhbətimi bitirdikdən sonra qaçaraq Əlihüseyni çağırdım. Çünki son vaxtlarda ailəsi üçün, ən çox da anasından ötrü darıxdığını dilə gətirərdi. O, danışanda mən də yanında idim. Həyəcanını hiss edirdim kənardan. Telefonu söndürdükdən sonra elə bil kefi daha çox pozuldu. Səbəbini soruşdum. Bacısı və qardaşı ilə danışa bilmədiyini, uzaqdan bacısının səsini eşitdiyini dedi və kövrəldi.

Keçdik səngərdə oturduq, onu sakitləşdirməyə başladım. Qoydu başını dizimə, mən heç nə soruşmadan başladı ailəsindən danışmağa. Bacısının və qardaşının vəziyyətindən, sevdiyindən, ailəsinin tək ümidinin o olduğundan və s. danışdı. Buradan sağ çıxmağa məcburmuş kimi danışdı. Məndən mahnı oxumağımı istədi. "Uzaqdan" adlı sevdiyi bir mahnı var idi, onu oxudum. Doluxsundu. Mahnı çox da kədərli deyildi, amma dediyinə görə onda xatirəsi var idi.

Əlihüseyn ancaq mənlə danışanda sakitləşirdi. Bunu özü deyirdi mənə. Çünki ona gələcəklə bağlı ümidlər verirdim. Bu cür xəyallar məni də sakitləşdirirdi.

... Qabaqda olduğumuzdan bəzən təminat gecikirdi. Ona bir az da səbir edək bir neçə aydan sonra anamızın bişirdiyi yeməkləri yeyərik dediyim an gəldi gözümün önünə.

***

Yenə soyuq, darıxdırıcı bir gecə idi. Həmin gecəni başqalarından fərqləndirən, dünənki yağışdan qalan nəm torpaq idi. Həmişəki kimi yenə bir yerdə yatdıq. Buşlatımızdan birini altımıza, birini isə üstümüzə sərdik. Buna baxmayaraq, hələ də soyuq idi. Saat 4– 5 arası idi. Günə sübh tezdən başlamışdıq. Mərmilər daşınmalı, təminat gətirilməli və yeni səngər üçün işlər görülməli idi. Eyni vaxtda oyandıq. Əlihüseyn narazı idi, gecə yata bilmədiyindən, yuxusuz qaldığından gileylənirdi.

Mən güldüm, "əsas sənin xorultundan biz yatmamışıq" dedim. Gülümsədi. O gün hər bir işi bir yerdə gördük. Mərmiləri





daşıdıq, sonra təminatı götürməyə getdik. Üç kisə çörəkarası və başqa ərzaqları götürüb qayıtdıq. Yerləşdiyimiz yerə çatana yaxın öz payımız olan 2 çörəkarasını çıxarıb qayıdıb rahat yeyə bilək deyə otun içinə qoydum. Sonra mən ondan ayrılıb kömək üçün başqa əsgər yoldaşlarımın yanına getdim. Əlihüseyn uzaqdan mənə "gəlirsən?" deyə səsləndi. Mən isə ona: "Payını yanındakı kolun içinə qoymuşam, götür, get, gələcəm", - deyərək qışqırdım.

Bu, Əlihüseynlə son danışığım oldu...

***

Bir az keçmişdi ki , ard-arda mərmi səsləri eşidildi. Üstündən yarım saat keçməmişdi ki, həyəcan siqnalı verildi. Hər kəs öz sığınacağına qaçdı. Mən qapıya çatanda Əlihüseyn həmişəki yerində, girəcəkdə oturmuşdu. Dar və işıqsız yerdə ürəyi sıxıldığından bura onun yeri idi.

O gün 10 gündə heç olmamış hadisələr baş verdi. O sığınacaqda yeni gələn könüllülər də var idi. Mən təəccübləndim, uşaqlardan bir az dikəlməklərini və mənə də yer etmələrini istədim. İçəridən gələn narazılıqlara görə qapıdan qayıdıb, həmin səngərdən 10 metr məsafədə qurulmuş KMP məntəqəsinə girdim. Yorğunluqdan oturduğum yerdə yatmışam.

Çox keçmədi ki, mərmi səsinə oyandım. Oktyabr ayının 9-u, saat 09:22. Hər yer duman idi. Qışqırıq səsləri ətrafı bürümüşdü. Yuxudan fərqi yox idi. Bizi hadisə yerindən uzaqlaşdırdılar. Ağlayaraq gələn MAXE Əlihüseynlə bərabər 6 şəhid verdiyimiz xəbərini deyəndə inana bilmirdim, ta ki komandirimiz rabitəylə məlumatı ötürənə kimi. Özümdən ixtiyarsız əyilərək, gözlərimi torpağa zilləyib, dırnaqlarımla torpağı qazmağa başladım. Beynim donmuşdu. Necə yəni? 6 nəfər şəhid! Əlihüseyn də!

***

Əsgərlərdən biri Əlihüseynə aid baş geyimini gətirəndə baş geyimini öpərək ağladım. Üzərində qəlpə izləri və adı, soyadı yazılmış isimliyi var idi. İsimliyi yanımda daşımaq üçün baş geyimindən qopartdım, həm də ailəsinə çatdırmaq istəyirdim. 44 günlük müharibədə sona qədər qoruya bilmədim onu. Kolonla Qubadlıya getdiyimiz gün maşınımız xarab oldu. Tez-tə-

ləsik maşından düşdüyümüz üçün içərisində Əlihüseynin "pilka"sı olan çantam maşında qaldı. Bu mənə daha çox təsir etdi. Ondan qalan son yadigarı ailəsinə çatdıra bilmədiyim üçün özümü həmişə günahkar sayıram.

Nə qədər vaxt keçməsinə baxmayaraq, Əlihüseyni hələ də gözüm axtarır. Xatirələrim məni hey onunla danışdırır. Söz vermişdik ki, ailəvi dost olaq. Mən sözümü tutdum. Ailəsi ilə tanış oldum. Elşad dayı ilə görüşdüm. Səbirli, sakit təbiətli biri idi. Arzu ana ilə səmimi söhbətimiz oldu. Fərqli bir insan, duyğularını gizlədən ana, səni başa düşən, hər bir mövzunu paylaşa biləcəyin bir ziyalı olduğunu gördüm və Əlihüseynin niyə anasına çox bağlılığının səbəbini anladım. Bacısı Ruhəngizlə də görüşdüm. Ancaq ONSUZ...

**Şəki şəhər 18 nömrəli məktəbin ibtidai sinif müəllimi Azadə Abdullayeva:** 2005-ci il sentyabrın 15-i birinci sinfi qəbul edirdim. Həmin birincilər arasında nənəsinə sıxılaraq ürkək baxışlarla mənə baxan, əlindəki gül dəstəsini möhkəm tutan, bəstəboy, qarayanız, şirin şagirdim Əlihüseyn haqqında xatirələri yada salmaq nə qədər çətin olsa da, o qədər şəreflidir. Boyu balaca olduğundan birinci partada əyləşdi. Ayaqları yerə çatmırdı. Ağ kostyumu ona xüsusi yaraşıq verirdi. Günlər bir-birini əvəz etdikcə Əlihüseyn mənə, sinif yoldaşlarına uyğunlaşdı. Sakit təbiətə malik, təmkinli, ağıllı şagird idi. Uşaq canı ilə lazımsız hərəkət etməz, üzünə söz gətirməzdi. Qəti özünü qabağa verən xasiyyəti yox idi. Heç vaxt əlini qaldırmazdı. Amma soruşanda görürdüm ki, cavabları qaneedicidir. Çalışqan idi. Dərsdən qalmazdı. Riyaziyyat fənninə marağı daha çox idi. Nənəsinə bağlı idi. Nənə böyük tənəffüsdə gəlib yoluxar və deyərdi: "Övladlarıma qarşı belə olmamışam. Nəvə, həqiqətən, şirin imiş".

Əlihüseynin çantası həmişə səliqə ilə yığılardı. Kitab və dəftərlərinin üzü cildli olardı. Gündəlik lazım olan dərs ləvazimatları yanında olardı. Təsadüfən nəsə yaddan çıxsa, baba və yaxud nənə tez gətirərdi. Yaxşı yadımdadır, diyirçəkli qələmi çantasında çox olardı. Hansısa uşaqda olmayanda tez çıxarıb verərdi. Son tikəsini hamı ilə paylaşardı. Təkcə Vətəndən, torpaqdan pay olmaz deyərdi. Vətənpərvər idi. Vətənə, torpağa





məhəbbəti sönməz idi. Hərdən sinifdə şeir müsabiqəsi keçirirdim. Əlihüseynin şeirləri həmişə Vətənə, torpağa aid olardı.

Məktəbi qurtardı. Ali məktəbə daxil oldu. Ali məktəbi bitirdikdən dərhal sonra Vətənə xidməti borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollandı. 3 ay sonra 27 sentyabr 2020-ci il tarixdə başlayan 44 günlük II Qarabağ müharibəsində bir çox döyüşlərdə fəal, qəhrəmancasına iştirak edərək Şəhidlik zirvəsinə ucaldı. Bitirdiyi ali məktəbin diplomunu görmək qismət olmadı... və diplomu Şəhidlik zirvəsinə yüksəldikdən sonra ailəsinə təqdim olundu. Sinifdə sakit, səssiz görünən ƏLİHÜSEYN bilməzdik ki, VƏTƏNİNİ canından üstün tutaraq ŞƏHİDLİK zirvəsinə ucalacaq. Qəlblərdə daim yaşayacaq. Həmişə ruhuna dualar oxunacaq, anılacaq. Dövlətimizin, elimizin, eləcə də mənim, sinif yoldaşlarının, bir sözlə doğma məktəbimizin FƏXRİNƏ çevriləcək.

RUHUN ŞAD OLSUN, əziz Şəhidimiz... Sən həmişə bizimləsən. Qəlbimizdə, ruhumuzda, ürəyimizdəsən. NUR içində yatasan əziz, ŞƏHİD balam, ƏLİHÜSEYN..........

Səninlə həmişə fəxr edəcəyəm, qürur duyacağam. Şagirdlərimə həmişə sənin qəhrəmanlığından, qorxmazlığından danışacağam. Şəhidlər ölməz, Vətən bölünməz. SƏNƏ və sənin timsalında bütün Şəhidlərimizə ALLAH RƏHMƏT ETSİN! UĞRUNDA canınızdan keçdiyiniz torpaqda rahat uyuyun. AMİN!

**Sinif rəbəri Aynur Səlimzadə:** Məmmədov Əlihüseyn Elşad oğlu Şəki şəhər 18 nömrəli tam orta məktəbi bitirib. Mən onun həm Azərbaycan dili müəllimi, həm də sinif rəhbəri olmuşam.Əlihüseyn sinifdə ən sakit şagird idi.Həmişə məktəbin nizam-intizam qaydalarına əməl edirdi. Çox vətənpərvər oğlan idi. Bir dəfə səhər dərsə gələndə gecikmişdi. İcazə alıb sinifə girdi. Heç dərsə gecikən deyildi, ona görə icazə verdim.

Dedi ki, heyif himni oxumağa çatmadım *(hər səhər sıra xəttində Azərbaycan Respublikasının Dövlət Himnini oxuyurduq)*. Yenidən himnimizi sinifdə oxuduq. Dərslərini əla oxumasa da, o qədər tərbiyəli və məsuliyyətli idi ki, bütün müəllimlər onu başqa şagirdlərə nümunə göstərirdi.

İllər keçdi. Artıq tələbə adı qazanmışdılar. Günlərin birində şagirdlərdən bir neçəsi məktəbə gəlmişdi. Əlihüseyn də onların arasında idi. Öz sinif otaqlarında oturub məktəb vaxtı başlarına gələn əhvalatı danışıb xeyli gülmüşdülər. Onun şəhid olması xəbərini eşidəndə bir an elə bildim ki həyat dondu. Həqiqətən, torpaq yaxşıları seçir. Çox heyif...

28 illik torpaq həsrətinə son qoyan şəhidlərimizin ruhu qarşısında baş əyir, bizə bu qələbəni yaşatdıqları üçün onlara Allahdan rəhmət diləyirik.

Şəhidlər ölməz, Vətən bölünməz! Qarabağ Azərbaycandır!

**Riyaziyyat müəllimi Xatirə Qədirova:** Əlihüseyn mənim sevimli şagirdlərimdən biri idi. Mən onu sinifdə hamıdan çox istəyirdim. Ona görə ki, o ağır təbiətli, sakit, mehriban, səmimi, yoldaşları ilə ünsiyyət yaratmağı bacaran bir şagird idi. O qədər də yüksək savadı olmasa da, öz çalışqanlığı, öz zəhməti hesabına ali məktəbə qəbul oldu. Mən bəzən nəyi isə bilmədikdə ona bir-iki dəfə izah edərdim. Sonra yenə bilmədikdə onu danlayardım. Amma o, sadəcə başını aşağı salıb utanardı.

O, öz iradəsi, əziyyəti hesabına riyaziyyatı öyrəndi və qarşısına qoyduğu məqsədə çatdı.

Onun ölümü məni çox kədərləndirdi. Mən onun ölümü ilə barışa bilmirdim. Yeganə təsəllim mənim əziz şagirdimin torpaqların uğrunda şəhid olmasıdır. Şəhidlər isə ölmür. Əziz şagirdimiz, sən bizim qəlbimizdə əbədi olaraq yaşayacaqsan.

Allah sənə rəhmət etsin.

**Sinif yoldaşı Murad Srafilov:** Erməni faşizmi üzərində hamılıqla Bəşəri Qələbə qazandıq. Beləliklə, 1990-cı ildən bəri itkilərimizin hədər olmadığını sübut etdik. Kimi od-alov içərisindən sağ-salamat qayıtdı, kimi bu Vətən, torpaq üçün canını fəda etdi.

Vətənpərvər qeyrətli, qorxmaz oğullarımız Vətəni canlarından üstün tutdular. Əsgərlərimiz düşməni ağır məğlubiyyətə uğratdı. Belə igidlərdən biri də məktəbimizin şəhid əsgəri Məmmədov Əlihüseyndir.





Əlihüseyn oxuduğu məktəb illərində sözün həqiqi mənasında çox tərbiyəli şagird olmuşdur. Sinif yoldaşları ilə də mehriban, müəllimlərinə qarşı çox hörmətli və nəzakətli olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADNSU-ya qəbul olunmuşdu. Universiteti bitirdikdən sonra ordu sıralarında xidmətə başlamışdı. Mənfur düşməni torpaqlarımızdan qovmaq üçün silaha sarıldı. Əsgərlərimiz düşməni ağır məğlubiyyətə uğratdı.

...Heç bir müharibə şəhidsiz olmur. Və məktəbimizin qeyrətli oğlu Əlihüseyn də şəhid oldu. Vətənimizi canından üstün tutdu. Xalqımız heç vaxt vətən naminə canını qurban vermiş şəhidlərini unutmayacaq!

Şəhidlər and yerimizdir!

**Xalası oğlu Nadir** onunla eyni ayda xidmətə yola düşmüşdü. Müxtəlif yerlərdə xidmət edirdilər. Nadir danışanda həmişə Əlihüseyni, Əlihüseyn də Nadiri soruşurdu. Müharibə başlayanda hər ikisi başqa-başqa istiqamətlərdə döyüşürdülər.

Bir gün Nadir anasına zəng edərək Əlinin şəhid olma xəbərini eşitdiyini ağlaya-ağlaya söyləyir. Ailəsi bunu ondan gizlətsə də, işin ortaya çıxdığını görən anası Aynur oğlundan bunu daha gizlədə bilmir. Bu xəbər Nadiri çox sarsıdır. O, xalası Arzuya zəng edərək: "Xala, Alik (ailədə "Alik" deyə çağırırdılar) şəhid olub, hə?", – deyərək hönkürtü ilə ağlayır. Nadirin döyüşdə olduğundan narahat olan xalası Alikin yaralı olduğunu söyləyir.

"Məni aldatmayın, mən düzünü bilirəm", – deyərək daha da yüksək səslə ağlamağa başlayır. Xalası onu nə qədər inandırmağa çalışsa da, bacarmır. Nadir xalasına deyə bilmədiyi sözləri zəng vuraraq anasına deyir: "Ana, xalama de ki, başını dik tutsun, Alik şərəfli yolda şəhid olub. Mən nəfəsim dayanana qədər döyüşəcəm. Mən xalama deyə bilmədim, ana, sən bunları xalama çatdır". Elə olur ki, Nadirgilin dəstələrinin yolu Hadrut tərəfə düşür. Nadir xalası oğlunun döyüşdüyü yerə *"Nadir Alik 055 Şəki ƏLİHÜSEYN"* sözlərini öz əlləri ilə yazaraq tarixin yaddaşına həkk edir. Xalası oğlunun şəhid olması onun döyüş əzmini artırsa da, daxilində yoxluğu onu üzür.

**Xalası qızı Gülnarə:** İl 1998, 24 yanvar. Xalamoğlu Əlihüseyn dünyaya gəldi. Əslində biz ona "Alik" deyirdik – adının qısa forması. Bəzən elə olurdu ki, onun öz adını belə yadımdan çıxarırdım. O qədər "Alik" deməyə alışmışdıq ki... Heç bilməzdim bu qədər şanslı olduğumu, belə xalası oğlu olan biri heç şanslı olmaz?

Dünənki kimi yadımdadır, onunla olan xatirələrimiz, uşaqlıqda keçirdiyimiz o gözəl günlər, bizi güldürdüyü günlər..... Bir də baxırdıq ki, Alik bizi çağırır: "Gülüş, Ruslan, gəlin bura, görün nə göstərəcəm". Biz gələndə də fərqli-fərqli hərəkətlər edib bizi güldürürdü, biz də deyirdik ki, "Alik yenə et də", o da heç bezmədən yenə edərdi.

Kaş o günlərə bir də qayıda bilsək, bilsəydik belə olacağını hər anımızı onunla keçirərdik...

Çox sakit idi. Heç bizə pis davranmazdı, nə də olsa, böyük qardaşımız sayılardı. Böyüdükcə bir az çəkinirdik danışmağa.

Biz də yanında uşaq. İndi onu mələklər aparıb, Vətən uğrunda döyüşlərdə mərdcəsinə şəhid olub. Alik şəhidlik zirvəsinə ucalıb. Bəzən elə olur düşünürəm ki, Alik yanımızdadır, bəzən də deyirəm ki, yox Alik yoxdur. Yoxluğuna alışmaq olmur, qəbul etmək istəmirəm. Amma o, həqiqətən də, yanımızdadır. Biz onu görməsək də, o hər an yanımızdadır, bilirəm. Bizi görür, danışmaq istəyir, amma biz görmürük. Alik, əgər eşidirsənsə bizi, çox darıxmışıq sənin üçün. Yuxularımıza gəl, o nur üzünü görək. Başımı dik tuturam həmişə, çünki şəhid bacısıyam mən də. Getdin bizi qorumaq üçün, amma biz səni qoruya bilmədik. Bağışla, Alik. Yerin cənnət, şəhadətin mübarək olsun, igid Qardaşım, sən həmişə ürəyimizdə yaşayacaqsan!

**Xalası qızı Aytən:** Bu oxuduğunuz hər hansı bir məqalə və ya məruzə deyil, bu " Vətəni sağaldan" qəhrəmanlardan birinə – xalam oğlu Əlihüseynə kiçik bir məktubdur.

Canımızdan bir parçamız. Bəzən səninlə bağlı o qədər içdən xəyallar qururam ki...

Əsgərlikdən gəlmisən, bizimlə eyni süfrə arxasında oturursan, deyib-gülüb dururuq süfrədən. Sonra sənə "nə vaxt tərpənirsən, ay Əlihüseyn?" – deyə zarafatla söz atırıq. Bunların





əlçatmaz olduğunu düşünəndə əlim ayağıma dolaşır. Çox sakit idi, eyni zamanda da səmimi, danışqan. Bu iki ziddiyyətli xasiyyəti necə də gözəl özündə cəm etmişdin. Çox zəhmətkeş, çalışqan və problemlərini gizlədən biri idi. İndiki kimi yadımdadır: Bir gün hal-əhval tutmaq üçün yazdım, dərslərini soruşdum. Dedi ki, 4 kəsirim var. Qalan hər şey yaxşıdır. Sağollaşdıq. Bir müddət sonra özü mənə yazdı ki, narahat olma. Kəsirlərimi vermişəm, sıxıntı yoxdur. Bir anlıq özümü günahkar hiss etdim ki, kaş yazıb soruşardım.

Şəhidlər qaranlıq yolumuza azadlıq məşəli yandıran ölməzlərdir. Əlihüseyn, bu məşəli tutanlardan biri olduğun üçün içimdə bir qürur hissi var. Ancaq sənin yoxluğunu düşünmək məni sarsıdır. Yanımızda, evimizdə cənnətlik gəzib, xəbərimiz olmayıbmış.

Ən əsası ondan əminəm ki, yerin rahat, ruhun şaddır. Bax, bax dostların intiqamını da alıb, torpaqlarımızı da. Sən həmişə bizim qəlbimizdə, yaddaşımızdasan. Qarşında baş əyirəm, Vətən oğlu!

**Xalası qızı Firəngiz:** 1998-ci il 24 yanvar tarixində qəhrəman, igid, vətənpərvər xalam oğlu Əlihüseyn Bakı şəhərində dünyaya gəlmişdir. Əslində biz ona "Alik" deyirdik – adının qısa formasını. Mən onun əsl adını bilmirdim, onu "Alik" deyə bilirdim. O qədər "Alik" demişik ki, artıq çox alışmışdıq. Alik-lə çoxlu xatirələrimiz var. Həmişə mənə deyirdi ki, xala qızlarından ən çox səni istəyirəm. Nənəmgilə gedirdim. Gedən kimi Alikin yanına qaçırdım. Nənəm də bizə acıqlanardı ki, Alikin yanına getməyin, qoyun dərsini oxusun. Mən də deyərdim ki, ay nənə, yaxşı da, Alik üçün gəlmişəm. Həmişə belinə çıxardım, qucaqlayardım...

Alikin bir kompüteri var idi. Kompüterin altında həmişə 3-5 topu olardı. Kağızları büküb yapışqan lentlə bağlayardı. Qardaşım Ayxanla ən çox futbol oyunu oynayardılar. Sonra Alikkompüterində futbol, döyüş oyunları vardı. Mən həmişə Alikə deyirdim ki, mənə döyüş oyunu öyrət. Onun sayəsində mən öyrəndim. Həmişə nə deyirdiksə eləyərdi, sözümüzü iki eləməzdi. Xalam oğlu Nadirlə futbol oyunu oynayardı. Mən Nadirin tərəfini tuturdum, Ayxan isə Alikin.

Nənəmin böyük şüşəbəndi vardı. Qış ayı idi. Nənəm həmişə qış ayında dibçəklərini ora yığardı. Bir gün şəhidlik zirvəsinə yüksəlmiş qəhrəmanımız olan Alik və hal-hazırda bir əsgər kimi torpaqlarımızı azad etmək uğrunda döyüşlərdə iştirak edən Nadir, yəni qısa desək ki, vətənpərvər xalam oğlanları həmin şüşəbənddə güləşməyə başladılar. Alik Nadiri necə itələdisə, Nadir dibçəklərin üstünə yıxıldı və başına tikanlar ilişdi. Səsə anam və xalam gəldi (Nadirin anası). Dibçəklər dağılmışdı, hər yer torpaq olmuşdu. Biz həm baxıb gülürdük, həm də nənəmdən qorxurduq. Alik, Nadir, xalam və anam nənəm bilməsin deyə tez evi yığışdırmağa başladılar. Hərə bir iş görürdü. Sonra Nadirin başından xalam tikanları təmizləməyə başladı.

Haradan bilmək olardı ki, iki vətənpərvər xalaoğlu eyni gündə, eyni anda hərbi xidmətə yollanacaqlar. Alik orada da mərdliyini göstərmiş və ən uca şəhidlik zirvəsinə yüksəlmişdir. Mənə desələr ki, ən böyük arzun nə olardı? Mən də deyərdim Aliki kaş geri qaytara bilsəydim... Kaş o günlərimiz yenə olardı, kaş zamanı geri ala bilsəm, o gözəl xatirələrə bir də qayıdardıq... Sənin üçün çox darıxmışam. Heç inana bilmirəm ki, aramızda yoxsan...

Elə bilirəm ki, əsgərlikdəsən. Amma sən ən gözəl şəhidlik zirvəsinə ucalmısan... Sən indi bizi görürsən, ancaq biz səni yox... Sən Vətəni qorudun, lakin biz səni qoruya bilmədik. Bağışla bizi, ŞƏHİDİM...

Alik, yerin cənnət olsun, şəhadətin mübarək olsun, igid qardaşım! Sən həmişə, hər zaman, hər an, hər saniyə, hər dəqiqə qəlbimizdə yaşayacaqsan!

**Komandiri:** Gəldiyi gündən rəftarı, tərzi, davranışı, duruşu ilə seçilirdi. Döyüşlərə sentyabrın 24-dən qatılmışdıq. Qətiyyən narahatlıq hissi yox idi. Bu da məndə təəccüb doğururdu. Nə isə gətirmək lazım olanda özünü qabağa atırdı ki, "mən gətirərəm". Fikirlərimi dilə gətirməsəm belə, baxışlarımdan məni anlayırdı. Sərbəst hərəkət edirdi, heç nədən qorxmurdu. Verdiyim tapşırıqların öhdəsindən artıqlaması ilə gəlirdi. Düzgün və dəqiq yerinə yetirirdi. Çox danışmazdı, sual verməzdi, heç bir şey də istəməzdi. Fərqli biri idi.





**Qrup yoldaşı Röyal:** "Dərsdən çıxanda metronun "28 may" stansiyasından evə gələrdik. Metro çox vaxt sıxlıq olurdu. Kim özünə harada yer etsəydi, orada dayanardı. Əlihüseyn harada dayanmağından asılı olmayaraq çatanda gəlib bizlə görüşüb sonra vaqondan düşərdi. O qədər diqqətli idi. Bunu ancaq o edirdi. Təəssüf ki, aramızdan tez getdi *("Əli mənim buramdadır" deyib, əlini ürəyinin başına qoyur)*. O, qardaş idi, dost idi, çətində dayağım idi... *(Qəhərlənir)*

**Qrup yoldaşı Arif:** İmtahan vaxtı idi. Əli ilə eyni vaxtda bilet çəkib yaxın masalarda oturduq. Mənə düşən sualların cavabını yaxşı bilmirdim. Biletə baxıb döyükə-döyükə qalmışdım. Əli bunu hiss etdi. O, öz biletinin üzünü mənim görəcək tərzdə çevirib başı ilə "gəl, dəyişək" işarəsini verdi. Dəyişdik. Əlinin bu jestinin hesabına mən imtahandan kəsilmədim. Bunu heç vaxt unutmaram... *(gözləri dolur)* Heyif Əlidən!

**Qrup yoldaşı Ağamurad:** Birinci kursun tələbəsi idik. Tez-tez futbola gedərdik. İlk dəfə futbola gedəndə heç bir-birimizi yaxşı tanımırdıq. "Qapıçı kim olsun?" deyə seçim edəndə, Əli deyir ki, qapıçı mən olum. Düzü, biz tərəddüd etdik. Güldük... Əlinin boyu balaca idi. Düşündük ki, bu balaca oğlandan nə qapıçı olar. Amma o, təkid etdi. Oyunun sonuna qədər Əli qapıdan 1 top da keçməyə qoymadı. Sən demə, bu əsl futbolçu imiş. Oyunun sonunda hamımız əvvəlki halımızı yadımıza salıb gülüşürdük. Sonrakı oyunlar qapıçımız həmişə Əli oldu. Yenə əvvəlki vaxtlar olardı, Əli qapıçı olardı... *(gözləri yaşarır)*

**Qrup yoldaşı Nazənin:** İmtahan vaxtı Əli hamının imtahandan çıxmasını gözləyirdi. Hamıdan bir-bir vəziyyətini soruşurdu. Ən axırıncı yoldaşımız imtahandan çıxana kimi gözləyib sonra gedirdi. O qədər vəfalı idi. Heç birimiz onun itkisinə inanmırıq.

**Qrup yoldaşı Sevinc:** İmtahanlara bir hazırlaşırdıq. Əli bilmədiyi sualın cavabını məndən soruşurdu, izah edərdim. Səbirlə, diqqətlə dinləyərdi. Sona qədər heç sözümü kəsməz-

di. Axırda başa düşmədiyini soruşardı. Bu xarakter təkcə onda vardı. Çox mədəni oğlan idi. Hamımızın sevimlisi idi. Bu 4 ildə onun yüksəkdən səsini eşitmədik, ondan hörmətsizlik görmədik. Əli xüsusi Əli idi. Adı Əlihüseyn olsa da, hamımız ona "Əli" deyirdik. Yeri cənnət olsun!

**İş yoldaşı Günel:** Xidmətə getməyə 2 gün qalmış dedi: "Səni görmək istəyirəm, sənə sürprizim var". Görüşdük. Dedi: "Bacı, gedirəm əsgərliyə". Kövrəldim, o isə "bəlkə şəhid oldum" deyib qəhqəhə çəkib güldü. Mən çox pis oldum.

– Nə oldu, yoxsa sən də anam kimi ağlayacaqsan?

– Getmə, pis oluram...

– Gedənlər məndən əskikdir, ya mən onlardan artığam? Sənin ad günündə verə bilmədiyim hədiyyəni gətirmişəm. Öz sifarişimlə düzəltdirdim ki, ürəyimcə olsun.

Bunu deyərək əlindəki qutunu açıb göstərdi. Arıya, həm də kəpənəyə oxşar kulonlu boyunbağı idi. Çox sevindim:

– Əli, əziyyət çəkmisən, mən səndən nəsə gözləmirdim ki...

– Bacı, o vaxt imkan olmadı almağa, amma sənə verməmiş gedə bilməzdim. Birdən olmaram, qayıda bilmərəm, mənim səndə xatirəm qalsın.

Çox pis oldum, dedim "Əli, bir də elə danışma..."

...Bu xəbəri eşidəndə bədənim titrədi. Tez boyunbağını əlimə götürüb olanları yadıma salıb hönkürtü ilə ağlamağa başladım. Necə ağlamışamsa, səsimə o biri otaqdan gələn anamın yanımda dayandığını belə hiss etməmişəm. Əli yadımdan bir an belə çıxmır . Mən böyük və dəyərli bir insanı itirdim... *(əlləri ilə gözlərini silir və pəncərədən çölə baxır)*

***

Əlinin istirahət günü idi. Biz isə işdə idik. Birdən Əlinin səsini eşitdim. Təəccübləndim. Çünki onun istirahət gününün öz planları olurdu. Soruşdum ki, istirahət vaxtı sən işə gəlməzsən, xeyirdir? Bildirdi ki, uşaqlarla görüşəcəyik bu tərəflərdə. Dedim, sizlə də salamlaşım. Bir az keçmiş sağollaşıb getdi. 2 saat keçməmiş qayıtdı. Niyə tez qayıtdığını soruşduq-





da darıxdığını bildirdi. Bir müddət sonra eyni vəziyyət təkrarlandı. Əli indi niyə qayıtdın? Dedi ki, Günel, uşaqlar qəlyan çəkirlər, pivə içirlər. Bu da mənlik deyil. Dedim ki, Əli sənə də istirahət lazımdır axı. Dedi: "Günel, onlar başqa fikirli adamlardır, mən başqa. Mən vaxtımı mənasız şeylərə itirmək istəmirəm. Mənim öz planlarım var."

***

Əlihüseynin anası Arzu xanımla iş yoldaşı Günel arasındakı dialoqdan bir parça:

– Əlinin özündən yaşda, imkanda, vəzifədə böyük dostları vardı?

– Bəli, böyükdən kiçiyə hamı onun xətrini istəyirdi. Hətta 40 yaşında bir dostu vardı ki, onu mən də tanıyırdım. O, hamı ilə söhbətləşə bilirdi. Hər insanla da yaxınlıq etməzdi. Şəhid xəbərini eşidəndə sevdiyi qıza dedim: Gülü, biz dəyərlilərimizdən birini itirdik, neçə gün özümə gələ bilmədim, mənə verdiyi boyunbağıya baxıb hey ağlayırdım.

**İş yoldaşı Anar:** İclas başlamamışdan əvvəl öz aramızda həmişə deyirdik: "Əli qalxacaq yenə, sözünü deyib oturacaq". İşdə onun heç kəslə problemi yox idi. Özünə problem yaradan deyildi. İşinin öhdəsindən çox yüksək səviyyədə gəlirdi. Amma hər hansı yoldaşına qarşı ədalətsizlik olardısa, işlə bağlı çətinlik görərdisə, onu qalxıb rahat şəkildə müzakirəyə qoyardı. Və haqlı şəkildə bildirdiyi fikirlərlə hamı razılaşardı.

# Şeirlər

*Yenə dəniz dalğalarının məni o yana, bu yana çırpıb atdığı günlərdən idi. Aliki hey düşünürdüm. Hisslərim və ağlım bir-birinə qarışmışdı. Özümdən ixtiyarsız bunları qələmə aldım. Oxuyanda isə bunu necə yazdığımı belə anlamadım...*

**Məndə Sən var...**

Qəlbimdə
Yazıya, ifadəyə,
Baxışa sığmayan
Duyğular var.
İfadəsi yox
Yaşamı var!
Görüntüsü yox
Sızımı var !!!
Sızımın da izi var,
Sevgisi var, həsrəti var !!!
Var görünən vücudumda
Yaşayan qururun,
Məğrurluğun,
Cəsurluğun var!
Bəşər tarixində
Adın və ölməzliyin var!
Alnımda
Şərəfin, mənliyin
Təmizliyin var!
Məndə sən var!
Bizdə bütöv
Azərbaycan var!

*Dünənim, bu günüm, sabahım olan əziz şəhid oğlum*
*Əlihüseynin əziz xatirəsinə anası **Arzu**dan*

## Arzu ana və şəhid oğlu Əlihüseynin dialoqu

*Ana*
Gözlərimdən dərd asılır hər gecə
Yol gözlərəm, bəlkə, gəldin gizlicə.
Gəl ay oğul, ürəyimi xalı edim yoluna,
Qurban kəsim, mən dolanım boynuna.

*Oğul*
Oğlunun şəhadət dadan çağıdır,
ŞƏHİDƏM, məkanım cənnət bağıdır.
Sil gözün yaşını möhkəm ol sən də
İndi qürur vaxtı, fərəh çağıdır.

*Ana*
Dərdim dəryalardan ağırdır, bala
Bu ağır yükümlə mən hara gedim?
Son dəfə gözünü yuman halında
Ata mı çağırdın, ana mı dedin?

*Oğul*
Qurbanam gözündən hər axan yaşa
Ay ana, gül-danış, qürurla yaşa,
Dərdim dəryalardan ağırdır demə
Ağlayıb, saç yolub, daha qəm yemə...

*Ana*
Yoxluğun qəlbimi göynədir, didir
Sənsiz gözlərimin bil, nuru itir,
Ayrılıq əlimi artıq buraxsın
Nə olar, gəl bir az, cənnət darıxsın.

*Oğul*
Gözləyirəm sizi cənnət yolunda
Yaxşıların məkanı bura sonunda.
Sizə cənnətimdə yuva salmışam
ƏLİyəm, HÜSEYNə qonşu olmuşam.

*Şəhanə Cəfərova*
*şairə*





## Mən ölsəm ağlama, ana

*Şəhid Məmmədov Əlihüseynin anası Arzu xanımın dilindən*

Şəhid anaları heç ağlamazmı?
Ürəyi çat verib köz bağlamazmı?
Mən ölsəm ağlama deyirsən, oğlum,
Necə dözüm sənsizliyə de, oğlum?!

Necə də həvəslə böyütdüm səni
Üzünə həsrət qoydun canım məni.
Şəhidlik zirvən də yandırır məni,
Necə dözüm sənsizliyə de, oğlum?!

Əlihüseyn sən əsgərə getdin,
Müharibə yoxuydu xidmətə getdin.
Sonunda şəhidlik şəhadətə yetdin
Necə dözüm sənsizliyə de, oğlum?!

Toy etmək arzusu sinəmdə yandı,
Xəbər gətirdilər igidin qandı.
Füzuli torpağın qanla suvardı,
Necə dözüm sənsizliyə de, oğlum?!

Diplomuna yana-yana baxıram,
Sən görmədin sənsiz, oğlum, baxıram.
Ürəyimdə sənə iş də tapıram,
Necə dözüm sənsizliyə de, oğlum?!

Sənsiz heç özümə gələ bilmirəm,
Sənin otağına girə bilmirəm.
Dediyin sözlər də məni öldürür,
Deyirdin mən ölsəm, ağlama, ana.

*Elmira Aslanxanlı Turan*
*14.10.2021*

**Bayraqda gör şəhidimin nur üzünü**

Arzuların ağuşunda Arzu ana
"Oğul!...deyə, sarılardı hey boynuna.....
Baxır indi şəhid oğul şəst-boyuna,
Qalibiyyət – övladıdır o Ananın!

Əlihüseyn sevdiyinə: Vətən qızı,
Bizdən bircə Vətən olsun təki razı...
Dönəcəyəm ya Şəhidtək, ya da qazi.
Yola salmış baxışları o sonanın...

Bayraqda gör Şəhidimin nur üzünü,
Himnində duy Şəhidimin səs-sözünü,
Yaddaşa yaz Şəhidimin ər izini,
Yad edərək yurd yerini yar sananı...

*Tapdıq Əlibəyli*

**Şəhidlikdir zirvəmiz!**

*Vətən yolunda qəhrəmancasına şəhid olan əzizimiz Alikin xatirəsinə*

Axı sən körpə idin, söylə, nə vaxt böyüdün?
Ölüm-dirilim oğul, yoxsa sənlə öyünüm?
İgidim, göz bəbəyim, o qədər yanır canım...
Məni anlayan, anlar, yaramı kimdən danım?
Demişdin, sən ağlama, gözəl gözün dolmasın.
Vüqarının üstünə bir an kədər qonmasın.
Dedin, ana, dua et, düşmən üstə gedirik,
Şərəflə tarix yazıb, yurdu azad edirik.
Şəhidlikdir zirvəmiz, Vətəndir amalımız.
Təki, yerdə qalmasın, bircə damla qanımız.
Mənim Əlihüseyn balam,
Məzarında rahat yat.
Canından çox sevdiyin,





Vətən torpağı azad.
Qanın yerdə qalmadı,
Çəkib düşmənə dağı
Qarabağda ucaltdıq
Ay-ulduzlu bayrağı!

*Elmira Məmmədova*
*19.11.2020*

**Əlihüseynə ithaf**

Gözümün önündə böyümüşdün sən,
"Bibiqızı" sözün hələ də qulağımdadır,
Bu gün Vətən üçün şəhid oldun sən,
Canlar alan torpaq səni də aldı.

Sən balaca, gülərüz, şirin uşaqsan,
Quzum, Şəhid adı sənə ağırdır axı.
Gəl yenə əvvəlki tək birgə oynayaq,
Sənə dəcəlliklər yaraşır axı.

Bu ağır xəbərə necə dözüm mən?
Hələ də inanıram gələcəyinə.
Ağlayaraq yazdığım bu şeiri mən
İthaf edirəm Əlihüseynə!

*Bibisi qızı Aytac*

**Çəkmə, ay ana!**

Atanın, ananın ümidi idin
Qardaş-bacını qoydun sən hara getdin?
Torpağın uğrunda canını verdin
22 yaşında məzara getdin.

Xidmətə getmişdin sevib vətəni
Məhv etdiniz Hadrutda neçə erməni
Ey şəhid, nəinki, qohum-qardaşın
Unutmaz heç zaman vətənin səni.

Gedəndə dedin ki, ölsəm ağlama
Dərdimi nə olar çəkmə, ay ana!
Əsgər getmək üçün gün saydın, oğul,
Ki, qurban gedəsən Azərbaycana.

*Xalası oğlu Azad Etibarlı*







2 yaşlı Əlihüseyn qardaşı Əlibəylə



Əlihüseyn (sağda) atası Elşad və qardaşı Əlibəylə



4-cü sinif şagirdi Əlihüseyn Məmmədov



Əlihüseyn atası Elşad bəy və anası Arzu xanımla









Əsgər Əlihüseyn Məmmədov



Xalası Kifayət xanımın ailəsi ilə. Şəhidlikdən 1 ay öncə...







Əlihüseyn iş yoldaşı ilə



Əlihüseyn 20 yaşında



Qrup yoldaşları ilə ADNSU-da



İş yerində



Anası Arzu xanım və bacısı Ruhəngizlə



Nənəsi Ruhəngiz xanımla







Hərbi xidmətin ilk ayı. İyul, 2020



Bağışladığı boyunbağı



Əlihüseyn 21 yaşında



22 yaşında. Aprel, 2020-ci il




**Xalası oğlu Nadirin Əlihüseyn şəhid olduqdan sonra Hadrutda divara yazdığı yazı**


BAKALAVR DİPLOMU ALİ TƏHSİL HAQQINDA DÖVLƏT SƏNƏDİDİR

C № 070715

AZƏRBAYCAN RESPUBLİKASI

BAKALAVR DİPLOMU

**Şəhid Əlihüseynin diplomu**



# MÜNDƏRİCAT

Öz söz .......... 5
Kimdir Əlihüseyn? .......... 7
I Fəsil .......... 15
II Fəsil .......... 18
III Fəsil .......... 22
IV Fəsil .......... 25
V Fəsil .......... 31
VI Fəsil .......... 37
VII Fəsil .......... 40
VIII Fəsil .......... 49
IX Fəsil .......... 53
X Fəsil .......... 62
XI Fəsil .......... 67
XII Fəsil .......... 72
XIII Fəsil .......... 76
XIV Fəsil .......... 89
XV Fəsil .......... 92
XVI Fəsil .......... 95
XVII Fəsil .......... 99
Şəhid Əlihüseyn anası Arzu xanımın xatirələrində .......... 105
Şəhid Əlihüseyn haqda xatirələr .......... 119
Şeirlər .......... 137
Fotolar .......... 145

СУРАЯ-ХАЛИЛ

# Я-Али!

ПОВЕСТЬ О СОЛДАТЕ

*Эта книга посвящается памяти всех погибших сыновей Азербайджана, которые защищали свою Родину, не щадя себя, во имя светлого будущего своей страны!*

# ПРЕДИСЛОВИЕ

Твое отсутствие сильно изменило меня, сынок. Во мне изменилось все – взгляд, поведение, лицо. Даже цвет моих глаз стал другим. Я больше не смотрю на окружающий меня мир так, как раньше.

На самом деле ты жив, ты с нами. Но тоска по тебе разрушает меня. Не ты покинул нас, это мы временно разлучились с тобой. Мы скоро встретимся. Придет конец твоей тоске там, в раю. Никакое богатство не может восполнить потерю ребенка и никакое богатство не может открыть врата рая. Я нахожу успокоение лишь когда думаю, что ты находишься в раю, стал шехидом на этом славном пути, когда я – мать шехида, своими печальными глазами вижу радость многих азербайджанцев. Но меня изводит тоска по тебе.

Очень трудно быть матерью шехида. Но еще труднее с достоинством и гордостью нести эту тяжелую ношу с печалью в сердце. Я стараюсь не плакать, как ты просил. Стараюсь следовать твоей фразе – «моя мама сможет».

Я даже не ношу черное, ибо сделав это, я как бы приму твое отсутствие. Я стараюсь не плакать. Я не хочу, чтобы мать шехида казалась беспомощной, подавленной, согнувшейся от горя. Напротив, мать шехида должна быть сильной, отважной, бесстрашной, непобедимой. Если она в силах пережить потерю сына, значит, она способна на все.

Как ты сказал: «Жаль, что я не успел к гимну».

Как ты сказал: «Иду во имя Родины».

Как ты сказал: «Если я погибну, не плачь».

Как ты сказал: «Ты тоже дочь этой Родины».

Как ты сказал: «Если я не вернусь, пусть у тебя останется память обо мне».

Как ты сказал: «Мама, увидишь, кем станет твой сын».

Значит, ты знал…

Я не хотела бы запятнать имя шехида, которое ты заслужил, заплатив своей жизнью, сделать его обыденным, бросить на него тень. Я постараюсь быть матерью, достойной своего сына – героя.

Пусть говорят: «Вот она – достойная мать достойного Алигусейна»…



# КЕМ БЫЛ АЛИГУСЕЙН?

Мамедов Алигусейн Эльшад оглу родился в 1998 году в Баку в интеллигентной семье. Поступив в 2005 году в школу №18 города Шеки, Алигусейн спустя некоторое время вместе с семьей переехал в Баку, где продолжил учебу в гимназии с углубленным изучением иностранных языков. По определенным причинам его семья решила, что Алигусейн должен продолжить учебу в районе. В итоге в 2015 году он получает полное среднее образование в той же самой школе №18.

Школьные годы Алигусейна прошли очень спокойно, его всегда уважали и любили за отличное поведение, культурное отношение ко всему и всем, спокойный характер.

Однажды Алигусейн, чье имя никогда не упоминалось в конфликтных ситуациях, вмешивается в спор. Удивленные этим друзья пытаются отвести его в сторону. Он их успокаивает: «Я вступил в спор, но это не значит, что я буду драться. Каждый вопрос можно решить культурно». И он решает вопрос в свойственной ему спокойной манере. Его друзья часто обращаются к нему как к «аксакалу».

Решивший получить высшее техническое образование, Алигусейн заканчивает школу с хорошими оценками. Среди предметов, по которым он получил оценку «отлично», была и история. В то время это казалось случайностью, но теперь это находит свое подтверждение.

В 2016 году он поступил на факультет энергетической инженерии Азербайджанского государственного университета нефти и промышленности (АГУНП) и окончил его в 2020 году.

Хотя семья Алигусейна была финансово обеспеченной, он никогда не просил у родителей денег на карманные расходы. Отец ежедневно предлагал ему деньги, и каждый раз он говорил:

– У меня есть деньги.

Экономя деньги, Алигусейн в основном покупал одежду на накопленные сбережения.

Желание «встать на ноги» наводит Алигусейна еще в студенческие годы на мысль о работе, пусть и на небольшой должности. Свою трудовую жизнь он начинает в сети супермаркетов – сначала продавцом, затем кассиром.

Большое чувство ответственности делает его безупречным в работе. В отношениях, которые он выстраивает с руководством, товарищами по работе, клиентами, он проявляет предельную искренность и высокую культуру. Завоевав доверие и уважение руководящего состава этими качествами, Алигусейн всегда находится в центре их внимания. Не желая терять ценного сотрудника, руководство предоставляет ему возможность работать по приемлемому графику с учетом необходимости сдачи экзаменов. Несмотря на то, что его родители, видя, как он устает, неоднократно просят его уволиться, Алигусейн не соглашается:

– Вы пережили очень много невзгод, чтобы вырастить меня. Отныне я хочу хотя бы немного помочь вам.

Алигусейн был из тех, кто даже живя в своем спокойном мире, всем сердцем восставал против несправедливости. Он защищал права работников, как свои собственные. Старался решать проблемы окружающих. При этом сам никогда бы не обратился к семье со своими проблемами. Чувство ответственности вкупе с сильным характером способствовали тому, что все его дела были упорядочены. Родители иногда ему говорили:



– Нужно время от времени приходить и узнавать в университете, как идут твои дела.

На это он отвечал так:

– Не волнуйтесь, я не сделаю ничего такого, из-за чего вам пришлось бы ходить с опущенной головой, и что может вызвать у вас чувство стыда. Можете быть уверены во мне.

Его семья знала его очень хорошо. Говоря такое, они словно подстегивали его к ответственности.

Учеба и работа не отвлекали его от отдыха. Алигусейн, который очень любил еду, во время отдыха посещал интересные места, открывал для себе что-то новое. Ему не нравилось, когда кто-то беспокоил его во время отдыха. Из-за того, что он одинаково относился ко всем, особо близких друзей у него не было. Алигусейн часто делился своими мечтами с мамой.

Его самой большой мечтой было открыть фастфуд. Он даже придумал название: «БУРГЕРЫ ОТ АЛИ».

Мама, Арзу ханум, говорила:

– Не волнуйся, мы окажем тебе необходимую поддержку. Ты получи образование и исполни свой долг перед Родиной. Когда придет время, мы займемся этим вопросом.

Будучи ребенком, Алигусейн никогда не создавал проблем для своих родителей. Они тоже хотели воздать ему по достоинству за его старания, и стали откладывать средства для осуществления всех его желаний.

К сожалению, иногда жизнь меняет путь, ведущий нас к нашим мечтам. Дорога, которой мы идем, не зная, что нам уготовано Божественным Творцом, приводит не туда, куда мы рассчитываем.

Алигусейн, который хотел получить высшее магистерское образование, но не смог этого сделать, обещает матери, что, вернувшись с военной службы, обязательно исполнит ее мечту. Его мама, Арзу ханум, по специальности – учитель. Она воспитывала своих учеников в патриотическом духе, и это повлияло на ее сына. Алигусейн внимательно следил за тем, как Арзу ханум готовилась дома к мероприятиям на эту тему. Сын видел, как его мать прививает своим ученикам чувство любви к Родине, нации, флагу. Это его вдохновляло и усиливало тягу к военной службе. После завершения работы по защите диплома он уже полностью сосредоточился на военной карьере. Несколько очень близких родственников занимали высокие должности в военной сфере. Каждый раз, когда разговор заходил на эту тему, он говорил своей матери:

– Я не хочу, чтобы вы просили моих дядей обеспечить мне комфортную военную службу. Я сын этой страны. Куда бы меня ни послали, позвольте мне служить там достойно. Я уже совершеннолетний, независимо мыслящий человек. Не беспокойся обо мне. Я обладаю интеллектом, который позволит мне справиться с любыми задачами».

В последнее время его терпение почти иссякло, он словно искал письмо из военкомата.



Однажды он пришел домой и сказал: «Мама, я пошел в военкомат, прошел комиссию, 7 июля уезжаю». Его радости не было предела. Казалось, ему не хватает крыльев, чтобы летать. Увидев слезы в глазах матери, Алигусейн сказал: «Мама, почему ты плачешь? Я должен пойти на военную службу, отдать долг Родине, как все. Ведь эту любовь, стремление выполнить долг перед Родиной вы привили нам с детства. Так почему же ты сейчас плачешь? Лучше дай мне свое благословение, а не плачь. И обещай мне, что даже если я погибну, ты не будешь плакать. Ты же знаешь, я не могу видеть твои слезы...», – сказал он и обнял мать.

Арзу ханум дала ему деньги, чтобы купил он себе поесть все, что он захочет. На это он с улыбкой сказал:

– Мама, ты, кажется, открыла мешок щедрости. Я и не знал, что ты так сильно меня любишь, так волнуешься. Не переживай.

А судьба потихоньку делала свою жестокую работу...

***

У Алигусейна была любимая девушка. Когда он с радостью сообщил ей, что отправляется в армию, она сказала ему:

– Может, не пойдешь...

На что Алигусейн сказал ей: «Я иду защищать Родину».

Девушка:

– А как же я?

Алигусейн:

– Ты тоже дочь этой Родины.

За два дня до ухода в армию он подарил другой коллеге по работе подарок, который не смог купить на ее день рождения. «Если я не вернусь, пусть у тебя останется память обо мне», - сказал он ей, смеясь.

***

Таким образом, летом 2020 года Алигусейн отправляется на военную службу. Дома он всех просит не приезжать к нему.

Он не хотел, чтобы родители испытывали неудобства, так как военная часть, в которой он служил, располагалась в отдаленном районе. Алигусейн был очень привязан к бабушке и дедушке. Бабушка очень скучала по нему. Видя эту тоску, родители решают навестить своего сына вместе с бабушкой. В тот период из-за пандемии не было возможности комфортно передвигаться по стране. И так долгий путь по различным причинам становится еще дольше. Добравшись, наконец, до воинской части, родители некоторое время ждут Алигусейна. Время, словно пытаясь приучить их к долгой тоске, медленно делало свою работу. Наконец, к ним вышел Алигусейн. Состоялась радостная встреча. Сын посетовал на родителей за то, что они проделали такой длинный путь, но в душе он, наверное, был рад встрече. Ведь это была его последняя встреча с родными…

***

27 сентября 2020 года. Вторая Карабахская война. Война за наши оккупированные земли, которая началась с контрнаступательной операции. Родители Алигусейна начали тревожиться о нем. Мать и отец знали своего сына. Они были уверены, что он не будет спокойно стоять в стороне, что бросится в бой с именем Родины на устах, несмотря на то, что у него нет достаточного опыта военной службы. Мать, которая каждый день с большим волнением ждала телефонного звонка, так вспоминает свой последний разговор с сыном: – Он был очень радостным. Как будто он что-то выиграл и испытывал от этого радость. Он говорил с гордостью. И успокаивал меня: «У меня все хорошо, мама, я тепло одеваюсь…Не беспокойся за меня. Я даже фрукты поел».



Беспокойство матери, которая до этого не знала, что ее сын находится на поле боя, постепенно усиливается. «Как это могло произойти»? Ответ на этот вопрос дал сам Алигусейн, который там, на фронте, сообщил командиру о своем желании пойти в бой.

Алигусейн по мере возможности не прерывал связи с домом, звонил, когда мог, зная о беспокойстве матери. Последний звонок был 7 октября. Затем, увидев, что вестей от сына нет, мать начала испытывать все более нарастающее беспокойство.

Сердце матери сжимается так, будто хочет предупредить ее о чем-то. Отец так описывает состояние матери Алигусейна:

– В тот день, когда Али стал шехидом, Арзу была не в себе. Физически она была дома, но душа словно находилась в другом месте. Она рассеянно смотрела на меня, но не слышала, что я говорю. Мне очень не понравилось такое ее состояние. Я решил не оставлять ее одну.

И вот, пришла горькая весть. Дом, некогда наполненный мечтами, смехом, радостью Алигусейна, в одно мгновенье погрузился во тьму. Эти мгновения нельзя описать никакими словами. Эти чувства могут быть выражены только неисполненными желаниями, которые остаются в отчаянных сердцах, слезами, текущими из глаз, полных грусти.

